İSA HƏBİBBƏYLİ

# XX ƏSRİN ƏVVƏLLƏRİ AZƏRBAYCAN YAZIÇILARI













İSA HƏBİBBƏYLİ

# XX ƏSRİN ƏVVƏLLƏRİ AZƏRBAYCAN YAZIÇILARI

Bakı - «Nurlan» - 2004

*Elmi redaktoru:*
**Hüseyn Həşimli**
*filologiya elmləri namizədi, dosent*

**İsa Həbibbəyli. XX əsrin əvvəlləri Azərbaycan yazıçıları. Bakı, «Nurlan», 2004. – 160 səh.**

Kitabda XX əsrin əvvəllərində yaşayıb-yaratmış Azərbaycan yazıçısı və şairlərinin, tənqidçi və ədəbiyyatşünaslarının həyatı və yaradıcılığının əsas tarixləri, tərcümeyi-hal göstəriciləri, yaradıcılıq yolu öz əksini tapmışdır.

$H\frac{4603000000-651}{N-098-2004}$ **Qrifli nəşr**

**© «Nurlan», 2004**

## ÖMÜR YOLU – SƏNƏT YOLU

Məsləkim - tərcümeyi-halımdır.
*Abbas Səhhət*

Azərbaycan ədəbiyyatşünaslıq elmində yazıçı və şairlərin həyatı və yaradıcılıqlarının əsas tarixlərinin, tərcümeyi-hal göstəricilərinin, yaradıcılıq yolunun tədqiqi və təqdimi zamanı uzun bir dövr ərzində ideoloji prinsiplər əsas götürülmüşdür. Hətta XX əsrin böyük bir zaman kəsiyində, sovet dövründə sənətkarların bir çox tərcümeyi-hal faktları və müəyyən əsərləri barədə susmaq, bəzi tarixləri unutmaq, yaxud unutdurmaq, zəruri informasiyaların üstündən keçmək lazım gəl-mişdir. Yalnız Azərbaycanın müstəqillik qazanması ilə yazıçıları olduqları, yaşadıqları kimi tədqiq və təqdim etməyə imkan münasib yaranmışdır.

Sənətkarların tərcümeyi-halları və yaradıcılıq yolu ilk növbədə yaşanan real ömür yolundan ibarətdir. Həmin çətin və şərəfli yolun böyüklü-kiçikli bütün detalları onların tərcümeyi-halının və sənət dünyasının əsasını təşkil edir. Ədəbiyyatşünaslıq elmimizdə çox vaxt sənətkarların tərcümeyi-halları yazılarkən keçilmiş ömür yolunun yalnız ən zəruri hadisələri əsas götürülmüş, daha çox müsbət məqamların təqdiminə xüsusi diqqət yetirilmişdir. Tərcümeyi-hal dünyasındakı mürəkkəb və ziddiyyətli məsələlərin aşkar edilib oxuculara çatdırılması məqsədəuyğun sayılmamışdır. Beləliklə, ədəbiyyat cəbhəsinin nümayəndələrinin həyatı birtərəfli şəkildə, yalnız müsbət mövqedən öyrənilmişdir.

Yazıçının tərcümeyi-halı həm də onun yaşadığı dövrün və mühitin ayrılmaz tərkib hissəsidir. Azərbaycan ədəbiyyatşünaslığında sənətkarların həyatı araşdırılarkən . əksər hallarda məsələnin bu cəhətinə ya heç fikir verilməmiş, ya da dövrün elə ümumi hadisələrindən bəhs edilmişdir ki, onların böyük əksəriyyətinin onun formalaşma və inkişafında ciddi bir rol olmamışdır. Nəticədə ayrı-ayrı yazıçılar sanki quru səhrada

yeganə yaşıl ağac, yaxud da nəhəng dənizdə tənha ada kimi təqdim olunmuşlar. Bu isə ayrılıqda götürülmüş hər hansı bir sənətkarın ömür yolunun, yaradıcılıq aləminin istənilən səviyyədə dərk olunmasına maneçilik törətmişdir.

Tərcümeyi-hal yalnız əsas və böyük hadisələrdən ibarət ola bilməz. Təəssüf ki, indiyədək bizdə həmin ənənə üstünlük qazanmışdır. Halbuki əsas tərcümeyi-hal faktları ilə yanaşı, kiçik, ilk baxışda adi, təsadüfi, ötəri, lüzumsuz görünən detallar da yaşanmış ömrün müəyyən bir parçasıdır. Əslində tərcümeyi-haldakı böyük fakt və hadisələr həmin kiçik detallardan yaranır. Bu qəbildən olan təfərrüatları nəzərə alınadan keçilmiş ömür yolunun geniş miqyaslı, diqqəti daha çox cəlb edən məsələlərini bütün dəqiqliyi və aydınlığı ilə təhlil etmək, öyrənmək, təsəvvürə gətirmək çətindir. Bu meyl bizdə aparıcılıq təşkil etdiyinə görədir ki, hələlik əksər sənətkarlarımızın mükəmməl elmi tərcümeyi-halı yazılıb ortaya çıxarılmasıdır.

Ədəbi şəxsiyyətlərin tərcümeyi-halı yalnız şəxsi vərəqələrdəki göstəricilərlə müəyyənləşdirilməməlidir. Sənətkarların uzun illər boyu uğrunda mübarizə apardıqları böyük ideallar da digər adamlardan fərqli olaraq onların tərcümeyi-hal dünyasına daxil olur. Hətta sənətkarların amal və idealları arasındakı ciddi fərqlər onların özünəməxsus, bənzərsiz ədəbi portretinin yaradılmasında mühüm əhəmiyyətə malik olur. Görkəmli romantik şair Abbas Səhhət də «məsləkim-tərcümei-halımdır» dedikdə həm də bunu nəzərdə tutmuşdur.

Sənətkarın yaradıcılığı onun tərcümeyi-halının əsas hissəsidir. Əsil sənətkarlar gördükləri, oxuduqları, yaxud eşitdiklərini yox, yaşadıqlarını yazmışlar. Buna görə də təkcə ayrı-ayrı əsərlərin yazılması, nəşri, tamaşaya qoyulması kimi faktlar deyil, bəzən müəyyən ədəbi qəhrəmanların taleyi də yazıçıların tərcümeyi-halına daxil olan faktlara çevrilirlər. Bədii yaradıcılıq təcrübəsində müəllifin öz ədəbi qəhrəmanının prototipinə çevrildiyi məqamlar az olmamışdır.

Deməli, yazıçıların tərcümeyi-hallarının mükəmməl öyrənilməsi bütövlükdə ədəbiyyatın tədqiqi və dərkində mühüm rol oynayır. Təəssüf ki, indiyədək orta və ali məktəblərdə tərcü-

meyi-hal dərslərinə lazımi əhəmiyyət verilməmiş, bu vacib məsələ elmi-nəzəri və metodiki baxımdan istənilən səviyyədə öyrənilib ümumiləşdirilməmişdir. Həmin sahədə müəllim və tələbələrə, habelə geniş oxucu kütlələrinə bələdçi ola biləcək əsərlər, metodik işləmələr və göstərişlər hazırlanıb meydana qoyulmamışdır. Fikrimizcə, çoxəsrlik Azərbaycan ədəbiyyatını təmsil edən sənətkarların tərcümeyi-hallarını mükəmməl surətdə əks etdirən xüsusi bir kitaba ciddi ehtiyac vardır.

«XX əsrin əvvəlləri Azərbaycan yazıçıları» adlandırdığımız bu kitabda əsasən XIX əsrin sonlarından XX əsrin otuzuncu illərinə qədərki mərhələsində yaşayıb-yaratmış yazıçı və şairlərin tərcümeyi-halları və yaradıcılıq yolu öz əksini tapmışdır. Lakin təqdim edilən kitab tərtib prinsiplərinə, yazıçıların qruplaşdırılmasına, tərcümeyi-hal faktlarının təqdiminə görə XX əsr Azərbaycan ədəbiyyatına dair bu vaxta qədər yazılmış dərsliklərdən əsaslı surətdə fərqlənir. Əvvəla, burada imkan daxilində yazıçıların tərcümeyi-halları və yaradıcılıq yolu bizə məlum olan böyüklü-kiçikli bütün detalları və faktları, habelə dövrün və ədəbi-ictimai mühitin ən səciyyəvi hadisələri ilə vəhdətdə əks etdirilmişdir. Əksər sənət adamlarının tərcümeyi-hal faktları yenidən dəqiqləşdirilmiş, bu prosesdə yeni məlumatlarla zənginləşdirilmiş, müasir ədəbiyyatşünaslığın yekun qənaətlərinə və yeri gəldikcə tərəfimizdən aşkara çıxarılmış yeni arxiv sənədlərinə istinad olunmuşdur.

İkincisi, kitabda məlum və mövcud dərsliklərdən fərqli olaraq, əvvəlcə tənqidi-realist ədəbiyyatın deyil, maarifçi ədəbiyyatın nümayəndələrinin tərcümeyi-halı və yaradıcılıq yolu verilmişdir. Çünki XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı özündən əvvəlki ədəbiyyatın davamı və varisidir. XIX əsr Azərbaycan ədəbiyyatı, əsasən, maarifçi-realist ənənələrin yetkinləşməsi, kamillik dövrünə qədəm qoyması ilə öz ömrünü tamamlamışdır. Həmin ənənələr bir qədər yeni şəkildə keçən əsrin əvvəllərində də davam etdirilmişdir. Ona görə də XX əsrin əvvəllərinin Azərbaycan ədəbiyyatının da özündən əvvəl bir əsrdən artıq davam edən maarifçi-realist ənənələrlə başlanması varislik və bütövlük prinsiplərinin qorunub

saxlanmasına şərait yaradır. Həm də bu zaman bir mərhələ kimi ondan sonra gələn tənqidi realizmin təşəkkülündə maarifçi-realist ənənələrin xüsusi rolu olduğu da nəzərə alınmışdır.

Sənətkarların yaradıcılıq metodları, yaxud ədəbi cərəyanlar üzrə qruplaşdırılmasında da mövcud bölgülərdən uzaqlaşmağı, elmin son qənaətlərinə, şəxsi müşahidə və araşdırmalarımıza istinad etməyi lazım bilmişik. Bu cəhətdən ilk dəfə olaraq Üzeyir Hacıbəyov, Yusif Vəzir Çəmənzəminli, Eynəlibəy Sultanovu və Marağalı Zeynalabdini tənqidi realist yazıçılar qrupuna daxil etməyi məqsədəuyğun hesab etmişik. Fikrimizcə, Nəriman Nərimanov həyatda, ictimai-siyasi mübarizə meydanında inqilabçı-demokrat olmuşdur. Daha doğrusu, doktor Nərimanov bədii əsərlərinin mütləq əksəriyyətini 1905-ci ilə qədər yazmış və həmin əsərlərdəki maarifçi demokratizmdən keçərək inqilabi demokratiya mərhələsinə gəlib çatmışdır. Ona görə də Nəriman Nərimanovun ədəbiyyat tarixindəki yeri ilə siyasi hərəkatdakı mövqeyini eyniləşdirmək olmaz. Bundan başqa, mövcud dərsliklərdən fərqli şəkildə Abdulla Şaiq maarifçi sənətkarların yox, romantizm ədəbi cərəyanının nümayəndələrinin bölgüsünə aid edilmişdir. Çünki Abdulla Şaiqin XX əsrin əvvəlləri hüdudunda romantizm ədəbi cərəyanına mənsub olduğu ədəbiyyatşünaslıq elmində çoxdan sübuta çatdırılmışdır. Eyni zamanda, Cəfər Cabbarlının XX əsrin əvvəllərində romantizm ədəbi cərəyanına aid edilməsində də elmin son qənaətləri əsas götürülmüşdür.

Kitabda birinci dəfə olaraq XX əsr Azərbaycan ədəbi-ictimai fikrinin inkişafında özünəməxsus mövqeləri olan Həsən bəy Zərdabi, Eynəlibəy Sultanov, Məhəmməd ağa Şahtaxtinski, Ömər Faiq Nemanzadə, Əlibəy Həseynzadə, Cəfər Cabbarlı, Məmmədəmin Rəsulzadə, Ələkbər Qərib, Əhmədbəy Ağayev, Əliabbas Müznib, Hacı Kərim Sanılı, Abdulla Sur, Seyid Hüseyn kimi sənəkarların tərcümeyi-hallarına və yaradıcılıq yoluna yer ayrılmışdır. Bu yazıçı, şair, publisist, tənqidçi və ictimai xadimlərin adları indiyədək mövcud dərsliklərdə, ədəbiyyat tarixlərində çəkilmiş, lakin onların barəsində lazımi ədəbi-tarixi məlumatlar verilməmiş, bəzən isə yanlış meyarlarla

qiymətləndirilmişlər. Biz imkan daxilində həmin boşluğu doldurmağa, qeyri-elmi baxışları aradan qaldırmağa səy göstərmişik.

XX əsrin əvvəllərində yaşayıb-yaratmış yazıçı və şairlərin tərcümeyi-hal dünyasının və yaradıcılıq yolunun keçmiş sovet ideologiyasından uzaq, real, həyati faktların, etibarlı sənədlərin, təkzibolunmaz informasiyaların gözü ilə, mümkün olduqca geniş və obyektiv şəkildə təqdim olunması diqqət mərkəzində saxlanılmışdır. Beləliklə, milli ədəbiyyatımızın mürəkkəb, keşməkeşli və mühüm bir dövrünün sənətkarları müstəqillik işığında, olduqları, yaşadıqları kimi təqdim edilmək imkanı qazanmışlar.

Təqdim olunan kitab ilk növbədə ali və orta məktəblərin müəllim, tələbə və şagirdləri, həmçinin geniş oxucu kütləri üçün nəzərdə tutulur. Fikrimizcə, istənilən şəxs bu kitab vasitəsilə qısa vaxt ərzində milli ədəbiyyatımızın mühüm bir mərhələsini təmsil edən yazıçıların tərcümeyi-halları və yaradıcılıq yolunu asanlıqla öyrənmək, izləmək imkanı əldə edə biləcəkdir.

Nəhayət, bu kitab XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatına dair müstəqillik dövrünün yeni dərsliyini hazırlamaq üçün də zəmin ola bilər.

# BİRİNCİ BÖLMƏ

## MAARİFÇİ-REALİST YAZIÇILAR

## SULTANMƏCİD QƏNİZADƏ
## (1866-1937)



1866-cı ildə, (aprel) – Sultanməcid Hacı Murtuzəli oğlu Qənizadə ziyalı tacir ailəsində anadan olmuşdur. Şair Ağaməsih Şirvani S.M.Qənizadənin ulu babasıdır. Yazıçının anası Fatma xanım tacir ailəsindən idi. Sultan Məcidin Ağababa, Mustafa adlı qardaşları, Sitarə və Səfurə adlı bacıları olmuşdur.

70-ci illərin əvvəlləri – Şamaxı məhəllə məktəbində oxumuşdur.

1875-1879-cu illər – Şamaxı «məclis» məktəbində təhsil almışdır. Görkəmli maarifçi şair S.Ə.Şirvani, maarifçi-publisist Cəlal Ünsizadə onun müəllimləri olmuşdur. Sultan Məcid bu məktəbdə M.Ə.Sabir, H.Mahmudbəyov və M.Mahmudbəyov qardaşları, S.M.Əfəndiyev ilə birlikdə oxumuşdur.

1879-1882-ci illər – Qori seminariyasına oxumağa getməkdən imtina etmiş, Şamaxı şəhər məktəbində təhsil almışdır. Ona bu məktəbi «əla» qiymətlərlə bitirmək haqqında attestat verilmişdir.

1882-1883-cü illər – Tiflisdə Aleksandrovski Müəllimlər İnstitutunda oxumuş, gizli tələbə dərnəklərində iştirak etmiş, buranı bitirmişdir (20 iyun, 1887). Həbibbəy Mahmudbəyovla birlikdə Bakıda ilk «Rus-müsəlman» məktəbinin əsasını qoymuşdur (20 oktyabr). Üç ildən artıq bu məktəbdə Azərbaycan və fars dillərini tədris etmişdir.

1889-cu il – «İstilahi-Azərbaycan» dərsliyini yazıb tamamlamışdır.

1890-cı il – «istilahi-Azərbaycan» dərsliyi Bakıda çap olunmuşdur. «Lüğəti-rusi və türki» dərsliyi Tiflisdə «Kəşkül» mətbəəsində çapdan çıxmışdır. Lüğətin ilk nəşrində 5050, 1922-ci ildə çıxan altıncı nəşrində isə 17 min söz var idi.

1891-ci il – «Qönçə xanım» pyesini yazmış, bədii yaradıcılığa başlamışdır. Bakıda açılmış ikinci «Rus-müsəlman» məktəbinə müdir təyin olunmuşdur. 7 il bu vəzifədə çalışmamışdır. Dovjenkonun «Qana qan» pyesini Azərbaycan dilinə tərcümə etmişdir.

1893-cü il – «Tülkü və Çaqqal bəy» adlı mənzum yumoristik dramını yazmışdır.

1894-cü il – «Rusi və türki dilmancı» adlı tədris vəsaiti çap olunmuşdur. «Rus dilinin müəllimi» («Самоучитель русского языка») dərsliyi tamamlanıb oxuculara çatdırılmışdır. L.N.Tolstoyun «Əvvəlinci şərabçı» əsərini Azərbaycan dilinə tərcümə etmişdir.

1896-cı il – N.Nərimanovla birlikdə «Sovqat» jurnalını, H.Mahmudbəyovla müştərək «Nubar» məcmuəsini nəşr etmək üçün rəsmi icazə almağa təşəbbüs göstərmiş, baş tutmamışdır. Bakıda kitabxana yaratmağa təşəbbüs göstərmişdir.

N.Nərimanovla birlikdə Bakıda ziyalı məclisi yaratmışdır. Poqosskinin «Allah divanı» hekayəsini təbdil etmişdir. Ümumiyyətlə, «Nabəkar qonşu» (A.F.Poqosski), «Axşam səbri xeyir olur» (Q.Sundukyan), «Xor-xor» (Myannitski), «Dursunəli və Ballıbadı» (Ter-Qriqorev) təbdillərini yazmışdır.

1897-ci il – «Cami-mərifət» adlı jurnal çıxarmağa səy göstərmişdir (25 yanvar). Razılıq ala bilməmişdir (19 fevral). «Çıraq» adlı qəzetin proqramını hazırlayıb hökumətə təqdim etmişdir (mart). Qəzetin nəşri məqsədəuyğun sayılmamışdır. Bakıda kitabxana yaratmağa razılıq verilmişdir (22 fevral). Nəşriyyat yaratmaq istəmiş, bir il sonra mətbəənin təşkilinə icazə almışdır.

1898-ci il – S.M.Qənizadənin təşəbbüsü ilə ikinci «Rus-müsəlman» məktəbi Bakıda azərbaycanlılara məxsus ilk ikinci dərəcəli şəhər məktəbinə çevrilmişdir (6 iyun). Məktəbdə təhsil

müddəti 6 il idi. Sultan Məcid müəllim 7 il bu məktəbə qeyri-rəsmi şəkildə müdirlik etmişdir.

«Müəlimlər iftixarı» hekayəsi yazılmışdır. Bu, «Mətbuati-Şeydabəy Şirvani» diologiyasının birinci hissəsi idi.

1900-cü il – Əliskəndər Cəfərzadə ilə birlikdə hazırladığı «Kilidi-ədəbiyyat» adlı dərsliyi çapdan çıxmışıdır. Diologiyanın ikinci hissəsi – «Gəlinlər həmayili» yazılmışdır.

1901-ci il – «Kilidi-ədəbiyyat» dərsliyi təkrar nəşr olunmuşdur.

1905-ci il – Qafqaz canişini general-adyutant Vorontsov – Daşkovun xüsusi əmri ilə Qafqaziya (Qori) müəllimlər seminariyasmın Azərbaycan şöbəsinə tərbiyəçi-inspektor təyin edilmişdir (3 avqust). F.Köçərli və R.Əfəndiyevlə birlikdə «Övraqi-tərbiyə» adlı jurnal nəşr etməyə təşəbbüs qaldırmış, Tiflisdə C.Məmmədquluzadədən həmin jurnalı «Qeyrət» mətbəəsində çap etməyə razılıq almışdır. Qafqaz Təhsil Dairəsi jurnalın çapına icazə verməmişdir.

1906-cı il – «Allah xofu» hekayəsini yazmışdır. «Körpə uşaqların tərbiyəsinə dair» silsilə məqaləsini yazıb, «Rəhbər» jurnalında dərc etdirmişdir. Qori seminariyasında inspektor vəzifəsini daşımışdır.

1907-ci il – «qurban bayramı» hekayəsini yazmış, «Dəbistan» jurnalınıda çap etdirmişdir.

1908-ci il – Qori seminariyasının direktoru M.Miropiyevlə aralarında olan münaqişə kəskinləşmiş, S.M.Qənizadə öz xahişi ilə tutduğu vəzifədən azad olunmuşdur (iyul). Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəbləri idarəsində inspektor vəzifəsinə təyin edilmişdir (1 avqust).

1912-ci il – Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəbləri idarəsinin inspektoru S.M.Qənizadənin pedaqoji fəaliyyətinin və «Rus-müsəlman» məktəblərinin yaranmasının 25 illik yubileyi Bakıda qeyd olunmuşdur. «Məktəb» jurnalının 21-ci nömrəsi yubileyə həsr edilmişdir. Jurnalda F.Köçərlinin yubileyi məqaləsi də verilmişdir.

1917-ci il – Zaqafqaziya komissarlığının əmri ilə Bakı quberniyası – Dağıstan vilayəti xalq məktəblərinin naziri təyin olunmuşdur (18 aprel).

«Qurban bayramı» hekayəsi «Məktəb» jurnalının mətbəəsində kitabça halında çap edilmişdir.

1918-ci il – «Müsavat» partiyasının sol cinahının üzvü kimi Azərbaycan Demokratik Respublikasının tərkibinə daxil olmuşdur. Bir müddət milli parlamentin katibi vəzifəsini daşımışdır.

1919-cu il – Azərbaycan Demokratik Respublikası parlamentinin «Azərbaycan vətəndaşlığı haqqında» qərar qəbul etdiyi iclasa sədrlik etmişdir (11 avqust). «Müsavat» partiyası daxilindəki fraksiya çəkişmələrindən sonra müsavatçılar ona Bakını tərk etmək təklifini irəli sürmüşlər.

1920-ci il – Xalq Maarif Komissarlığında inspektor vəzifəsinə təyin olunmuşdur. Eyni zamanda, Azərbaycan dilində dərslik tərtib və nəşr edən komissiyanın sədri seçilmişdir.

1921-ci il – Maarif Komissarlığında kənd məktəbləri üçün müəllim kadrları hazırlayan pedaqoji texnikumlarda məşğələlərin rəhbəri vəzifəsinə təyin olunmuşdur. Eyni zamanda, Zaqafqaziya proletar hərbi məktəbinin direktoru köməkçisi vəzifəsini tutmuşdur. Bu məktəbdə Azərbaycan dili və psixologiyadan dərs demişdir.

M.Mahmudbəyov, Ə.İ.Cəfərzadə ilə birlikdə «Maarif» adlı jurnal nəşr etdirmişdir.

Bakıda təşkil edilən Şərqşünaslıq və İctimai Elmlər İnstitutunda şərqşünaslıq kafedrasının müdiri olmuşdur.

1922-ci il – «Lüğəti Rusi və türki» adlı tədris vəsaiti təkrar və təkmilləşdirilmiş şəkildə çap olunmuşdur.

1923-cü il – Azərbaycan teatrının 50 illik yubileyini keçirən komissiyanın üzvü seçilmişdir. «Azərbaycan – türk teatrosunun müxtəsər tarixçəsi» kitabının hazırlanmasında iştirak etmişdir. Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin üzvü seçilmiş, bu cəmiyyətin məsul katibi vəzifəsində çalışmışdır.

1925-ci il – Bakı Xalq Maarif şöbəsinin sərəncamına göndərilmişdir. Qadın və kişi pedaqoji texnikumlarında pedaqo-

gika, psixologiya və didaktikadan dərs demiş, pedaqoji təcrübələrə rəhbərlik etmişdir.

Əsrin 30-cu illəri – Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu yanında lüğət komissiyasının üzvü olmuş, «K» hərfi üzrə lüğət hazırlamışdır.

N.Nərimanov (1932) və M.Ə.Sabir (1936) haqqında xatirələrini yazmışdır.

«XIX əsrin axır illərində Azərbaycanda xalq maarifi və ədəbiyyata dair xatiratım» əsərini tamamlamışdır (1936).

1937-ci il – Repressiya təqiblərinə məruz qalmış, həbs olunmuş, güllənmə cəzasına məhkum edilmişdir.

## NƏRİMAN NƏRİMANOV (1870-1925)



1870-ci il – N.Nərimanov Tiflis şəhərində anadan olmuşdur (14 aprel). Atası Kərbəlayı Nəcəf Allahverdi oğlu, anası Həlimə Hacı Məmmədqasım qızı Zamanovadır. Onların 9 övladı olmuşdur: Salman, Mərziyə, Rza, Rizvan, Fatma, Səkinə, Nəriman və Zəhrabanu.

1871-1878-ci illər – Uşaqlıq illəri Tiflisdə keçmişdir. Böyük qardaşı Salmandan ərəb və rus əlifbasını öyrənmişdir.

1879-cu il – Tiflis ruhani məktəbinə daxil olmuşdur. Azərbaycan, ərəb, fars dillərində təhsil almış, rus dilini öyrənmişdir.

1885-ci il – Tiflis ruhani məktəbini bitirmişdir. Zaqafqaziya (Qori) müəllimlər seminariyasının aşağı hazırlıq sinfinə daxil olmuşdur.

1886-cı il – Seminariyanın yuxarı hazırlıq sinfinə dəyişdirilmişdir (21 may).

1887-ci il – Seminariyanın əsas şöbəsinə keçmişdir. Xatirə dəftəri tərtib etməyə başlamış, Gürcüstanın Manglis şəhərin-

də yay istirahəti zamanı rus və Avropa şairlərinin əsərlərindən nümunələri bu dəftərə köçürmüşdür.

1889-cu il – Qori seminariyasının üçüncü əsas sinfində oxumuşdur. Atası Nəcəf kişi dünyadan köçmüşdür (20 noyabr).

1890-cı il – Seminariyanı bitirmək ərəfəsində bir heykəlin təsvirinə həsr olunmuş yazı imtahanı vermişdir. «Moskva» adlı inşa yazmışdır (22 may). «Böyük Pyotrun islahatlarının əhəmiyyəti» mövzusunda buraxılış işi yazıb təhvil vermişdir (28 may). Seminariyanı bitirmişdir (20 iyun). Borçalı qəzasındakı Qızılhacılı kənd ibtidai məktəbində müəllimlik fəaliyyətinə başlamışdır (sentyabr).

1891-ci il – Qızılhacılıda ikən «Nadanlıq» dramının ilk variantını tamamlamışdır. Bakıya köçmüşdür. Bakıda Pobedonostsevin şəxsi progimnaziyasının hazırlıq sinfində müəllimlik etmişdir.

1892-ci il – Qoqolun «Müfəttiş» komediyasını Azərbaycan dilinə tərcümə etmişdir. Progimnaziyada çalışmışdır.

1893-cü il – «Nadanlıq» pyesinin nəşrinə və tamaşaya qoyulmasına icazə almaq məqsədilə Qafqaz senzura komitəsinə müraciət etmişdir (20 mart).

1894-cü il – Bakıda Şərqdə ilk dəfə olaraq kitabxana-qiraətxananın açılmasına nail olmuşdur (12 aprel). «Nadanlıq» pyesi Bakıda Quberniya idarəsi mətbəəsində çap olunmuşdur.

1895-ci il – «Dilin bəlası, yaxud Şamdan bəy» komediyası Bakıda Ağamusa Nağıyevin maddi köməyi ilə quberniya idarəsi mətbəəsində çapdan çıxmışdır.

1896-cı il – Bakı realnı məktəbində sinif mürəbbisinin köməkçisi vəzifəsinə dəyişilmişdir (7 may). «Kaspi» qəzetində «Əli qələmli müsəlman ziyalıları haqqında bir neçə söz» adlı məqaləsi dərc olunmuşdur (1 fevral, № 25). «Bahadır və Sona» romanının birinci hissəsi tamamlanmış, Bakıda çap olunmuşdur. Qoqolun «Müfəttiş» komediyası N.Nərimanovun tərcüməsində və onun iştirakı ilə tamaşaya qoyulmuşdur (avqust).

N.Nərimanov III Aleksandr adına Bakı kişi gimnaziyasına müəllim təyin olunmuşdur (sentyabr).

1897-ci il – «Tərbiyət» və «Həblülmətin» qəzetlərinin Bakı şəhəri üzrə müvəkkili olmuşdur.

1898-ci il – Gəncədə «Hacı Qara» tamaşasında Hacı Qara rolunu oynamışdır. Tamaşadan əvvəl teatr və maarifçilik ideyaları barədə çıxış etmişdir. Kitabxana-qiraətxana bağlanmışdır (oktyabr).

1899-cu il – «Nadir şah» tarixi dramı Bakıda Hacı Zeynalabdın Tağıyevin xərcilə «Aror» mətbəəsində çap olunur. «Bahadır və Sona» romanının ikinci hissəsi Bakıdakı Axundov mətbəəsində nəşr edilmişdir.

«Teatr haqqında bir neçə söz» məqaləsi Azərbaycan və rus dillərində Bakıda kitab halında çap olunmuşdur. «Türk dilinin müxtəsər sərfi-nəhvi», «Самоучитель русского языка для мусульман», «Самоучитель татарского языка для русских» kitabları çapdan çıxmışdır.

Baş mətbuat idarəsinə «Təzə xəbərlər» adlı həftəlik qəzet çıxarmaq üçün müraciət etmişdir (8 oktyabr).

1900-cu il – «Nadir şah» əsərinin tamaşaya qoyulmasına və «Tazə xəbərlər» qəzetinin nəşrinə icazə verilməmişdir. Peterburqa Baş mətbuat komitəsinə «Məktəb» adlı aylıq elmi-pedaqoji jurnal çıxarmaq barədə müraciət etmişdir (4 dekabr). «Hacı Zeynalabdın Tağıyevin əlli illik məişəti və camaata xidmətləri» adlı kitabı Bakıda çapdan çıxmışdır.

1902-ci il – Bakı kişi gimnaziyasında müəllimlik vəzifəsindən azad olmuşdur.

Novorosiysk İmperator Universitetinə qəbul olunmuşdur (7 iyul).

1903-cü il – «Nadanlıq» pyesi Odessada təhsil alan azərbaycanlı tələbələr tərəfindən tamaşaya qoyulmuşdur (7-12 yanvar). Ümumrusiya tələbə qurultayının iştirakçısı olmuşdur. Odessada İ.S.Turgenyevin «Subaylıq» əsərində baş rolu oynamışdır. Baxçasarayda və Simferapolda gənclərlə görüşmüş, tamaşa göstərmişdir.

1904-cü il – Tiflisdə «Dilin bəlası» əsəri tamaşaya qoyulmuşdur. Bakıda yoluxucu xəstəxanada nəzarətçi həkim işləmişdir.

1905-ci il – RSDFP-nin «Hümmət» təşkilatının üzvlüyünə qəbul edilmişdir. «Mücahid» partiyasının təşkilində iştirak etmişdir. Universitetdə oxuyan müsəlman tələbələrin mitinqinə sədrlik etmiş (10 yanvar), Kazan Universitetinə dəyişilmək barədə ərizə vermişdir (13 avqust). Ərizəsini geri almışdır (10 oktyabr).

«Nadir şah» pyesi fars dilinə tərcümə olunmuşdur.

1906-cı il – RSDFP-nin proqramını Azərbaycan dilinə tərcümə etmişdir. Odessadan Bakıya qayıtmışdır (yanvar). Bakıda «Təbabət və islam» mövzusunda məruzə etmişdir (25 yanvar), «Nadir şah» əsəri Bakıda Tağıyev teatrında tamaşaya qoyulmuşdur (4 fevral). Azərbaycan müəllimlərinin birinci qurultayında iştirak etmişdir (avqust). «Həyat» qəzetində «Müsəlman müəllimlərinin yığıncağı münasibətilə bir neçə söz», «Henrix İbson» (21 may), «Cümələr oynayan teatrçılara açıq məktub» (31 may), «Müəllimlər icmasına dair» (3-13 avqust), «İrşad» qəzetində «Həftə fəryadı» silsiləsindən məqalələr dərc olunmuşdur.

«Nicat» xeyriyyə cəmiyyətinin heyətinə seçilmişdir (mart). Odessaya qayıtmışdır (dekabr).

1907-ci il – «Təkamül» qəzetində «Odessa faciəsi» məqaləsi dərc olunmuşdur. Novorosiysk universitetində təhsilini davam etdirmişdir.

1908-ci il – Novorosiysk universitetini bitirmişdir. Bakı şəhər xəstəxanasında həkimlik fəaliyyətinə başlamışdır. «Həsən bəy Zərdabi və teatr» mövzusunda məruzə ilə çıxış etmişdir.

1909-cu il – Tiflisə getmiş, burada həkimlik etmiş, həbs olunub Metex qalasına salınmışdır (1 mart). Həştərxana sürgün olunmuşdur (30 sentyabr). Həştərxanda «Vəba xəstəliyi» kitabı çap edilmişdir.

1910-cu il – Həştərxanda «Arvad məsələsinə dair», «Təbabət və islam» kitabları çapdan çıxmışdır.

1911-ci il – Həştərxan quberniyası həkimlərinin 11 qurultayında çıxış etmişdir (16 aprel). Həştərxandan M.Ə.Sabirin vəfatı münasibətilə başsağlığı teleqramı göndərmişdir (17

may). M.F.Axundovun anadan olmasının 100 illik yubiley gecəsinin iştirakçılarını teleqramla təbrik etmişdir.

1912-ci il – Həştərxan xalq universiteti cəmiyyətinin əvvəlcə müavini, az sonra sədri (may), universitetin tibb komissiyasının üzvü (iyun) seçilmişdir.

1913-cü il – Həştərxan şəhər dumasının üzvü seçilmişdir (23 yanvar). Həştərxanda müsəlman gənclərinin dram dərnəyini yaratmışdır (iyun). Bakıya qayıtmışdır (15 iyul). Bakıda «Pir» povesti çap olunmuşdur. «İqbal» qəzetində «İdil kənarında» əsəri dərc edilmişdir (27 sentyabr).

1914-cü il – Bakıda Qaraşəhər xəstəxanasına həkim təyin olunmuşdur (22 may). «Bahadır və Sona»nın pyes variantını tamamlamışdır (21 sentyabr). 8-ci xəstəxanaya müdir təyin edilmişdir (25 sentyabr). 1918-ci ilədək bu vəzifədə çalışmışdır. «iqbal» qəzetində «Həftə fəryadı» silsiləsindən məqalələr dərc etdirmişdir.

1915-ci il – «Bir kəndin sərgüzəşti» povesti «Əmi» adı ilə «Açıq söz» qəzetində dərc olunmuşdur. Gülsüm xanım Mirkazım qızı ilə ailə həyatı qurmuşdur (yay). Şamaxıda «Bahadır və Sona» pyesi tamaşaya qoyulmuşdur.

1916-cı il – «Ölülər haqqında təəssürat» məqaləsi çapdan çıxmışdır. «Ədəb yurdu» cəmiyyətinin üzvü seçilmişdir. «Fikir» adlı jurnal çıxarmağa təşəbbüs göstərmişdir.

1917-ci il – «Hümmət» bolşevik cəmiyyətinin müvəqqəti komitəsinin sədri seçilmişdir. «Nadir şah» əsəri özbək dilində tamaşaya qoyulmuşdur. RSDP-nin Bakı komitəsinin üzvü olmuşdur. «El həyatı» jurnalına redaktor təyin edilmişdir.

1918-ci il – N.Nərimanovun redaktorluğu ilə «Elə həyatı» jurnalının birinci nömrəsi çapdan çıxmışdır (14 yanvar). Jurnalda ədəbii «Xalqın səadəti xalqın özündən asılıdır» məqaləsi dərc olunmuşdur.

Bakı Sovetinin şəhər təsərrüfatı və sığınacaq üzrə xalq komissarı seçilmişdir (25 aprel). Bakı qəzası kəndli deputatları Sovetinin birinci qurultayında iştirak və çıxış etmişdir (may). Ağır xəstələnmiş, xəstəxanaya düşmüşdür. RSD (F) P-nin Bakı

Komitəsinin tapşırığı ilə müalicə üçün Astarxana göndərilmişdir (8 iyun).

1919-cu il – Astarxan qubemiya icraiyyə komitəsinin xalq maarifi şöbəsinə rəhbərlik etmişdir. Burada çıxan «Hümmət» qəzetində əməkdaşlıq etmişdir ( may ayından sonra).

RK (b) P MK-nın dəvəti ilə Moskvaya çağırılmış, ilk dəfə Leninlə görüşmüşdür (iyul). RSFSR Xarici İşlər Komissarlığında Müsəlman Yaxın Şərqi şöbəsinin müdiri təyin olunmuşdur (8 avqust). Çiçerinlə birlikdə imzaladığı, «Azərbaycan, Dağıstan və Gürcüstan kəndlilərinə» müraciətnamə yayılmışdır (4 oktyabr). Eyni zamanda, RSFSR-də milli münasibətlər komissarlığının müavini vəzifəsini daşımışdır (4 noyabrdan). RK (b) P MK-nın Şərq Xalqlarının Kommunist Təşkilatları Mərkəzi Bürosunun üzvü seçilmişdir (25 dekabr).

1920-ci il – Azərbaycan Kommunist Partiyasının Bakıda çağırılmış birinci qurultayında fəxri sədr seçilmişdir (11-12 fevral). RK (b) P MK-da təşkil olunmuş Qafqaz bürosunun tərkibinə daxil edilmişdir (8 aprel). Bakıya göndərilməsi qərara alınmışdır (20 aprel). Azərbaycan Müvəqqəti İnqilab Şurasının sədri seçilmişdir (27 aprel). Azərbaycan Xalq Komissarları Şurasının və Xarici İşlər Komissarlığının sədri seçilmişdir (28 aprel). Moskvadan Bakıya gəlmişdir (16 may). Neft sənayesinin, ticarət limanının milliləşdirilməsi barədə dekret imzalamışdır. «Ədalət» partiyasının Ənzəli şəhərində keçirilən birinci qurultayında fəxri sədr seçilmişdir (22 iyun). Çar ordusunun keçmiş generalları Əliağa Şıxlinski və Səmədbəy Mehmandarovun xidmətindən istifadə etmək haqqında Leninə teleqram göndərmişdir (10 avqust). Şərq xalqlarının birinci qurultayının açılışında çıxış etmişdir (1 sentyabr). D.Bünyadzadə ilə birlikdə M.Əzizbəyov adına Bakı Politexnik İnstitutunun təsis olunması barədə dekreti imzalamışdır (16 noyabr).

1921-ci il – Azərbaycan qadınlarının birinci qurultayında təbrik nitqi söyləmişdir (8 fevral). N.Nərimanovun rəhbərliyi ilə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi təşkil olunmuşdur (16 may). Bakı – Culfa dəmir yolunun tikilməsi barədə (30 may),

Bakıda Şərqşünaslıq və Sosial Elmlər İnstitutunun açılması haqqında (4 iyul) dekretləri imzalamışdır. Naxçıvan diyarına köməklik göstərmək barədə bütün xalq komissarlarına göstəriş vermişdir (16 iyul). Bakıda Azərbaycan Pedaqoji İnstitutunun açılmasına dair dekret verilmişdir (26 avqust).

1922-ci il – Zaqafqaziya kommunist təşkilatlarının I qurultayında ölkə partiya komitəsinin tərkibinə seçilmişdir (fevral). Zaqafqaziya Federasiyası İttifaq Sovetinin üç sədrindən biridir (mart).

Genuya konfransının iştirakçısı olmuşdur (aprel-may). SSRİ-nin I Sovetlər qurultayında MİK-in sədrlərindən biri seçilmişdir (dekabr).

1923-cü il – SSRİ MİK sessiyasına (birinci çağırış) sədrlik etmişdir. Sessiya SSRİ-nin Konstitusiyasını təsdiq edir, ilk İttifaq hökumətini yaradır (iyul).

Nərimanovun imzası ilə «Dünyanın bütün xalqlarına və hökumətlərinə» MİK Rəyasət Heyətinin müraciətnaməsi göndərilmişdir.

1924-cü il – RK (b) P MK plenumunda Nərimanov SSRİ Sovetlər qurultayına rəhbərlik edən komissiyanın tərkibinə seçilmişdir. II Sovetlər qurultayında V.İ.Leninin xatirəsinə həsr olunumuş matəm iclasında çıxış etmişdir (yanvar). Bütün il boyu dövlət işi ilə yanaşı, Nərimanov SSRİ MİK yanındakı Şərqşünaslıq İnstitutunda və Şərq Zəhmətkeşlərinin Kommunist Universitetində mühazirələr oxumuş, özünün «Lenin və müsəlman Şərqi», «Lenin və Şərq», «Bir il Leninsiz» əsərlərini çapa hazırlamışdır.

1925-ci il – Moskvada ictimai-siyasi və ədəbi fəaliyyətinin 30 illik yubileyi keçirilmişdir (fevral).

N.Nərimanov ürək xəstəliyindən vəfat etmişdir (19 mart). Qızıl Meydanda dəfn olunmuşdur (23 mart).

# SÜLEYMAN SANİ AXUNDOV
# (1875-1939)



21 oktyabr 1875-ci il – Süleyman Sani Rzaqulubəy oğlu Axundov Şuşa şəhərində bəy ailəsində anadan olmuşdur. Anası Dürnisə xanım tanınmış Azərbaycan maarifçisi Səfərəlibəy Vəlibəyovun bacısıdır. Uşaqlıq illəri Ağdam şəhərinin yaxınlığındakı Seyidli kəndində keçmişdir.

1885-1889-cu illər – Zaqafqaziya (Qori) müəllimlər seminariyasının nəzdindəki ibtidai məktəbin birinci sinfinə daxil olmuşdur. Məktəbin müdiri, dayısı S.Vəlibəyov idi. Həmin illərdə seminariyada təhsil alan C.Məmmədquluzadə, N.Nərimanov və başqaları ilə tanış olmuşdur. İbtidai məktəbi bitirmiş, pedaqoji şuranın qərarı ilə seminariyanın aşağı hazırlıq sinfinə keçirilmişdir (1 iyul 1889-cu il).

1889-1990-cı illər – Hazırlıq siniflərində təhsilini davam etdirmişdir. Paltosunu çarpayısının üstünə qoyması ona nöqsan tutulmuşdur (14 sentyabr 1890-cı il).

1891-ci. il – Seminariyanın ikinci əsas sinfinə keçmişdir (iyun). Paltosunu əlüzyuyulan otaqda qoyduğuna görə yazılı surətdə tapşırıq alınmışdır. Təhsildə fərqlənmişdir.

1893-cü il – Seminariya yeməkxanasında növbətçi olarkən Qori şəhərindən çörəyi baha qiymətə almaq üstündə A.O.Çernyayevski (1840-1894) tərəfindən təqsirləndirilmişdir (18 yanvar). Pedaqoji şuranın fövqəladə yığıncağında əxlaqdan qiymətinin «əla»dan «kafi»yə endirilməsi və ona töhmət verilməsi qərara alınmışdır (22 yanvar). Seminariyanın feldşeri Potapovdan borc aldığı 9 manat pula şüşəsalan Xaritovdan tapança alınmışdır. S.Vəliyevə, tələbə dostu Mussa Quliyevə, inspektor A.O.Çernyayevskiyə məktub yazmış, özünü tapança ilə vurmuşdur (23 yanvar). Təsadüfən sağ qalmışdır. Pedaqoji şuranın növbəti iclasında günahsız olduğu aşkara çıxmışdır (4

mart). Həkim Sakov S.S.Axundovun tamamilə sağaldığını bildirmişdir (12 fevral).

1894-cü il – Seminariyanın üçüncü sinfində təhsil almışdır. «Qafqaz haqqında tarixi məlumat və rus hökumətinin Qafqaz üçün gördüyü işlər» adlı buraxılış işi yazmış, həmin işi müdafiə etmişdir (16 may). Seminariyanı bitirmişdir (9 iyun). Stavropol quberniyasının Acikulaq ibtidai məktəbinə təyinat almışdır. İqlim xüsusiyyətlərini nəzərə alaraq ora getməmişdir. Bakıdakı üçüncü rus-tatar məktəbinə müəllim təyin edilmişdir (1 oktyabr).

1895-1897-ci illər – Bakı üçüncü rus-tatar məktəbində pedaqoji fəaliyyətini davam etdirmişdir. N.Nərimanov, S.M.Qənizadə, M.Mahmudbəyovla yaxından əlaqə saxlamışdır. N.Nərimanovun «Nadanlıq» dramının tamaşasında ilk dəfə olaraq aktyor kimi iştirak etmişdir.

1897-1901-ci illər – Bakıdakı Lavrova progimnaziyasının birinici sinfinə müəllim təyin olunmuşdur (1 oktyabr 1897). «Tamahkar» komediyasını yazmışdır (1899). Əsər ilk dəfə Bakıda Nikitinin sirk teatrında tamaşaya qoyulmuşdur (1899). Hacı Murad rolunu Cahangir Zeynalov oynamışdır. Lavrova progimnaziyasında pedaqoji fəaliyyəti başa çatmışdır (1901).

1901-1905-ci illər – Yenidən Bakıdakı üçüncü rus-tatar məktəbinə müəllim təyin olunur (1901). 1905-ci ilədək burada çalışmışdır. «Qonaqlıq», «Kövkəbi-Hürriyyət», «Yuxu» hekayələrini yazmışdır (1905). «Nicat» maarif cəmiyyətində fəaliyyət göstərmişdir (1905-ci ildən). Bakıdakı yeddinci rus-tatar məktəbinə müdir vəzifəsinə irəli çəkilmişdir (1905).

1906-cı il – Məktəb müdiri vəzifəsini davam etdirmişdir. Həmin məktəbədə N.Nərimanovun «Nadir şah» tarixi faciəsi tamaşaya qoyulmuşdur. Rzaqulu rolunu Süleyman Sani ifa etmişdir. «Dibdat bəy, «Türk birliyi» pyeslərini yazmışdır. Türk yazıçısı Şəmsəddin Saminin «Dəmirçi Gavə» faciəsinin Azərbaycan dilinə təbdil etmişdir. «münsiflər məzhəkhalı» adlı ilk məqaləsi «İrşad» qəzetində dərc olunmuşdur (15 iyun). Bakıda çağırılan birinci müəllimlər qurultayında iştirak etmiş, tədris proqramı hazırlayan komissiyanın tərkibinə daxil olmuşdur.

1907-ci il – Azərbaycan müəllimlərinin ikinci qurultayında iştirak etmişdir. N.Vəzirovun «Müsibəti-Fəxrəddin» faciəsinin tamaşasında Hürü nənə rolunda oynamışdır.

1908-ci il – M.Mahmudbəyov, S.Əbdürrəhmanbəyzadə, F.Ağazadə, A.Talıbzadə və A.Əfəndizadə ilə birlikdə tərtib etdiyi «İkinci il» dərsliyi Bakıda çap olunmuşdur.

1909-1910-cu illər – «Tutu quşu» hekayəsini yazıb «Tərəqqi» qəzetində dərc etdirmişdir (29 mart 1909). Yeddinci rus-tatar məktəbində müdir vəzifəsində çalışmışdır.

1911-ci il – Bakıdakı dördüncü rus-tatar məktəbinə direktor vəzifəsinə dəyişilmişdir. H.V.Frengin «Xain qəhrəman» hekayəsini Azərbaycan dilinə tərcümə etmişdir.

1912-ci il – «Qorxulu nağıllar» silsiləsinə daxil olan «Əhməd və Məleykə», «Abbas və Zeynəb», «Nurəddin» hekayələrini yazmışdır. Bu nəsr nümunələri «məktəb» jurnalında dərc olunmuşdur.

1913-cü il – «Qaraca qız» hekayəsini yazmış, «Məktəb» jurnalında dərc etdirmişdir (№ 2).

1914-cü il – «Əşrəf» hekayəsi «Məktəb» jurnalında çapdan çıxmışdır. «Qorxulu nağıllar» silsiləsinə daxil olan hekayələr «Məktəb» jurnalının keçirdiyi müsabiqədə mükafata layiq görülmüşdür.

1915-ci il – Anası Dürnisə xanım Ağdam şəhərində vəfat etmişdir (13 mart).

1916-cı il – Bakıda «Qorxulu nağıllar», «Rəşid və Gövhər» adlı hekayə kitabları çap olunmuşdur.

1917-1920-ci illər – Bakıdakı dördüncü rus-tatar məktəbinin direktoru vəzifəsini davam etdirmişdir. Xalq Maarif Komissarlığında çalışmışdır. Qarabağ vilayəti maarif şöbəsinin müdiri vəzifəsinə təyin edilmişdir (9 avqust 1920-ci il). Onun tərcüməsində «Dəmirçi Gavə» əsəri Tehranda (1917-1918) və Bakıda (4 may 1920) tamaşaya qoyulmuşdur.

1921-ci il – Xəstəliyi ilə əlaqədar olaraq Bakıya qayıtmışdır. Maarif şöbəsində müfəttiş vəzifəsində işləmişdir. Yeni yaradılmış «Tənqid-təbliğ teatrı»nın repertuar komissiyasının tərkibinə daxil edilmişdir. «Laçın yuvası» pyesini tamamlamış-

dır (aprel). Əsər ədəbi müsabiqədə birinci mükafata layiq görülmüşdür. Pyes ilk dəfə Bakıda tamaşaya qoyulmuşdur (23 may). «Tənqid-təbliğ teatrı» yazıçının «Çərxi-fələk» pyesi ilə açılmışdır.

«Şahsənəm və Gülpəri», «Molla Nəsrəddin Bakıda», «Səadət zəhmətdədir», «Qaranlıqdan işığa» pyesləri yazılmışdır.

1922-ci il – Azərbaycan Ədib və Şairlər İttifaqının sədri seçilmişdir. Müəlliflər kollektivi ilə birlikdə «Yeni türk əlifbası» dərsliyini tərtib etmişdir. «Eşq və intiqam» faciəsini yazmışdır. Əsər ilk dəfə Bakıda Dövlət teatrında tamaşaya qoyulmuşdur (29 mart). «Bir eşqin nəticəsi», «Şeytan», «İki yol» pyesləri yazılmışdır.

1923-cü il – «Türk ədib və şairlər dərnəyi»nin idarə heyətinin sədri seçilmişdir (29 avqust). «Yeni həyat» pyesi, «Qan bulağı», «Ümid çırağı», «Cəhalət qurbanı» hekayələri yazılmışdır.

1924-cü il Pedaqoji fəaliyyətini davam etdirmiş, Bakıda məktəb müdiri vəzifəsini daşımışdır. «Qatil uşaq», «Molla Qasım» hekayələri yazılmışdır.

1925-ci il – «Təbrik», «Nə üçün» hekayələrini tamamlamışdır.

1926-cı il «Qızıl qələmlər» ittifaqının təftiş komissiyasının üzvü seçilmişdir. «Sona xala», «Namus», «Zarafat» hekayələri yazılmışdır.

1927-ci il – «Mister Qireyin köpəyi», «Son ümid», «İki dost, iki düşmən» hekayələri tamamlanmış, professor Boqdanovun «Sığırçın», «Qaranquş», «Sərçə» əsərləri ruscadan Azərbaycan dilinə tərcümə edilmişdir. «Zarafat» adlı hekayələr kitabı çapdan çıxmışdır.

1929-cu il Azərbaycan yazıçılarının nümayəndə heyətinin tərkibində Gürcüstanda olmuşdur. «Bax, mən buna yoxam» hekayəsi yazılmışdır.

1930-1931-ci illər – Məktəb direktorluğu ilə məşğul olmuşdur. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin üzvü kimi fəaliyyət göstərmişdir (1930).

1932-ci il – Əmək qəhrəmanı fəxri adına layiq görülmüşdür.

1933-1934-cü illər – Pedaqoji fəaliyyətini davam etdirmişdir. SSRİ Yazıçılar İttifaqının üzvlüyünə qəbul edilmişdir (1934).

1935-ci il – «Gənc maşinistka və qoca yazıçı» hekayəsi tamamlanmışdır.

1936-cı il – M.Qorkinin vəfatı münasibətilə «Qalib Maksim Qorki» adlı məqaləsini yazıb, mətbuatda dərc etdirmişdir. «S.S.Axundovun əsərləri» kitabı çapdan çıxmışdır.

1937-ci il – «Fuad» hekayəsi yazılmışdır. Hekayə «Qorxulu nağıllar» silsiləsinə daxil edilmək üçün düşünülmüşdür.

1938-ci il – «Uşaqlıq həyatımdan xatirələr» adlı memuarı yazılıb sona çatdırılmışdır.

1939-cu il – Bakıda vəfat etmişdir (29 mart). Məzarı fəxri xiyabandadır.

## RƏŞİDBƏY ƏFƏNDİYEV
## (1863-1942)



1863-il – Rəşidbəy İsmayıl oğlu Əfəndiyev Şəki şəhərində ruhani ailəsində anadan olmuşdur.

1870-ci il – Şəki şəhərində mollaxanada təhsilə başlamışdır. Altı il burada təhsil almışdır.

1878-ci il – Tiflisə, həmyerlisi, görkəmli dramaturq və icitimai xadim M.F.Axundovun yanına gedib onunla görüşmüş, hərbi məktəbdə oxumaq arzusunda olduğunu bildirmişdir. Azərbaycan SSRİ EA Əlyazmaları İnstitutunda saxlanan xatirələrdən məlum olur ki, böyük ədib, ona, yaxın gələcəkdə açılacaq Zaqafqaziya (Qori) müəllimlər seminariyasında oxumağı məsləhət bilmişdir.

1879-cü il – Zaqafqaziya (Qori) müəllimlər Seminariyasının birinci sinfinə daxil olmuşdur. Həmin ilin yayında Şəkidə ipək zavodunun barama anbarında M.F.Axundovun «Hacı Qara» komediyasını tamaşaya qoymuşdur. Rəşidbəy Əfəndiyev Hacı Qara rolunda çıxış etmişdir.

1880-cı il – A.O.Çernyayevskinin tövsiyəsi ilə mollaxana təhsilini tənqid edən birpərdəli dram əsəri yazmışdır. Pyes seminariyada tamaşaya qoyulmuşdur. Sonralar həmin pyes əsasında «Qan ocağı» dramını qələmə almışdır.

1882-ci il – A.O.Çernyayevskinin tərtib etdiyi «Vətən dili» dərsliyini nümunəvi xətlə yazıb çapa hazırlamışdır. Əsər 1883-cü ildə Tiflisdə daş basması ilə nəşr edilmişdir. Seminariyanı bitirmişdir (iyun). Qutqaşendə yeni açılmış ibtidai məktəbə müdir və müəllim təyin edilmişdir.

1883-1889-cu illər – Qutqaşen ibtidai məktəbində pedaqoji fəaliyyətini davam etdirmişdir.

«Сборник материалов для описание местностей и племен Кавказа» məcmuəsində «Nuxa qəzasındakı xalq səhiyyə haqqında bir neçə material» adlı məqaləsi dərc edilmişdir (1889).

1890-cı il – Yeni məktəb təşkil etmək üçün Xaçmaza göndərilmişdir. İki il burada çalışmışdır.

1892-1899-cu illər – Tiflisdəki Azərbaycan məktəbində ana dili müəllimi, eyni zamanda, Zaqafqaziya ruhani idarəsində katib vəzifələrində işləmişdir. «Новое обозрение» qəzetində «İbtidai savad təlimi haqqında müsəlmanların fikri», «Müsəlmanlar arasında xalq maarifi» (Tiflis, 1895, № 4114), «Müsəlman qadınlarının vəziyyəti və uşaqların tərbiyəsi» (№ 4145) məqalələri dərc olunmuşdur.

«Uşaq bağçası» adlı əlifba dərsliyi İstambulda çap olunmuşdur (1898). Kitabın üzərində yazılmışdır: «Savadsız adam bu kitabla bir ayda oxuyar və yazar». Cəmi 72 səhifədən ibarət olan dərslikdə 24 dərs verilmişdir.

Tiflis Aleksandrinski Müəllimlər İnstitutunda qiyabi təhsil almışdır (1896-1899). Dördüncü kursda əyani şöbədə oxumuşdur.

1900-cu il – Aleksandrinski Müəllimlər İnstitutunu bitirmişdir. Zaqafqaziya (Qori) müəllimlər seminariyasına ana dili və şəriət müəllimi təyin olunmuşdur. 1916-cı ilədək seminariyanın Azərbaycan şöbəsində pedaqoji təcrübəyə rəhbərlik etmişdir.

1901-ci il – «Bəsirətül-ətfal» («Uşaqların fərasətliliyi») adlı qiraət kitabı Bakıda 2 min tirajla çap olunmuşdur. «Müəllimlər üçün üsuli-cədid üzrə ən əvvəl dərc şüru etmənin qəvaidi» adlı metodik məktubu kitabça halında çapdan çıxmışdır.

1903-cü il – «Bəsirətül-ətfal» dərsliyi Qafqaz maarif dairəsi tərəfindən Qafqazdakı müsəlman məktəblərində istifadə edilmək üçün razılıq verilmişdir. «Tiflis səfərləri» komediyasını yazmışdır.

1904-cü il – Qori seminariyası pedaqoji şurasının qərarı ilə ona hami-tərbiyəçi adı verilmişdir. «Qan ocağı» komediyasını «Şərqi-Rus» qəzeti mətbəəsində çap etdirmişdir. «Şahnamə»dən «Rüstəm və Söhrab» dastanını tərcümə etmiş və çapına nail olmuşdur.

1906-cı il – Seminariyada assistentlik dərəcəsi almışdır.

1909-cu il – «Saqqalın kəraməti» komediyasını yazmışdır.

1910-cu il – Gizli səsvermə yolu ilə seminariya pedaqoji Şurasının katibi vəzifəsinə seçilmişdir. 1916-cı ilədək bu vəzifəni daşımışdır.

1911-ci il – Ziyalıların təşəbbüsü ilə gizli şəkildə yubiley gecəsi keçirilmişdir. Ona bir qızıl qələm, üzərinədə öz şəkli olan min ədəd dəftər hədiyyə verilmişdir.

1913-cü il – «Qonşu qonşu olsa, kor qız ərə gedər» komediyası Tiflisdə «Kultura» mətbəəsində çap olunmuşdur.

1914-cü il – «Arvad məsələsi» adlı şerlər məcmuəsi Tiflisdə çapdan çıxmışdır. Birinci dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq Qoridən Yekaterinador şəhərinə (Krasnodara) köçürülən seminariyanın kollektivi ilə birlikdə həmin şəhərə getmişdir.

1915-ci il – «Bir saç telin qiyməti» pyesini yazmışdır.

1916-cı il – İrəvan quberniyası Azərbaycan məktəblərinin inspektoru vəzifəsinə təyin olunmuşdur. İrəvanda 3 aylıq müəllimlər kursu təşkil etmişdir.

1917-ci il – Naxçıvanda müəllimlər kursu açmış, özü həmin kursda dərs demişdir.

1918-ci il – Bakıya getmiş, burada seminariya təşkil etmiş, Bakı seminariyasının direktoru vəzifəsinə təyin olunmuşdur.

1919-cu il – Seminariyanın direktorluğundan imtina etmiş, Nuxa şəhərinə (Şəki) köçmüşdür.

1920-ci il – Şəkidə açılmış darülmüəllimatın rektoru təyin olunmuşdur (20 noyabr). Burada pedaqogika və psixologiyadan dərs demişdir.

1921-1922-ci illər – Seminariyada əmək təlimi emalatxanası və dərnəklər yaratmış, Prudonun «Psixologiya» kitabını Azərbaycan dilinə tərcümə etmişdir.

1923-cü il – «Qızıl gül» mənzum pyesini yazmışdır.

1924-cü il – «Ədəbiyyatımızı nasıl yetişdirməli» məqaləsini yazıb, «Bilgi» jurnalında dərc etdirmişdir (№ 3-4). Birinci Azərbaycan diyarşünaslıq qurultayının nümayəndəsi olmuşdur. Azərbaycan etnoqrafiyası cəmiyyətinin Şəki şöbəsinə elmi katib seçilmişdir.

1925-ci il – Nuxa Xan sarayında elmi-pedaqoji və ədəbi fəaliyyətinin 45 illik yubileyi keçirilmişdir (4 sentyabr). Azərbaycan Xalq Maarif Komissarlığı tərəfindən yubileyə həsr edilmiş elmi sessiya təşkil olunmuşdur. «Molla Nəsrəddin» jurnalı yubilyarı təbrik etmişdir (№ 37).

1926-cı il – Azərbaycan Arxeoloji Cəmiyyətinin Şəki şöbəsinin sədri seçilmişdir. Birinci türkoloji qurultayda iştirak etmişdir. «Qızıl qələmlər» cəmiyyətinin üzvlüyünə daxil olmuşdur.

1928-ci il – M.F.Axundovun vəfatının 50-ci ildönümü tədbirlərinin əsas təşkilatçılarından olmuşdur. «M.F.Axundov haqqında bildiklərim və eşitdiklərim» məqaləsini, «M.F.Axundova xitabən» şerini yazmışdır. Azərbaycan Proletar Cəmiyyətinin birinci qurultayına nümayəndə seçilmişdir. Tədqiq və tətəbbö cəmiyyətinin bölmə sədri vəzifəsini icra

etmişdir. «Nuxa qəzasında olan asari-ətiqələr haqqında» adlı kitabçası çapdan çıxmışdır.

1929-cu il – «Nuxa qəzasındakı Dəhnələr və Suçma kəndlərinin etnoqrafiyası, iqtisadiyyatı və Turud düzündəki faydalı qazıntılar» əsərini yazmışdır. Pedaqoji fəaliyyətini davam etdirmişdir.

1930-cu il – «Şəki haqqında bir neçə qeydlər», «Şəki mahalında Baş Layıqsı kəndi və eşşək qalası», adlı etnoqrafik əsərini yazmışdır.

1932-ci il – «Şəki şəhərinə və mahalına məxsus ipəkçilik haqqında tarixi materiallar» əsərini tamamlamışdır.

1934-cü il – «Şəki şəhərində mövcud olan sənətkarlıq və peşəkarlıq barəsində və ustagər quruluşu haqqında tarixi məlumat» əsərini bitirmişdir.

1935-ci il – Təqaüdə çıxmışdır. Uşaq ədəbiyyatına dair materiallar toplayıb çapa hazırlamışdır.

1942-ci il – Şəki şəhərində vəfat etmiş və orada dəfn olunmuşdur.

## HƏSƏNBƏY ZƏRDABİ
## (1842-1907)

> hər kəsi çağırıram – gəlməyir, göstərirəm-görməyir, deyirəm-qanmayır... Belədə qəzet çıxarmaqdan savayı bir qeyri əlac yoxdur.
>
> ***H.Zərdabi***

1842-ci il – Həsənbəy Səlimbəy oğlu Məlikov (Zərdabi) Göyçay qəzasının Zərdab kəndində anadan olmuşdur (iyul).

İlk təhsilini Zərdabdakı mollaxanada almışdır.

1852-1858-ci illər – Şamaxı şəhərindəki dördsinifli şəhər məktəbində oxumuşdur.

1858-1861-ci illər – Tiflis qəza gimnaziyası yanında Blaqorodnı pansionun beşinci sinfinə daxil olmuş (1958), buranı gümüş medalla bitirmişdir.

1861-1865-ci illər – Moskva Universitetinin fizika-riyaziyyat fakültəsinin təbiyyət şöbəsində ali təhsil almış, universiteti bitirərkən elmi iş müdafiə edərək təbiyyət elmləri namizədi alimlik dərəcəsi almışdır.

1865-1866-cı illər – Tiflis torpaq palatasında işləmişdir.

1867-ci il – Bakı qəza idarəsində kargüzar vəzifəsində çalışmışdır.

1868-ci il – Qubada məhkəmə katibi vəzifəsində işləmişdir (4 oktyabradək).

1869-cu il – Şamaxıda şəxsi vəkilliklə məşğul olmuşdur.

1870-1874-cü illər – Bakıda realnı gimnaziyada təbiyyət tarixi fənni üzrə müəllimlik etmişdir.

1873-cü il – H.Zərdabinin rəhbərliyi altında N.Vəzirov və Ə.Adıgözəlovun iştirakı ilə Bakı realnı gimnaziyasında M.F.Axundovun «Hacı Qara» komediyası tamaşaya qoyulmuşdur (mart). Azərbaycan milli teatrı yaradılmışdır.

1875-ci il – İlk Azərbaycan qəzeti olan «Əkinçi» H.B.Zərdabinin redaktorluğu ilə nəşrə başlamışdır (22 iyul). Qəzetin aşağıdakı şöbələri olmuşdur:

1. Daxiliyyə
2. Əkin və ziraət xəbərləri
3. Mətbuat
4. Elmi xəbərlər
5. Tazə xəbərlər

1876-cı il – «Əkinçi» qəzeti M.F.Axundov, S.Ə.Şirvani, N.Vəzirov, Ə.Adıgözəlov, M.Sultanov və başqaları kimi ziyalıları öz ətrafına toplamışdır.

1877-ci il – «Əkinçi» qəzetinin nəşri dayanmışdır (29 sentyabr). Qəzetin 1875-ci ildə 12, 1876-cı ildə 24, 1877-ci ildə 20 nömrəsi çıxmışdır.

1878-ci il – Bakı realnı məktəbində müəllim işləmişdir. Polis idarəsi onun Bakını tərk edərək, Kuban vilayətinin və ya qərbi Gürcüstanın məktəblərindən birinə dəyişilməsini tələb

etmişdir (avqust-sentyabr). Bakı realnı məktəbindəki vəzifəsindən azad olunmuşdur (noyabr).

1879-cu il – Bütün il ərzində heç bir yerdə işləməmiş, Bakıda yaşamış, ilin sonunda ailəsi ilə birlikdə Zərdaba köçmüşdür.

1879-1896-cı illər – Zərdabda yaşamışdır. Zaqafqaziya dövri mətbuatında məqalələrlə çıxış etmiş, kənddə maarifçiliklə məşğul olmuşdur. İki həftəlik müddətə ev dustağı edilmişdir (1896). Qız məktəbi açmağa təşəbbüs göstərmiş, baş tutmamışdır.

1896-cı il – Bakıya köçmüş, «Kaspi» qəzeti redaksiyasında əməkdaşlığa başlamışdır. Ömrünün sonunadək bu qəzetdə işləmişdir.

1897-ci il – Bakı şəhər Dumasına üzv seçilmişdir. Təxminən 10 il bu sahədə fəaliyyət göstərmişdir.

1898-ci il – Məktəb təşkili komissiyasının sədri seçilmişdir. Yeni məktəblər onun iştirakı və təşəbbüsü ilə açılmışdır. «Kaspi» qəzetində jurnalistlik fəaliyyətini davam etdirmişdir.

1906-cı il – N.Nərimanovla birlikdə Bakıda Azərbaycan müəllimlərinin qurultayının çağırılmasına təşəbbüs göstərmiş, qurultay işə başlamışdır (15 avqust). O, qurultaya sədrlik etmişdir.

1907-ci il – Dilindən iflic olmuş, jurnalistlik fəaliyyətini davam etdirmiş, Bakıda vəfat etmişdir (28 noyabr).

Haşımbəy Vəzirovun imzası ilə dərc edilmiş bir nekroloqda deyilirdi: «Həsənbəyin mənzuri pul deyil idi... İstəsəydi Bakının əvvəlinci milyonerlərindən olmağı asanlıqla mümkün idi. Öz niyyəti, öz müqəddəs təriqəsi və məsləki yolunda H.Məlikov nə qədər etirazata, nə qədər əziyyət və azara mübtəla olduğunu yazsaq, qəzetimizdə yer tapılmaz. Bizi Həsənbəyin ölümü bir o qədər düşündürmür. 70 sinnə çatan, bir böylə zəhmət və bəlalara səbr edən kişi axır gərək öləydi. Bizi düşündürən, bizi ağladan millətimizin içində bir növ ürəyi, dili, əfalı, məsləgi bir, sözün açıq-açığına deyən millət mücahidinin

qayib olmasıdır. Çoxdurmu belə iş görənlərimiz? ... Əfsus, həzar əvsus, çox azdır».

## İBRAHİMBƏY MUSABƏYOV (1880-1942)

1880-cı il – Şəki qəzasının Qutqaşen kəndində anadan olmuşdur.

80-cı illərin ikinci yarısı – Birsinifli kənd məktəbini bitirmişdir. Gəncə dairə məhkəməsində katib vəzifəsində işləmişdir.

90-cı illərin əvvəlləri – Gəncə şəhər məktəbinə daxil olmuşdur. Beş il burada oxumuşdur.

1897-1902-ci illər – Zaqafqaziya (Qori) müəllimlər seminariiyasında təhsil alıb, müəllimlik haqqında attestat almışdır.

1902-1910-cu illər – Şəki şəhərində, vəndam kəndində və Göyçayın Padar kənd məktəblərində müəllimlik etmişdir.

1911-ci il – Bakıya köçmüş, pedaqoji fəaliyyətini davam etdirmişdir. Bədii yaradıcılıqla məşğul olmuşdur.

1913-cü il – «Xoşbəxtlər» povestini yazmışdır. P.N.Polevoykun «İki dost, iki yol» hekayəsini təbdil etmişdir.

1914-cü il – «Cəhalət fədiləri», «Gözəllərin vəfası» povestlərini yazmışdır.

1915-ci il – Bakıda «Üç hekayə» adlı kitabı çap olunmuşdur. Kitabda «Prins Eduard Xams ilə zarafat», «Məhkəmənin səhvi», «Nadinc uşağın yuxusu» kimi təbdil və tərcümələri toplanmışdır.

1916-cı il «Neft və milyonlar səltənəti» povesti yazılmışdır. Əsərin motivləri əsasında həmin il kino çəkilmişdir. Bu, Azərbaycanda kino sənətinin ilk nümunəsi idi. Çəkilişdə rus və xarici kino işçiləri iştirak etmişdilər.

1917-ci il – «Neft və milyonlar səltənəti» əsəri Bakıda kitab halında çapdan çıxmışdır.

1918-ci il – iranın Rəşt şəhərində rus dili müəllimi olmuşdur. Rəştdəki çar ordusu hissələrində siyasi təbliğat apardığı üçün həbs edilərək Qəzvin şəhərində çaxlanılmışdır.

1919-cu il – Həbsxanada baş verən yanğından sonra Rusiyaya getmişdir (may).

1920-ci il – Krasnodar şəhərində yaşamışdır. Türkiyənin Trapezund şəhərində məlumat bürosunda tərcüməçi işləmişdir.

1922-1936-cı illər – Krımda yaşamışdır. Sevastopol – Simferapol dəmir yol stansiyasının rəisi, həmkarlar ittifaqı tatar şöbəsinin sədri vəzifələrində çalışmış, kino sənəti sahəsində də fəaliyyət göstərmişdir.

1942-ci il – Karaqanda şəhərində plevrit xəstəliyindən vəfat etmişdir (14 sentyabr).

## HACI KƏRİM SANILI
## (1878-1937)



1878-ci il – Qazax mahalının Çaylı kəndində anadan olmuşdur.

1885-1887-ci illər kənd mollaxanasında oxumuşdur.

1888-1893-cü illər Dağkəsəmən ibtidai məktəbində təhsil almışdır.

1893-1898-ci illər – Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasında təhsil alaraq müəllimlik ixtisasına yiyələnmişdir.

1898-1902-ci illər – Şəki qəzasının Xaçmaz kəndində ibtidai məktəbin müdiri və müəllimi kimi fəaliyyət göstərmişdir.

1902-1905-ci illər – Gəncə şəhərinə gəlmiş, məscid məktəbinə müdir təyin olunmuşdur. O, bu məktəbin ikisinifli rus-tatar məktəbinə çevrilməsinə və burada qızlar üçün şöbənin təşkilinə nail ola bilmişdir. Din xadimləri onun ölümünə fitva vermişlər.

1905-ci ildə – Poylu kənd məktəbinə müəllim təyin olunmuş, az sonra Dağkəsəmən məktəbinə dəyişilmişdir.

1906-cı il – Mütərəqqi maarifçi görüşlərinə görə həbs edilmişdir.

1907-1909-cu illər – Pedaqoji işlə və siyasi fəaliyyətlə məşğul olmuşdur.

1910-cu il – Qafqaz Təhsil Dairəsinin icazəsi ilə Sankt-Peterburq Müəllimlər İnstitutunun nəzdindəki əl əməyi kursunda oxumuşdur.

1911-1915-ci illər – Qazax mahalının müxtəlif bölgələrində pedaqoji fəaliyyətini davam etdirmişdir, Qazax gimnaziyasında qrafika müəllimi olmuşdur. Bədii yaradıcılığa başlamışdır.

1917-ci il – Tiflis Hümmətçiləri təşkilatına üzvlüyə qəbul edilmişdir.

1918-1919-cu illər Tiflis Hümmətçiləri nümayəndə heyətinin tərkibində Bakıda Azərbaycan Xalq Cümhuriyyətinin parlamentində iştirak etmiş, sosialistlər fraksiyasına qoşulmuşdur.

Hacı Kərim Sanlı Qazax mahalının başçısı vəzifəsini yerinə yetirmişdir.

İlk şerləri mətbuatda dərc olunmuşdur.

1920-ci il – Azərbaycanda Sovet hökuməti qurulduqdan sonra Qazax qəzasının xalq hakimi vəzifəsində işləmiş, bədii yaradıcılığını davam etdirmişdir.

1922-ci il – Bakıya köçmüş, Yeni Əlifba Komitəsinin açdığı kurslarda dərs demişdir.

1924-cü il – onun «Böyüklər üçün əlifba kitabı» Bakıda çapdan çıxmışdır. «Aran köçü köçdü» poemasını tamamlamışdır.

1925-1926-cı illər – Bədii yaradıcılığını davam etdirmişdir, «Maarif və mədəniyyət», «Şərq qadını» jurnallarında, «Yeni yol» qəzetində şerləri dərc olunmuşdur.

«Qara Nəbi» pyesi tamamlanmışdır (1925).

1927-ci il – «Türk əlifbası» və «Üçüncü il» dərslikləri Bakıda nəşr olunmuş, «Namus davası», «Zülmün sonu», «Novruz və Gülara» poemalarını yazmışdır.

«Yeni kənd» jurnalının məsul katibi olmuşdur.

«Kəndimiz» şerlər məcmuəsi, «Aran köçü köçdü» poeması kitab halında çapdan buraxılmışdır.

1928-1934-cü illər – Dövri mətbuatda şerləri, məqalələri və poemaları dərc olunmuşdur. Bakı Xalq Maarif Şöbəsinin inspektoru, Azərbaycan Kooperativ məktəbləri birliyinin dərs hissə müdiri vəzifələrində çalışmış, Politexnik İnstitutunda dərs deınişdir.

1935-ci il – «Turut qaçaqları» poeması yazılmış və Bakıda nəşr olunmuşdur.

1937-ci il – Həbs olunmuş və ölüm cəzasına məhkum edilmişdir.

# İKİNCİ BÖLMƏ

## TƏNQİDİ REALİZM ƏDƏBİ CƏBHƏSİ

### CƏLİL MƏMMƏDQULUZADƏ (1869-1932)



1869-cu il – Cəlil Məmmədquluzadə Naxçıvan şəhərində Məmmədqulu Məşədi Hüseynqulu oğlunun ailəsində dünyaya gəlmişdir (22 (10) fevral).

1873-1878-ci illər – Molla məktəbində oxumuşdur.

1879-cu il – Naxçıvanda üçsinifli şəhər məktəbinə daxil olmuşdur.

1880-ci il – atası Məmmədqulu Məşədi Hüseynqulu oğlu övladının Zaqafqaziya (Qori) müəllimlər seminariyasına daxil olması haqqında ərizə ilə müraciət etmişdir (20 iyun). Lakin həmin ərizədə Cəlilin 11 yaşında olduğu qeyd edildiyi üçün o, seminariyaya qəbul edilməmişdir.

1881-ci il – «Xatiratım» memuarında Naxçıvan şəhər məktəbinin ikinci sinfində oxuyarkən çar II Aleksandrın Peterburqda güllələndiyini eşitdiyini yada salmışdır. Atası ikinci dəfə Cəlilin seminariyaya qəbul olunmasına dair ərizə vermişdir (10 iyul). Ərizədə 12 yaşında olduğu bildirildiyinə görə qəbul imtahanlarına buraxılmamışdır.

1882-ci il – Məmmədqulu Məşədi Hüseynqulu oğlu övladının seminariyaya daxil olması haqqında üçüncü ərizə ilə müraciət etmiş (12 iyun), imtahanlara buraxılması barədə müsbət cavab almışdır (2 iyul), qəbul imtahanlarını müvəffəqiyyətlə verərək seminariyada dərslərə başlamışdır (8 sentyabr).

Üçüncü ərizədə C.Məmmədquluzadənin yaşı seminariyanın tələbələrinə uyğunlaşdırılaraq 16 yaş kimi qeyd olunmuşdur.

1883-1884-cü illər – Seminariyanın aşağı və yuxarı hazırlıq siniflərində əsasən «əla» və «yaxşı» qiymətlərlə təhsilini davam etdirmişdir.

1885-ci il - Seminariyanın birinci əsas sinfində oxumuş və qiymətləri bir qədər aşağı düşmüşdür. Seminariya yoldaşları olan Ələkbər Məmmədxanov və Əbülqasım Sultanovla birlikdə şəkil çəkdirib A.O.Çernyayevskiyə bağışlamışdır.

1886-cı il – İkinci əsas sinifdə oxuyarkən seminariyanın nəzdindəki ibtidai məktəbdə Səfərəlibəy Vəlibəyovun sinfində pedaqoji təcrübə keçmişdir. Təhsilə laqeyd yanaşdığı üçün töhmətləndirilmişdir (22 dekabr).

1887-ci il – Üçüncü əsas sinifdə oxumuş, şəhərdə verilən konsertdən bir saat gec qayıtdığına görə töhmət almışdır (16 yanvar). Buraxılış imtahanlarını müvəffəqiyyətlə verərək seminariyanı bitirmişdir (7 iyul). İrəvan quberniyasındakı Uluxanlı məktəbində pedaqoji fəaliyyətə başlamış, az sonra Baş Noraşen məktəbinə müvəqqəti müəllimliyə keçirilmiş (13 oktyabr), ilin qalan aylarını burada çalışmışdır.

1888-ci il – İrəvan – Yelizavetpol quberniyası xalq məktəbləri direktoru Orlova Baş Noraşen məktəbində daimi saxlanması haqqıda teleqram vurmuş (16 yanvar) müsbət cavab almışdır. Yeni dərs ili üçün 8 nəfər şagirdi məktəbin birinci sinfinə cəlb etməyə razılıq əldə etmiş (iyul-avqust), Baş məktəblər idarəsinə Şahtaxtı məktəbinə dəyişilmək barədə teleqram göndərmişdir.

1889-cu il – Baş Noraşen məktəbində müəllim və şagirdlərin iştirakı ilə tamaşa göstərilmişdir (2 dekabr). Burada «Çay dəsgahı» alleqorik dramını tamamlamışdır (20 dekabr).

1890-cı il – Nehrəm məktəbinin nəzarətçisi vəzifəsinə dəyişilmiş (15 yanvar), az sonra yazacağı «Danabaş kəndinin əhvalatları» povestindəki qəzetçi Xəlil və lağlağı Sadıq obrazlarının prototipi, İrəvan Müəllimlər Seminariyasının məzunu Sadıq Xəlilovla birlikdə işləmişdir.

1891-1892-ci illər – Nehrəm kənd məktəbində çalışmış, Naxçıvan teatrında tamaşalarda rejissorluq və aktyorluq etmiş, «Kişmiş oyunu» pyesini tamamlamışdır (1892).

1893-cü il – 8 nəfər qızı, o cümlədən bacısı Səkinə Məmmədquluzadəni Nehrəm məktəbində təhsilə cəlb etmişdir. İrəvan-Yelizavetpol quberniyası xalq məktəbləri direktorluğu bu münasibətlə cavan müəllimə yazılı təşəkkürünü bildirmiş (2 fevral), «Новое обозрение» qəzeti xəbər dərc etmişdir (9 fevral). Con Stüart Mill, Darvin və Sokratın əsərlərini mütaliə etmişdir. Tiflisdəki «Ekker» firmasından Nehrəmə dəmir kotan gətirməyə nail olmuşdur. İrəvan quberniyası xalq müəllimlərinin sahə qurultayında iştirak və çıxış etmişdir (22 noyabr).

1894-cü il – Nehrəmdə «Danabaş kəndinin əhvalatları» povestini bitirmişdir. Məhəmməd ağa Şahtaxtlı ilə görüşmüş, əsərdən bir parçanı ona oxumuşdur. M.T.Sidqi ilə tanış olmuşdur.

Nehrəm məktəbində fəxri müdir vəzifəsində işləmiş, «işləmək üçün başqa yer tapmaq məqsədilə üç aylıq məzuniyyət götürmək üçün raport yazmış (11 may), iyun ayının 10-dan avqustun 25-dək məzuniyyətə icazə almış, məzuniyyət dövründə Peterburqa gedərək «Новое время» qəzetinin redaktoru Suvorinin yanında olmuş, əlifba islahatı barədə söhbət aparmış, yolüstü Moskvaya getmişdir.

1895-ci il – Ordubadda yaşayan Məmməd Səid Ordubadi ilə Nehrəmdə görüşmüş, M.F.Axundovun «Müsyö-Jordan və Dərviş Məstəli şah» əsərinin ilk tamaşasında Müsyö Jordan rolunu oynamışdır. Nehrəmdə Nağı adlı kəndlinin qızı Həlimə ilə evlənmişdir.

1896-cı il – Nehrəmdə məktəb-diyarşünaslıq muzeyi təşkil etmişdir (noyabr). İnspektor N.Novospasski adlı məktəbdə yoxlama aparmışdır (10-11 dekabr).

1897-ci il – Öz ərizəsi əsasında Nehrəm məktəbinin müdiri vəzifəsindən azad edilmişdir (10 iyun). Qızı Münəvvər Məmmədquluyeva bu kənddə dünyaya gəlmişdir. Arvadı Həlimə vəfat etmişdir. İrəvan qəza polis idarəsinə tərcüməçi təyin edilmişdir (12 avqust).

1898-ci il – İrəvan qəza polis idarəsində dəftərxana xidmətçisi, tərcüməçi işləmişdir.

1899-cu il – Naxçıvan şəhər pristavının köməkçisi vəzifəsinə keçirilmişdir (1 may).

1900-cu il – Naxçıvanda inzibati qulluğunu davam etdirmiş, burada tərcüməçilik etmişdir. Şəfi ağa Kərim Sultanın qızı, Məmmədqulubəy Kəngərlinin bacısı Nazlı xanımla (əsl adı Zeynəbağa xanımdır – İ.H.) evlənmişdir (13 iyun).

1901-ci il – Yanvar ayında məzuniyyətdə olmuş, işə qayıdan kimi öz ərizəsi əsasında istefaya çıxmışdır. Naxçıvan şəhər polis-meystrinin aşağı rütbəli köməkçisi vəzifəsini tutmuşdur.

1902-ci il – Dava vəkili olmaq məqsədilə yenidən İrəvana köçmüşdür. «Qafqaz» qəzetində «İrəvandan» sərlövhəli ilk məqaləsi (28 yanvar), «Kaspi» qəzetində Dələmə bağlarına həsr olunmuş publisistik yazısı (7 mart) və «İrəvan» sərlövhəli məqaləsi (28 mart) dərc olunmuşdur.

1903-cü il – Məşhur «Poçt qutusu» hekayəsini bitirmiş (12 noyabr) Nazlı xanımı müalicə etdirmək məqsədilə qayını Məmmədqulubəy Kəngərli ilə birlikdə Tiflisə getmiş, burada «Şərqi-Rus» qəzetinin redaktoru Məhəmməd ağa Şahtaxtlı ilə ikinci dəfə görüşmüş və həmin qəzetin redaksiyasında işə qəbul edilmişdir.

1904-cü il – «Şərqi-Rus» qəzetində «Poçt qutusu» (№ 5-6), «Kişmiş oyunu» (№ 64) hekayələri, L.N.Tolstoydan etdiyi «Zəhmət, ölüm, naxoşluq» əsərinin (№ 7), erməni yazıçısı Xanzadyanın «Arvad» hekayəsinin (№ 62) tərcümələri, M.T.Sidqinin vəfatı münasibətilə yazdığı nekroloq dərc edilmişdir. Həyat yoldaşı Zeynəbağa xanımın vəfatına dair (14 fevral) «Şərqi-Rus» qəzeti nekroloq (№ 20) vermişdir. Atası Məmmədqulu Məşədi Hüseynqulu oğlu, anası Sara Məşədi Baba qızı vəfat etmişdir (4 dekabr).

C.Məmmədquluzadə «Şərqi-Rus» qəzetinin müvəqqəti redaktoru təyin edilmişdir (26 noyabr). Tiflisdə öz təşəbbüsü ilə müsəlman pansionu və məktəb açmışdır.

1905-ci il – Tiflisdə Müsəlman Xeyriyyə Cəmiyyətinin katibi seçilmiş (10 yanvar). Ö.F.Nemanzadə və tacir Məşədi Ələsgər Bağırovla birlikdə «Şərqi-Rus»un mətbəəsini almış,

«Usta Zeynal» hekayəsini yazmış, «Qeyrət» mətbəəsində «Poçt qutusu»nu kitabça halında buraxmışdır (10 mart). «Novruz» adlı qəzet çıxarmaq üçün icazə istəmişdir. Satirik jurnal çıxarmaq barədə düşünmüş, «Тифлисски листок», «Каспи», «Возрождение», «Кавказски рабочи листок» qəzetlərində çıxış etmiş, Həmidə xanım Cavanşirlə tanış olmuşdur (sentyabr).

1906-cı il – «Molla Nəsrəddin» adlı satirik-yumoristik jurnalı çıxarmaq üçün ərizə ilə müraciət etmiş (21 fevral), nəşrinə icazə alınış (4 mart) və jurnal nəşrə başlamış (20 aprel), həmin il 39 nömrəsi çapdan çıxmışdır. «Usta Zeynal» ayrıca kitabça halında buraxılmışdır.

1907-ci il – Tiflisdə Xalq Universiteti Cəmiyyətinin Azərbaycan bölməsində məruzə oxumuş (20 mart), Zubalov adına klubda keçirilən birinci xalq konsertində Azərbaycan və rus dillərində Şərq əfsanəsini oxumuş (aprel), Həmidə xanım Cavanşirlə evlənmişdir (15 iyun). «Ölülər» əsərini yazmağa başlamışdır.

1908-ci il – Fəqir Ordubadinin «Molla Nəsrəddin» jurnalında dərc edilmiş «Fatı» şerinə görə məhkəmə məsuliyyətinə cəlb edilmişdir. İlk oğlu Midhət Məmmədquluzadə dünyaya gəlmişdir (19 mart).

1909-cu il – «Molla Nəsrəddin» jurnalının 52 nömrəsi çapdan buraxılmışdır. Qardaşı Ələkbər Məmmədquluzadə Səttarxan hərəkatında fəal iştirakına görə həbs olunmuşdur. «Ölülər» komediyası tamamlanmış (12 iyun), H.Minasazov «Закавказе» qəzetində əsərə yüksək qiymət vermişdir (№ 76).

1910-cu il – Məslək qardaşı M.T.Sidqinin oğlu, müəllim Məmmədəli Sidqi Səfərov Naxçıvandan Tiflisə çağırılmış (9 iyun), «Molla Nəsrəddin»in müvəqqəti redaktoru təsdiq edilmişdir (12 oktyabr). Tiflis Xalq Universitetinin müsəlman şöbəsinin sədri seçilmiş C.Məmmədquluzadənin təşəbbüsü ilə şəhərin Şeytanbazar məhəlləsində aktyorluq üçün ilk «Auditoriya» açılmışdır.

1911-ci il – «Molla Nəsrəddin» jurnalı 31-ci nömrədən etibarən Kəhrizlidən Tiflisə qayıtmış C.Məmmədquluzadənin

imzası ilə çıxmışdır. İkinci oğlu Ənvər anadan olmuşdur (11 may). Məslək qardaşı M.Ə.Sabir vəfat etmişdir (12 iyul).

1912-ci il – «Molla Nəsrəddin»in 9 nömrəsi buraxılmışdır. «Poçt qutusu» yenidən ayrıca kitabça halında çapdan çıxmışdır. Cəlil Məmmədquluzadə Kəhrizliyə gedib, bir müddət orada qalmışdır.1913-cü il – Əliqulu Qəmküsarın adı «Molla Nəsrəddin» jurnalının redaktorlarından biri kimi qeyd olunmuşdur (20 fevral). Bacısı Səkinə xanım Məmmədquluzadə vəfat etmişdir. «Poçt qutusu» hekayəsi «Baku» qəzetində Hüseyn Minasazovun tərcüməsilə (№ 139) dərc olunmuşdur.

1914-cü il – C.Məmmədquluzadə və Ə.Qəmküsar «Molla Nəsrəddin»də (№ 21) gedən «Gimnazist» şerinə görə məhkəmə məsuliyyətinə cəlb olunmuşdur. «Quzu» hekayəsi yazılmışdır (iyun). «Molla Nəsrəddin»in nəşri müvəqqəti olaraq dayandırılmışdır (12 oktyabr).

1915-ci il – «Molla Nəsrəddin»in redaktorları çar məhkəməsindən xilas olmuşdur. «Molla Fəzləli» hekayəsi yazılmışdır. «Ölülər»in tamaşaya qoyulması söhbətləri başlanmışdır.

1916-cı il – «Molla Nəsrəddin»in yenidən nəşrə başlanmasına icazə alınmışdır. «Ölülər» əsəri ilk dəfə Bakıda tamaşaya qoyulmuşdur (29 aprel). Kefli İsgəndər rolunda Mirzağa Əliyev, Şeyx Nəsrullah rolunda Əliqulu Qəmküsar çıxış etmişlər. C.Məmmədquluzadə Ə.Qəmküsarla birlikdə «Ölülər»i tamaşaya qoymaq məqsədilə Orta Asiyaya yola düşmüş, əsər Daşkənd, Mahaçqala, Tiflis səhnələrində göstərilmişdir. «Nigarançılıq» hekayəsi yazılmış və ayrıca kitabça halında buraxılmışdır.

1917-ci il «Molla Nəsrəddin» jurnalının 26 nömrəsi çap olunmuşdur. «Ölülər» pyesi Naxçıvanda «El güzgüsü» adlı dram cəmiyyəti tərəfindən tamaşaya qoyulmuşdur (may).

1918-ci il – C.Məmmədquluzadə müvəqqəti olaraq Tiflisdə və Kəhrizlidə yaşamışdır. «Konsulun arvadı» hekayəsini yazmışdır.

1919-cu il – «Molla Nəsrəddin» jurnalının ikinci redaktoru Əliqulu Qəmküsar qəflətən öldürülmüşdür (19 mart).

Kəhrizlidə kənd təsərrüfatı işləri ilə məşğul olmuşdur. «Ölülər» Bakıda, İrəvanda və Tiflisdə tamaşaya qoyulmuşdur.

1920-ci il – Şuşada «Anamın kitabı» və «Kamança» pyesləri yazılmışdır. «Ölülər» Türkistan səhnəsində göstərilmişdir. Mirzə Cəlil Ələkbər Məmmədquluzadə ilə Şeyx Məhəmməd Xiyabaninin görüşünə getmişdir.

«Molla Nəsrəddin»in nəşrinə hazırlıq görülmüşdür.

1921-ci il – Təbrizdə «Molla Nəsrəddin» jurnalı fəaliyyətə başlamış (19 fevral), həmin il jurnalın 8 nömrəsi çap edilmişdir. «Ölülər» Bakıda (25 mart) və Təbrizdə (1 may) oynanılmışdır. C.Məmmədquluzadəyə Bakıda Xalq Maarif Komissardlığında məsul vəzifəyə dəvət edilməsi xəbəri verilmişdir (30 aprel). O, ailə üzvləri ilə Təbrizdən Bakıya yola düşmüşdür (24 may).

Xalq Maarif Komissarlığında məsul vəzifəyə təyin olunmuşdur (27 iyun). «Danabaş kəndinin məktəbi» və «Lal» pyeslərini Bakıda yazıb tamamlamışdır (30 avqust).

1922-ci il – «Molla Nəsrəddin» jurnalı «Şura» adlı baş məqalə ilə Bakıda nəşrə başlamışdır. Ələkbər Məmmədquluzadə Kəhrizli kəndində vərəm xəstəliyindən vəfat etmişdir (22 may). Mirzə Cəlil «Yeni yol» qəzetinə də müvəqqəti olaraq redaktorluq etmişdir. Bakıda «Ölülər» əsəri tamaşaya qoyulmuşdur (4 noyabr). «Lənət» və «Oyunbazlar» səhnəcikləri yazılmışdır.

1923-cü il – D.Bünyadzadə adına teatrda «Anamın kitabı» (15 yanvar), «Ölülər» (21 fevral) əsərləri tamaşaya qoyulmuşdur. «Maarif və mədəniyyət» jurnalında «Zırrama» (№ 1), «Quzu» (№ 2) hekayələri dərc edilmişdir. Yubiley xarakterli «Molla Nəsrəddin» gecəsi keçirilmişdir (11 may). «Ölülər»in ilk «ədəbi məhkəməsi» olmuşdur (fevral).

1924-cü il – Yeni Əlifba Komitəsinin üzvü seçilmiş, Krım, Orenburq, Daşkənd, Ufa və Kazanda yeni əlifbanı təbliğ edən nümayəndə heyətinin tərkibində olmuşdur. Ərizəsi əsasında «Yeni yol» qəzetinin redaktorluğundan çıxmışdır (1 may). «Ölülər» Bakı və Naxçıvan səhnələrində, «Anamın kitabı» isə Bakıda və Tiflisdə göstərilmişdir.

1925-ci il – «Molla Nəsrəddin» idarəsi nəşriyyatında «Ölülər» əsəri (Həbib Cəbiyevin müqəddiməsi ilə) və «Sirkə», «Molla Fəzləli», «Şer bülbülləri» adlı hekayələri ayrıca kitab kimi çapdan çıxmışdır. «Rus qızı» hekayəsi «Yeni yol» qəzetində dərc olunmuşdur (dekabr), «Ölülər» komediyası Bakıda və Şamaxıda oynanılmışdır.

1926-cı il – «Konsulun arvadı» hekayəsi ayrıca kitabça halında 3000 tirajla çapdan çıxmış, «Bəlkə də qaytardılar», «Taxıl həkimi», «Şərq fakültəsi», «Saqqallı uşaq», «Yan tütəyi», «Buz» hekayələri, «Yeni yol» qəzetində dərc olunmuşdur. Birinci türkoloji qurultayda iştirak etmişdir.

1927-ci il – Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin üzvlüyünə namizəd seçilmişdir. Ədib Ə.Haqverdiyevin (22 yanvar) ədəbi fəaliyyətinin 35, Ə.Əzimzadənin (7 may) yaradıcılığının 20 illik yubileyində çıxış etmişdir «Ölülər» Bakı, Tiflis, Aşqabad, Kazan teatrlarında göstərilmiş, «Bir balaca yanlışlıq», «İki ər», «Oğru inək» hekayələri dərc edilmişdir. Ə.Nəzminin «Azərnəşr» tərəfindən çapdan buraxılmış «Sijimqulunamə» adlı kitabında Mirzə Cəlilin müqəddiməsi verilmişdir. «Bəlkə də qaytardılar» hekayəsi kitabça halında çap edilmişdir.

1928-ci il – M.F.Axundovun vəfatının 50 illik yubileyində ədibə Bakıda qoyulan abidənin açılışmda çıxış etmişdir. «Şərq qadını» jurnalında «M.F.Axundov və qadın məsələsi» (№3), «M.F.Axundov dinlər haqqında» (№5-6) məqalələri dərc olunmuşdur. «Molla Nəsrəddin» jurnalının redaktoruna Azərbaycan Xalq Komissarları Şurası tərəfindən təqaüd təyin olunmuşdur (4 aprel). Ümumittifaq Dram Yazıçıları və Bəstəkarları Cəmiyyətinə üzv seçilmişdir. «Ucuzluq» hekayəsi yazılmışdır.

1929-cu il – Gürcüstan və Ermənistana gedən Azərbaycan yazıçılarının nümayəndə heyətinin tərkibində olmuşdur. «Molla Nəsrəddin» jurnalının 51 nömrəsi çap edilmişdir. «Ölülər» «Azərnəşr» tərəfindən ayrıca kitabça kimi buraxılmış, Bakı, Şəki və Naxçıvanda oynanılmışdır.

1930-cu il – Xalq Komissarları Şurasının putyovkası ilə Kislovodskdə müalicə olunmuşdur. «Molla Nəsrəddin»

jurnalının 33 nömrəsi çap edilmişdir. «Ər» pyesi tamamlanmışdır.

1931-ci il – C.Məmmədquluzadə müalicəsini davam etdirmiş, «Molla Nəsrəddin» jurnalının cəmi bir nömrəsi buraxılmışdır. Jurnalın 25 illiyi qeyd olunmuşdur.

1932-ci il – Böyük ədib vəfat etmişdir (4 yanvar, gündüz saat 3-də). Maarif İşçiləri evindən cənazəsi qaldırılmış, Fəxri Xiyabanda dəfn olunmuşdur (5 yanvar).

## MİRZƏ ƏLƏKBƏR SABİR
## (1862-1911)



1862-ci il – Ələkbər Tahirzadə (Sabir) Şamaxıda tacir Hacı Zeynalabdının ailəsində dünyaya gəlmişdir (30 may).

1870-1874-cü illər – Mollaxanada təhsil almış, «Tutdum orucu irəmazanda» misrası ilə başlayan üçmisralı ilk şeri diqqəti cəlb etmişdir.

1874-1883-cü illər – S.Ə.Şirvaninin dərs dediyi Şamaxı quberniya məclisi məktəbinə daxil olmuşdur. Klassik ədəbiyyatı öyrənməyə ciddi maraq göstərmiş, Sədinin «Gülüstan» əsərindən bir parçanı Azərbaycan dilinə tərcümə etmiş, kiçik şerlər yazmışdır.

1884-cü il – Şərq ölkələrinə səyahət etmiş, Xorasan, Səbzəvar, Nişapur, Buxara, Səmərqənddə olmuşdur. Vətənində vəba xəstəliyi baş verdiyini eşidib, səfəri davam etdirməmişdir.

1885-1886-cı illər – Kərbəlaya səfər etmiş, «Həmədanda qonağımdan xəbər aldım» misrası ilə başlayan taziyanəsini qələmə almış, atasının vəfatı haqqında məktub alıb geri qayıtmışdır.

1887-1888-ci illər – Yaxın qohumlarından Billurnisə adlı bir qızla evlənmişdir. Ondan səkkiz qızı və bir oğlu – Məmmədsəlim Tahirzadə (1908) dünyaya gəlmişdir.

1894-cü il – Şamaxıda bir ziyalı məclisində «Tanrı hər yerdə pulu...» satirasını bədahətən əzbər demişdir.

XIX əsrin 90-cı illərinin ikinci yarısı – Çətin maddi vəziyyətdə yaşamış, dükan açaraq sabun bişirib satmaqla məşğul olmuşdur. Əsasən, lirik qəzəllər və arabir satirik şerlər yazmağı davam etdirmişdir.

1901-ci il – Tehranda «Mədrəseyi-nizamiyyeyi-nasiriyyə» universitetinin tibb fakültəsini bitirib (1900) Şamaxıya qayıdan A.Səhhətlə, şair A.Ə.Naseh və M.Tərrahla həmsöhbət olmuşdur.

1902-ci il – Şamaxıda zəlzələ baş vermişdir. H.Zərdabi Şamaxıya gedib, zərər çəkənlərə yardım göstərmişdir.

1903-cü il – «Şərqi-Rus» qəzetində mənzum təbriknaməsini dərc etdirmişdir (27 iyun). F.Köçərli ilə tanış olmuş, «gah qəzəl, gah mərsiyə, gah bəzi qitələr» (A.Səhhət) yazmışdır.

1905-ci il – «Məşhur Beynəlmiləl» satirasını yazıb, «Həyat» qəzetində (1 iyun, №19) dərc etdirmişdir. A.Şaiqlə ilk tanışlığı zamanı demişdir: «Bir çox adamın batini kirini təmizləmək əlimizdən gəlmir. Zahiri kirini təmizləmək üçün bu sabun bişirmək peşəsini qəbul etmişəm».

1906-cı il – «Molla Nəsrəddin» jurnalı C.Məmmədquluzadənin redaktorluğu ilə Tiflisdə nəşrə başlamışdır (20 aprel). «Həyat qəzetində «Bir məclisdə on iki kişinin söhbəti» (10 fevral, №33), «Molla Nəsrəddin» jurnalında «Millət necə tarac olur-olsun» (28 aprel, №4), «Ol gün ki, sənə...» (26 may, №8), «Bilməm nə görübdür bizim oğlan oxumaqdan» (16 iyun, №11), «Mahi-Kənanın batıb...» (2 iyun, №9) və s. şerlərinin dərc etdirmişdir. «Dəbistan» jurnalında «Məkrtəb şərqisi» şeri (20 dekabr, №17) dərc olunmuşdur. Şamaxıda qiraətxananın təşkilinə icazə almış (27 mart), qiraətxananın təntənəli açılışı olmuşdur (7 may).

«Rəhbər jurnalında Firdovsinin «Şahnamə»sindən etdiyi bir parça tərcümə verilmişdir (№ 3-4).

1907-ci il – «Molla Nəsrəddin» jurnalında 32 satirası dərc edilmişdir. «Elə bilirdim ki, dəxi sübh olub» (№1), «Ey fələk, zülmün əyandır» (№3), «Ey əzizim, xələfim» (№6), «Sərhesab» (№13), «Töm meyi nahar» (№15), «Fəhlə, özünü sən də bir insanmı sanırsan?» (№21), «Əkinçi» (№27), «Uçitellər» (№30), «Qorxuram» (№33) və s.

«İrşad» qəzetində «Nəfəsin qərəzi, əqlin mərəzi» (№16), «Xəsisin heyfi, varisin keyfi» (№30), «Bəhlul» jurnalında «Təraneyi-əsilanə» (№5), «Bəzi yerlərdə təsadüf olunur aşa, ətə» (№6), «Mən belə əsrarı qana bilmirəm» (№6) şerləri oxuculara təqdim edilmişdir.

«Milli nəğmələr» məcmuəsində «Məktəbə təğrib», «Birinci il» dərsliyində «Yaz günləri», «Uşaq və buz» şerləri verilmişdir.

Şamaxıda oynanılan bir teatr tamaşasında pərdələr arasında «Elmə təğrib» şeri məktəb uşaqları tərəfindən şərqi kimi oxunmuşdur.

1908-ci il – Bakı quberniya ruhani idarəsində müəllimlik sənətinə yiyələnmək üçün imtahan vermiş (11 aprel), Qafqaz müsəlmanlarının ruhani idarəsindən bu barədə 944 nömrəli attestat almışdır (7 may). Mütərəqqi ziyalıların köməyi ilə «Ümid» məktəbini açıb, pedaqoji fəaliyyətə başlamışdır.

«Molla Nəsrəddin»də 40-a yaxın satirası dərc olunmuşdur. Bunların arasında «Daş qəlbli insanları neylərdin, ilahi» (№1), «Tək səbir» (№3), «Bizə nə?» (№8), «Bərəkallah» (№11), «Ay nənə, bir qırmızı saqqal kişi» (№29), «Qoyma gəldi» (№33), «Uşaqdır» (№34), «Cavan» (№34), «Kişi» («50), «Zahida, gəl soyunaq bir kərə paltarımızı» (№52) və s. kimi parlaq bədii nümunələr də vardır.

«Ağacların bəhsi» şeri «İkinci il» dərsliyinə salınmışdır.

1909-cu il – «Ümid» məktəbi bağlanmış (iyun-iyul) maddi vəziyyəti ağırlaşmış, tacirlərə kömək məqsədilə tədarükçü vəzifəsində çalışmaq məcburiyyəti qarşısında qalmışdır.

İl ərzində «Molla Nəsrəddin» jurnalında dərc olunan 24 satirası ədəbi şöhrətini daha da artırmışdır: «Çatlayır, Xanbacı, qəmdən ürəyim» (№17), «Mənimki belə düşdü» (№18), «Vah,

bu imiş dərsi-üsuli-cədid?» (№20), «Satıram» (№23), «Doğrudan da, Məmmədəli...» (№28), «Bura say» (№34), «Adəmi adəm eyləyən paradır» (№43) və s.

«Cütcü» şeri və İ.A.Krılovdan iqtibas etdiyi «Qarğa və tülkü» təmsili «Yeni məktəb» dərsliyinə daxil edilmişdir.

1910-cu il – Bakıya gəlmiş (yanvar-fevral), Balaxanı məktəbinə müəllim vəzifəsinə təyin edilmişdir. Balaxanı məktəbinin müdiri Əhməd Kamalla münaqişəyə girmeli olmuşdur. Müəllimlikdən uzaqlaşmış (may-iyun) qısa müddət «Səda» qəzetinin mətbəəsində çalışmış, «Günəş» və «Həqiqət» qəzetlərinin redaksiyasında işləmişdir.

Bakıda ikən qara ciyər xəstəliyinə tutulmuş (sentyabr), burada müalicə olunmuş (sentyabr-noyabr), Şamaxıya qayıtmışdır.

1911-ci il – Yanvar ayının axırlarında C.Məmmədquluzadə (1869-1932) Kəhrizlidən Məmmədəli Sidqi Səfərova (1888-1956) aşağıdakı məzmunda məktub göndərmişdir: «Sabir bu yaxınlarda müalicə üçün Tiflisə gələcək. Onu redaksiyada saxla istirahətinə çalış. Müalicəsinə hər cəhətdən özün diqqət et. Tiflisin məşhur professor və həkimlərinə göstər... Hər barədə ondan muğayat ol... Nə lazım olsa, mənə xəbər ver».

Sabir həyat yoldaşı Billurnisə xanım və qardaşı oğlu Zeynalabdın Tahirzadə ilə birlikdə müalicə olunmaq üçün Tiflisə getmiş (4 fevral), «Molla Nəsrəddin» idarəsində C.Məmmədquluzadəyə məxsus evdə müalicə olunmuşdur (fevral-mart). Naxçıvanda yaşayan Qurbanəli Şərifzadəyə (1854-1917) məktub yazmışdır (6 fevral).

M.Ə.Sabirin müalicəsi ilə professor Malinin, həkimlərdən Rudnikov, Kasparyans və Kandemirov məşğul olmuşdur. Xəstə şair A.Səhhətə göndərdiyi məktubunda (mart) Mirzə Cəlil və Həmidə xanımın qayğıkeşliyindən bəhs etmişdir. Şamaxıya yola düşmüşdür (martın axırları).

«Molla Nəsrəddin» jurnalı şairin ailəsinə maddi kömək göstərilməsi üçün oxuculara müraciətnamə dərc etmişdir (№ 15-16).

M.Ə.Sabir cərrahiyyə əməliyyatı aparılmaq üçün Bakıya gəlmiş (8 iyul), əlac olmadığı üçün geri qayıtmışdır.

Şamaxıda vəfat etmiş (12 iyul), buradakı «Yeddi günbəz» qəbiristanlığında dəfn olunmuşdur.

## ƏBDÜRRƏHİMBƏY HAQVERDİYEV (1870-1933)



1870-ci il – Əbdürrəhim Əsədbəy oğlu Haqverdiyev Şuşa şəhərində anadan olmuşdur (17 may).

1872-ci il – Atası Əsədbəy vəfat etmişdir. Əbdürrəhim anasının yanına gəlmişdir.

1873-cü il – Anası Hüsnicahan xanım Həsənəlibəy Sadıqbəyova ərə getmiş, balaca Əbdürrəhim əmisi Əbdülkərimbəyin himayəsində yaşamışdır.

1875-ci il – Əbdülkərimbəy vəfat etmişdir. Əbdürrəhim anasının yanına gəlmişdir.

1880-ci il – Şuşada Yusifbəyov Məlikhaqnəzərovun yay məktəbinə daxil olmuş, eyni zamanda, mollaxanada oxumuşdur.

1881-ci il – Müvəffəqiyyətlə imtahan verərək Şuşa realnı məktəbinə qəbul olmuşdur (10 oktyabr).

1884-cü il – Şuşada Yusifbəy Məlikhaqnəzərovun hazırladığı «Xırs» quldurbasan» tamaşasına baxmışdır.

1885-ci il – M.F.Axundovun komediyalarının təsiri ilə «Hacı Daşdəmir» adlı pyes yazmışdır. Əlyazması qalmamışdır.

1890-cı il – Şuşa realnı məktəbinin VI sinfini bitirmişdir (8 iyun). Tiflis realnı məktəbinin VII sinfinə daxil olmuşdur (avqust). Bir il burada təhsil almışdır. «Nahaq qan» faciəsini və İ.A.Krılovun «At və eşşək» təmsilini rus dilindən Azərbaycan dilinə tərcümə etmişdir. Tiflis teatrında tamaşalara baxmışdır.

1891-ci il – Tiflis realnı məktəbini bitirmişdir (14 iyun). Peterburq Yol Mühəndisləri İnstitutuna daxil olmuşdur.

1892-ci il – Peterburqda Aleksandrinski teatrının tamaşalarına baxmış, «Yeyəsən qaz ətini, görəsən ləzzətini» əsərini yazmışdır (əlyazması qalmamışdır).

1895-ci il – Tiflisdən Bakıya gələrkən qatarda N.Vəzirovla (1854-1926) qarşılaşmış, onun «Çəkmə, çəkə bilməzsən, bərkdi fələyin yayı» adlı faciəsinin əlyazmasını oxumuş, əsərin «Müsibəti - Fəxrəddin» adlandırılmasını təklif etmişdir (iyul), Peterburq Universitetinin Şərq fakültəsində mühazirələrə qulaq asmışdır.

1896-cı il – Tələbə ikən «Dağılan tifaq» faciəsini yazmışdır. Əsər yay tətili zamanı Şuşada tamaşaya qoyulmuşdur.

1897-ci il – Peterburqda «İslam cəmiyyəti-xeyriyyəsi» yaradılmışdır. Ə.Haqverdiyevin rejissorluğu ilə Şuşada «Məcnun Leylinin qəbri üzərində» səhnəciyi tamaşaya qoyulmuşdur (avqust).

1899-cu il – «Dağılan tifaq» əsəri Peterburqda müsəlman tələbələrinin xeyriyyə cəmiyyəti tərəfindən kitab halında nəşr olunmuşdur. Kitabdan bir neçə ədəd satılmaq üçün Peterburqdan Naxçıvana Q.Şərifzadəyə (1854-1917) göndərmişdir. Ali məktəbi bitirmişdir.

1899-1900-cu illər – Şuşada müəllimlik etmiş, «Bəxtsiz cavan» pyesini yazmış, əsər tamaşaya qoyulmuşdur (1900).

Ə.Haqverdiyev Tükəzban xanımla ailə həyatı qurmuşdur.

1901-ci il – Şuşadan Bakıya gəlmiş, pedaqoji fəaliyyətlə məşğul olmuş, «Pəri-cadu» pyesini tamamlamışdır. Bakıda «Müsəlman dram truppası»nı təşkil etmişdir.. Şuşada xalq ifaçılarının konsertini keçirmişdir.

1902-ci il – Bakıda Birinci Şərq konsertləri keçirmişdir (11 yanvar). İlk dəfə xalq çalğı alətləri ansamblı yaratmışdır. Rejissorluq etmiş, M.F.Axundov, N.Vəzirovun və özünün əsərlərini tamaşaya qoymuşdur. İlk qadın aktyoru Minurə xanım Davidovanı çıxarmışdır.

1904-cü il – Şuşa şəhər idarəsinə üzv seçilmiş, Bakıdan Şuşaya qayıtmışdır. 7 il Şuşada yaşamışdır.

1906-cı il – «Həyat» qəzetində «Ata və oğul» (7, 9, 15, 17 mart), «Ayın şahidliyi» hekayələri dərc olunmuşdur.

1907-ci il – Şuşada yaşamışdır. «Xortdanın cəhənnəm məktubları» povesti «Molla Nəsrəddin» jurnalında hissə-hissə çap olunmuşdur.

«Ağa Məhəmməd şah Qacar» pyesi yazılmışdır. Korolenkonun «Qoca zəngçalan» əsərini Azərbaycan dilinə tərcümə etmişdir.

1908-ci il – «Bomba» novellası «Molla Nəsrəddin» jurnalında dərc olunmuşdur (2 iyun, №22).

Ü.Hacıbəyovun Bakıda tamaşaya qoyulan «Leyli və Məcnun» operasına dirijiorluq etmişdir. Şekspirin «Hamlet», Şillerin «Məkr və məhəbbət», «Qaçaqlar», «Vilhelm Tel», Volterin «Soltan Osman» əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir.

1909-1910-cu illər – Şuşada yaşamış, Qafqaz şəhərlərində və Türkistanda səfərdə olmuşdur. «Marallarım» silsiləsinə daxil olan bir neçə hekayə yazmış, «Molla Nəsrəddin» jurnalında çap etdirmişdir.

Xəzər dənizçilik idarəsində qulluğa girmiş, Həştərxanda olmuş, N.Nərimanovla görüşmüşdür.

1911-ci il – Ağdama köçmüşdür. M.F.Axundovun anadan olmasının 100 illiyi münasibətilə «Xəyalat» avtobioqrafik pyesini yazıb, Bakıda çap etdirmişdir. «Ac hərifləri» məzhəkəsi yazılmışdır.

1912-1913-cü illər – Ağdamda yaşamış, teatr qruppası yaratmış, müxtəlif əsərləri tamaşaya qoymuşdur. M.Ə.Sabirin vəfatının ildönümü ilə əlaqədar «İki il» məqaləsini yazıb «Molla Nəsrəddin» jurnalında dərc etdirmişdir (1913, №20).

1914-cü il – Ağdamda ikən «Şeyx Şəban» hekayəsini yazıb, Cəlil Məmmədquluzadə və İbrahim Tahirə oxumuşdur.

1915-ci il – «Şeyx Şəban» hekayəsi «Açıq söz» qəzetində dərc olunmuşdur.

1916-cı il – Ağdamdan Tiflisə köçmüşdür. Tiflisdə çıxan «Şəhərlər İttifaqının Qafqaz şöbəsinin əxbarı» adlı məcmuəyə müdirlik etmişdir.

1917-ci il – Fevral inqilabı günlərində Borçalı qəzasında komissar kimi əhali arasında iş aparmışdır.

«Röya» hekayəsi «Qardaş köməyi» məcmuəsində «Əfəndi» imzası ilə nəşr olunmuşdur.

«Həmşəri pasportu» hekayəsini «Molla Nəsrəddin» jurnalı oxuculara çatdırmışdır.

1918-1919-cu illər – Tiflisdə, Dağıstanda və Bakıda yaşamışdır. «Mirzə Səfər» hekayəsinin ilk variantı «Dartan-partan» jurnalında dərc olunmuşdur.

1920-ci il – Bakıda yaşamış, «Pəri cadu», «Dağılan tifaq» və «Bəxtsiz cavan» dramları burada tamaşaya qoyulmuşdur.

1921-ci il – Dövlət teatrlarına müfəttiş vəzifəsinə təyin olunmuşdur. Azərbaycan Dövlət Universitetində ədəbiyyatdan mühazirələr oxumuşdur (1921-1931-ci illərdə), «Ağac kölgəsində» pyesi yazılmışdır.

1922-ci il – D.Bünyadzadə adına Azərbaycan Dövlət Teatrında ədəbi fəaliyyətinin 30 illiyinə həsr olunmuş təntənəli gecə keçirilmiş, əsərlərindən parçalar göstərilmişdir.

1923-cü il – Azərbaycan teatrının 50 illik yubileyi münasibətilə yaradılmış təşkilat komitəsinə rəhbərlik etmişdir. Azərbaycan Tədqiq və Tətəbbö cəmiyyətinin sədr müavini, sonra sədri seçilmişdir.

1924-cü il – Ə.Qəmküsarın vəfatının ildönümü münasibətilə yazdığı «Beş il» məqaləsi «Kommunist» qəzetində dərc olunmuşdur (14 mart, №40).

Azərbaycan diyarşünaslarının birinci qurultayında bu cəmiyyətin sədri seçilmişdir. Rusiya Elmlər Akademiyasının ölkəşünaslıq bürosunun üzvü olmuşdur.

1926-cı il – «Ədalət qapıları» pyesini yazmışdır.

1927-ci il – «Köhnə duman» pyesi yazılmışdır. Ədəbi fəaliyyətinin 35 illik yubileyi qeyd olunmuşdur.

1928-ci il – «Əməkdar incəsənət xadimi» fəxri adına layiq görülmüşdür. «M.F.Axundovun həyatı və fəaliyyəti», «Mirzə Fətəli və ərəb əlifbası», «Mirzə Fətəlinin faciəsi» məqalələrini yazmışdır.

1929-cu il – Azərbaycan yazıçılarının Gürcüstana və Ermənistana gedən nümayəndə heyətinin rəhbəri olmuşdur.

1931-1932-ci illər – Azərbaycan Şura Yazıçılar İttifaqının məsul katibi vəzifəsində çalışmışdır. «Yoldaş Koroğlu» pyesini yazmışdır (1932).

1933-cü il – Bakıda vəfat etmişdir (11 dekabr). Məzarı Fəxri xiyabandadır.

## MƏMMƏD SƏİD ORDUBADİ
## (1872-1950)



1872-ci il – Məmməd Səid Hacıağa (Fəqir) oğlu Ordubadi Ordubad şəhərində anadan olmuşdur (24 mart). Atası Hacıağa Fəqir Ordubadi (1836-1885) dövrünün tanınmış şairlərindən idi.

1880-cı illər – Mollaxana məktəbində təhsil almışdır. Atası Hacıağa Fəqir Ordubadi onillik müəllimlərindən olmuşdur. 14 yaşında ikən əmək fəaliyyətinə başlamışdır. İlk şerlərini yazmışdır.

1892-1894-cü illər – M.T.Sidqinin Ordubadda açdığı «Əxtər» məktəbində oxumuşdur.

90-cı illərin ikinci yarısı - Ordubadda ipək fabrikində fəhləlik etmişdir. Şer yazmış, açıqfikirli olduğu üçün təqib edilmiş, evində axtarış aparılmışdır. C.Məmmədquluzadə ilə görüşmüşdür (Nehrəm kəndi, 1895-ci il).

1903-cü il – «Şərqi-Rus» qəzetinin nəşrə başlamasını təqdir edən «Ədəbiyyat» başlığı ilə verilmiş şeri həmin qəzetdə dərc olunmuşdur (18 iyun, №31).

1906-cı il – «Qəflət» adlı ilk kitabı Tiflisdə «Qeyrət» mətbəəsində çapdan çıxmışdır. «Molla Nəsrəddin» jurnalında mətbu yazıları dərc edilmişdir.

1907-ci il – «Qeyrət» mətbəəsində «Vətən və hüriyyət» adlı ikinci şer kitabı çap olunmuşdur. Ordubadda gizli dərnəklərdə iştirak etmişdir.

1908-ci il – Ordubaddan Culfaya köçmüş, burada çayxana açmışdır. Ə.Qəmküsar, N.Şeyxov və başqaları ilə tanış olmuşdur. İran inqilabçıları ilə əlaqə yaratmışdır.

«İki cocuğun Avropaya səyahəti» adlı ilk romanı «Tazə həyat» qəzetində hissə-hissə dərc olunmuşdur.

1909-cu il – «Bədbəxt milyonçu, yaxud Rzaquluxan firəngməab» romanını tamamlamışdır. «Baği-şah və yaxud Tehran faciəsi» dramını yazmışdır. Siyasi fəaliyyətlə məşğul olmuşdur.

1910-cu il – Culfada siyasi fəaliyyətini davam etdirmiş, Səttərxan hərəkatı ilə əlaqəni genişləndirmişdir. «Tehran faciəsi» dramı Bakıda «Səda» qəzetində dərc edilmişdir.

1911-ci il – Erməni-Azərbaycan münaqişələrindən (1905-1907) bəhs edən «Qanlı sənələr» ədəbi-publisistik əsəri Bakıda H.Vəzirovun «Səda» mətbəəsində kitab halında çap olunmuşdur.

1912-ci il – Culfada yaşamış, siyasi fəaliyyətini davam etdirmişdir.

1913-cü il – Culfada ikən həbs edilmiş, Naxçıvana gətirilmiş, İrəvan, Tiflis, Bakı, Rostov və Novoçerkassk həbsxanalarında olmuşdur.

1914-cü il – Saritsına sürgünə göndərilmişdir (aprel). «Bədbəxt milyonçu» romanı Bakıda çap olunmuşdur. «Leylək» jurnalında «Hərdəmxəyal» imzası ilə şerləri verilmişdir.

1915-ci il – Saritsında sürgündə olmuşdur.

1916-cı il – Sürgündə ikən Taisiya Vasilyevna Titova ilə ailə həyatı qurmuşdur. Ədəbi-publisist yaradıcılığını davam etdirmişdir.

1917-ci il – Dövri mətbuatda məqalə və şerləri dərc olunmuşdur.

1918-ci il – Zaqafqaziya Müsəlman İşləri Komissarlığının nəşriyyatı şöbəsində işləmək üçün Həştərxana dəvət olunmuş, bura gəlmiş (12 mart), «Hümmət» qəzetində əməkdaşlığa

başlamışdır. «Bolşevizm və aləmi islam» kitabı Həştərxanda çap edilmişdir.

1919-cu il – Teymurxan – Şurada yaşamış, nəşriyyat və mətbuat sahəsində çalışmışdır.

1920-ci il – Ailəsi ilə birlikdə Bakıya gəlmişdir (2 may). «Əxbar» qəzetinin redaktor müavini təyin olunmuşdur (4 may).

1921-ci il – «Kommunist» qəzetində əməkdaşlıq etmişdir.

1922-ci il – «Dinçilər» dramı Bakıda tamaşaya qoyulmuşdur.

20-ci illərin əvvəlləri – «Azərbaycanda inqilab», «Millətlər», «Sevgililər» dramlarını yazmışdır. «Şerlər», «Analıq» kitabları çapdan çıxmışdır.

20-ci illərin ikinci yarısı – «Köhnə adamlar», «Mənim şerlərim», «Kənd alverçisi» şerlər kitabçası çap olunmuşdur. «Dumanlı Təbriz» romanı üzərində işə başlamışdır (1927-ci ildən). «Molla Nəsrəddin» idarəsinin rəisi vəzifəsində çalışmışdır.

1933-cü il – «Dumanlı Təbriz» tarixi romanının birinci hissəsi Bakıda kitab halında nəşr olunmuşdur. «Gizli Bakı» romanı yazılmışdır.

1936-cı il – Dumanlı Təbriz romanının ikinci hissəsi çapdan çıxmışdır.

1938-ci il – «Dumanlı Təbriz» romanının üçüncü kitabı nəşr olunmuşdur. «Döyüşən şəhər» romanı çapdan çıxmışdır. Gəncə zəhmətkeşləri tərəfindən Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir. Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyündə libretto mətni M.S.Ordubadi tərəfindən yazılmış «Koroğlu» (Ü.Hacıbəyov) və «Nərgiz» (M.Maqomayev) operaları uğurla nümayiş etdirilmişdir.

«Azərbaycan SSR əməkdar incəsənət xadimi» fəxri adına layiq görülmüşdür.

1939-cu il – Səmərəli ədəbi- ictimai fəaliyyətinə görə respublika fondundan «M-1» markalı minik maşını ilə mükafatlandırılmışdır. «Dünya dəyişir» romanını yazmışdır.

1940-cı il – «Qılınc və qələm» tarixi romanını tamamlamışdır. «Dumanlı Təbriz» romanının dördüncü hissəsi yazılmışdır.

1941-ci il – Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq «İncəsənət və müharibə», «Şərəf işimiz», «Qara Məlik», «Camal» adlı elmi-publisist məqalələrini yazmışdır.

1942-ci il – Anadan olmasının 70 illiyi təntənəli şəkildə qeyd olunmuşdur (5 avqust). «Səttar xan», «Tarix və qələbə» məqalələrini, «Maral» pyesini yazmışdır.

1943-cü il – «Vaqif bir dövlət adamı kimi» kitabı çapdan çıxmışdır.

1946-cı il – «Dumanlı Təbriz» dramı Bakıda tamaşaya qoyulmuşdur. «Qılınc və qələm» romanının birinci hissəsi kitab halında nəşr edilmişdir.

1947-ci il – Anadan olmasının 75 illiyi təntənəli şəkildə qeyd edilmişdir. R.Rza məruzəçi olmuşdur. «Sumqayıt» dramı üzərində işləmişdir.

1948-ci il – «Dumanlı Təbriz» tarixi romanının dördüncü cildi, «Qılınc və qələm» romanının ikinci kitabı çap olunmuşdur.

1950-ci il – M.S.Ordubadi vəfat etmişdir (1 may), Fəxri xiyabanda dəfn olunmuşdur.

## ÜZEYİR HACIBƏYOV
## (1885-1948)

1885-ci il – Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyov Şuşa yaxınlığındakı Ağcabədi kəndində anadan olmuşdur (18 sentyabr). Anası Şirin xanım Əliverdibəyova idi.

1897-1899-cu illər – Şuşada «Rus-müsəlman» məktəbində oxumuşdur. Məktəbdə «Leyli və Məcnun» poemasından «Məcnun Leylinin məzarı üstündə» adlı səhnələşdirilmiş xorun iştirakçısı olmuşdur. Şuşada kiçik xalq nağıllarından ibarət «Kitabi-məzhəkə» adlı kitabçası basma üsulu ilə çap edilmişdir.

1899-1904-cü il – Zaqafqaziya (Qori) müəllimlər seminariiyasında təhsil almışdır. Ana dilində danışdığı üçün (3 dekabr 1900), tətildən gec qayıtdığına görə (8 yanvar 1901), musiqi müəllimi ilə mübahisə etdiyindən (oktyabr 1901) töhmət almışdır. Atası vəfat etmişdir (1901). Skripka çalması ilə xüsusilə fərqlənmiş, seminariyanın nəzdindəki ibtidai məktəbin şagirdlərinə müsiqini öyrətməkdəki səylərinə görə 20 manat pulla mükafatlandırılmışdır (16 yanvar 1904), seminaristlər arasında «Şəbi-hicran» mahnısını skripkanın müşayiəti ilə oxumağı təşkil etmişdir (1904).

Seminariyanı bitirmişdir (iyun 1904).



1904-1905-ci illər – Cəbrayıl qəzasının Hadrut kənd məktəbində müəllim işləmişdir. Bakıya gəlmiş (avqust 1905), «Həyat» qəzetində tərcüməçi işləmişdir (sentyabr-noyabr 1905). «Bir xanım əfəndinin bizlərə hüsni-təveccöhü» adlı ilk məqaləsi «Həyat» qəzetində dərc olunmuşdur (7 sentyabr, №59).

1905-1907-ci illər – «İrşad» qəzetində əməkdaşlıq etmiş, bir müddət qəzetin müvəqqəti redaktoru vəzifəsini daşımışdır (1907). Bibiheybət rayonundakı ibtidai məktəbdə müəllimlik etmişdir (1905-1907). «Leyli və Məcnun» operasını tamamlamışdır (1907), «Hesab məsələləri», «Siyasi, hüquqi, iqtisadi və əsgəri sözlərin türk-rus və rus-türk lüğəti» kitabları Bakıda çap edilmişdir (1907). Azərbaycan müəllimlərinin birinci qurultayında iştirak etmişdir (1906).

1908-ci il – Bakıda «Leyli və Məcnun» operasının ilk tamaşası olmuşdur (12-25 yanvar). Ə.Haqverdiyev tamaşaya dirijorluq etmişdir. «Tərəqqi» qəzetinin felyetonçusu vəzifəsində işləmişdir. «Səadət» xeyriyyə cəmiyyətində müəllimliyə başlamışdır (1911-ci ilədək).

1909-cu il – «Tərəqqi» qəzetinin müvəqqəti redaktoru vəzifəsini daşımış, «Həqiqət» qəzetinin redaktoru olmuşdur (1910-cu ilədək).

«Şeyx Sənan» operası tamaşaya qoyulmuşdur (30 noyabr, 13 dekabr).

1910-cu il – «Ər və arvad» musiqili komediyası ilk dəfə səhnəyə çıxarılmışdır (24 may, 6 iyun). «Rüstəm və Söhrab» operası oynanılmışdır (12-25 noyabr). «O olmasın, bu olsun» musiqili komediyası tamaşaya qoyulmuşdur (12 sentyabr). Mirzağa Əliyev Məşədi İbad rolunu ifa etmişdir.

1912-ci il – Bakıda «Şah Abbas və Xurşudbanu» (10-23 mart), «Əsli və Kərəm» (18-31 may) operalarının ilk tamaşaları olmuşdur.

Moskvada Filarmoniya Cəmiyyəti nəzdində İlyinskinin xüsusi kurslarında təhsil almağa başlamışdır.

1913-cü il – İlyinskinin kurslarında qiyabi təhsilini tamamlamış, Peterburqa köçmüşdür (avqust). «Arşın mal alan» musiqili komediyasını bitirmişdir. Əsər Bakıda Tağıyev teatrında tamaşaya qoyulmuşdur (25 oktyabr, 7 noyabr). Sultan bəy rolunu Ələkbər Hüseynov, Vəli rolunu Xəlil Hüseynov oynamışlar.

1941-cü il – Peterburq Konservatoriyasının tələbəsi olmuşdur (yanvar-iyun). «Harun və Leyla» operası üzərində işləmişdir.

1915-ci il – «Harun və Leyla» operasının liberettosu Bakıda nəşr edilmişdir. «Yeni iqbal» qəzetinin redaktoru olmuşdur.

1917-ci il – «Arşın mal alan» komediyası Bakıda çapdan çıxmış, Cənubi Azərbaycanda və Orta Asiyada oynanılmışdır. «Kaspi» qəzetində «Opera və dramın tərbiyəvi əhəmiyyəti haqqında» adlı məqaləsi dərc olunmuşdur (№256-260).

1918-1920-ci illər – Qardaşı Ceyhun Hacıbəyli ilə birlikdə «Azərbaycan» qəzetini təsis etmiş, redaktor olmuşdur.

«O olmasın, bu olsun» komediyası Bakıda çapdan çıxmışdır (1918).

Azərbaycan opera artistlərinin Ənzəli və Rəşt şəhərlərinə qastrol səfərinə rəhbərlik etmişdir (iyun-sentyabr 1918). «İnternosional»ın mətnini Azərbaycan dilinə tərcümə edən qrupa daxil olmuşdur (1920). Qızıl Ordunun musiqi şöbəsinə rəhbərlik etmişdir (1920).

1921-1922-ci illər – Xalq Maarif Komissarlığında etdiyi məruzədə Azərbaycan Dövlət Konservatoriyasının proqramını şərh etmişdir. Yeni yaradılmış Konservatoriyada Musiqi-nəzəriyyə fənlərindən dərs demiş, Şərq musiqi şöbəsinin rəhbəri olmuşdur.

Birinci Azərbaycan – türk musiqi məktəbini təsis etmişdir (1922). Həmin məktəbin yanında opera sinfi açmış, bu sinfə rəhbərliyi öz üzərinə götürmüşdür.

1925-1927-ci illər – Azərbaycan Dövlət Musiqi texnikumunun tələbələri tərəfindən «Arşın mal alan»ın yeni tamaşası hazırlanmışdır (1925).

Azərbaycan Dövlət Konservatoriyasının prorektoru vəzifəsində işləmişdir (1926-cı ildən). M.Maqomayevlə birlikdə «Azərbaycan türk nəğmələri» kitabını tərtib etmişdir (1927).

1928-ci il – Azərbaycan Dövlət Konservatoriyasının rektoru vəzifəsinə təyin olunmuşdur. Aşıqların birinci qurultayında «Aşıq sənəti» mövzusunda məruzə etmişdir (may).

1930-1931-ci illər – Birinci notlu Azərbaycan xalq çalğı alətləri orkestrinin təşkilatçısı olmuşdur (1931). Azərbaycan Dövlət Konservatoriyasının xalq musiqisi şöbəsinin müəllimi və müdiri vəzifəsində işləmişdir (1930-1932-ci illər).

1932-ci il – «Koroğlu» operası üzərində işləməyə başlamışdır (1936-cı ilədək).

1934-cü il – Azərbaycan Bəstəkarlar İttifaqının üzvü seçilmişdir. Konservatoriyada «Ali məktəbdə tar və kamançanın perspektivləri» mövzusunda məruzəsi dinlənilmişdir.

1935-ci il – «Azərbaycan SSR Əməkdar incəsənət xadimi» fəxri adına layiq görülmüşdür. Bakı Sovetinə deputat seçilmişdir.

1936-cı il – Bakı şəhər filarmoniyasında Azərbaycan dövlət xorunu təşkil etmişdir.

1937-ci il – «Koroğlu» operası Bakıda tamaşaya qoyulmuşdur (30 aprel). Koroğlu rolunda görkəmli müğənni Bülbül Məmmədov oynamışdır.

«Azərbaycan SSR xalq artisti» fəxri adına layiq görülmüşdür. Birinci çağırış SSRİ Ali Sovetinə deputat seçilmişdir (dekabr).

1938-ci il – Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyünün əsas təşkilatçılarından biri olmuşdur. «Koroğlu» operası Moskvada uğurla tamaşaya qoyulmuşdur.

«SSRİ xalq artisti» fəxri adına layiq görülmüş, Lenin ordeni almışdır.

Azərbaycan SSR Bəstəkarlar İttifaqının sədri seçilmiş, ömrünün sonunadək bu vəzifədə çalışmışdır.

1939-cu il – SSRİ Bəstəkarlar İttifaqı birinci qurultayının təşkilat komitəsinin üzvü olmuşdur.

«Koroğlu» operası Aşqabad səhnəsində türkmən dilində tamaşaya qoyulmuşdur.

Yenidən Azərbaycan Dövlət Konservatoriyasının rektoru təyin olunmuş, 1948-ci ilədək həmin vəzifəni yerinə yetirmişdir.

1940-cı il – SSRİ Dövlət Mükafatları Komitəsinin üzvü seçilmiş, professor fəxri vəzifəsinə layiq görülmüşdür.

Moskva Dövlət Konservatoriyasında «Azərbaycan xalq musiqisinin əsasları» mövzusunda məruzə etmişdir.

1941-ci il – «Koroğlu» operasına görə SSRİ Dövlət Mükafatı almışdır. İkinci çağırış SSRİ Ali Sovetinə deputat seçilmişdir. Sovet əsgərlərinə xidmət sahəsində respublikada musiqi-hamilik işlərinə rəhbərlik etmişdir (1945-ci ilədək).

1942-1943-cü illər – Cəbhədə olmuş, konsertlər təşkil etmişdir.

«Koroğlu» operası Bakıda rus dilində tamaşaya qoyulmuşdur.

1944-cü il – SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının İncəsənət bölməsinin rəhbəri olmuşdur, Tbilisidə keçirilən Zaqafqaziya respublikaları musiqi ongünlüyünün rəhbəri vəzifəsini yerinə yetirmişdir.

Azərbaycan Dövlət Simfonik Orkestrinə Ü.Hacıbəyovun adı verilmişdir. «Azərbaycan xalq musiqisinin əsasları» əsərini yazıb tamamlamışdır.

1945-ci il – Azərbaycan SSR EA-nın həqiqi üzvü seçilmişdir. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif oşlunmuşdur. «Azərbaycan xalq musiqisinin əsasları» kitabı Bakıda nəşr edilmişdir. Anadan olmasının 60-illik yubileyi təntənəli şəkildə keçirilmişdir.

Azərbaycan SSR EA İncəsənət İnstitutunun direktoru vəzifəsinə irəli çəkilmişdir.

1946-cı il – «Arşın mal alan» kinofilminə yazılmış musiqinin müəllifi kimi SSRİ Dövlət Mükafatına layiq görülmüşdür.

1948-ci il – Bakıda vəfat etmişdir (23 noyabr). Fəxri xiyabanda dəfn olunmuşdur.

## MƏHƏMMƏDAĞA ŞAHTAXTLI (1846-1931)

Bütün müsəlman Şərqi Məhəmmədağa Şahtaxtlıya minnətdar olmalıdır.

***Lüsyen Buva***



1846-cı il – Məhəmmədağa Məhəmmədtağı oğlu Şahtaxtlı İrəvan quberniyası, Şərur-Dərələyəz qəzasının Şahtaxtı kəndində anadan olmuşdur. Uşaqlıq illəri Şahtaxtı kəndində və Naxçıvan şəhərində keçmişdir.

50-ci illərin birinci yarısı – Naxçıvanda Hacı Mirzə Məmmədlinin məktəbində ruhani təhsili almışdır.

50-ci illərin ikinci yarısı – Naxçıvan şəhərindəki qəza məktəbində oxumuşdur.

1860-cı il – Şahtaxtı kəndini tərk etmişdir. İrəvanda, Tiflisdə, Peterburqda olmuşdur.

60-cı illərin birinci yarısı – Tiflis gimnaziyasında oxumuşdur.

60-cı illərin ikinci yarısı – Almaniyanın Leypsiq Universitetinin fəlsəfə, hüquq və tarix fakültəsində təhsil almışdır.

1865-ci ildə – Almaniyada ikən alman dilində elmi əsər yazmışdır.

70-ci illərin əvvəlləri – Rusiyada yaşamış, müxtəlif mətbuat orqanlarında məqalələrlə çıxış etmişdir.

1875-1877-ci illər – Paris şəhərində yaşamışdır. Paris Ali Təcrübi Təhsil məktəbində müəllimlik etmişdir. Atasının vəfatı xəbərini eşidib vətənə qayıtmışdır.

1879-cu il – Tiflisdə Tomson mətbəəsində «Təkmilləşmiş müsəlman əlifbeyi» kitabı çapdan çıxmışdır (yanvar).

80-cı illərin birinci yarısı – Peterburqda yaşayıb, müsəlman Şərqi ölkələrinin ictimai-siyasi həyatına dair məqalələrlə paytaxt mətbuatında çıxış etmişdir.

80-cı illərin ortaları – «Moskovskiye novosti» və «Novoye vremya» qəzetinin Yaxın Şərq ölkələri üzrə müxbiri olmuşdur.

1890-cı il – Görkəmli türk yazıçısı Cövdət paşanın «Müqəddəs müsəlman tarixi» əsərini rus dilinə çevirmişdir. Peterburqda Senzor Komitəsi əsərin çapına icazə verməmişdir.

1891-ci il – «Новое обозрение» qəzetində «Mənim Bakıya səfərim» məqaləsi dərc edilmişdir (2556). Bakıda çıxan «Kaspi» qəzetinin müvəqqəti redaktoru vəzifəsini daşımışdır. Üç ay ərzində qəzetdə 8 məqaləsi verilmişdir. «Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı?» (№93), «Camaləddin» (№102), «Rusiya-İran münasibətləri» (№62).

1894-cü il – Naxçıvana gəlmiş, Şahtaxtı kəndindəki ata mülkünü satmaq üçün ona qiymət qoydurmuşdur. C.Məmmədquluzadə ilə tanış olmuş, «Danabaş kəndinin əhvalatları» povestini oxumuşdur.

1896-cı il – Rusiya Daxili İşlər Nazirliyinə və Qafqaz Senzor Komitəsinə müraciət edərək Azərbaycan, türk , ərəb və fars dillərində «Tiflis» adlı ədəbi-siyasi qəzet çıxarmaq istəmişdir. Razılıq alınmamışdır.

1899-1902-ci illər – Yenidən Parisdə yaşamışdır. Fransa kollecində və Ali Təcrübi Təhsil məktəbində ərəb, fars, türk, pəhləvi və zend dillərində mühazirələr oxumuşdur. Parisdə fransız dilində «Türkiyəni necə xilas etməli» əsəri kitab halında çap olunmuşdur (1901). Fransa Şərqşünaslıq Akademiyasının («Asiya cəmiyyəti») həqiqi üzvü olmuşdur. Beynəlxalq Fonetika Cəmiyyətinin həqiqi üzvü olmuşdur (1899). Sorbonno Universitetində fonetika üzrə xüsusi kurs keçmişdir Fransa Xalq Maarif Nazirliyinin fəxri fərmanı ilə təltif edilmişdir (1901).

Fransız alimlərindən Hartfiq Demeburq, Lüsyen Buva, Barbiya de Meynar, Jozef Halavi, Pol Paasin və başqaları ilə tanış olmuşdur. Vətənə qayıtmışdır (1902). «Bakı» qəzetində «Müsəlman ziyalılarının vəzifələri» məqaləsi dərc olunmuşdur (1902, №10).

1903-cü il – Şahtaxtı kəndindəki ata mülkünü 18 min manata satmış, Tiflis şəhərində «Məhəmmədağa Şahtaxtinski mətbəəsi»ni təşkil etmişdir. Onun redaktorluğu ilə «Şərqi-Rus» qəzeti nəşrə başlamışdır (30 mart). Rusiya İmperator Coğrafiya Cəmiyyətinin həqiqi üzvü seçilmişdir. 1903-1905-ci illərdə M.Şahtaxtlının «Şərqi-Rus» qəzetində 56 məqaləsi dərc olunmuşdur.

1905-ci il – «Şərqi-Rus» qəzetinin nəşri dayandırılmışdır (yanvar). «Sankt Peterburqskie vedomosti» qəzeti M.Şahtaxtlının Bakıda qəflətən öldürülməsi barəsində məqalə dərc etmişdir (sentyabr). (Bu səhv idi. Ədibin qardaşı Cahangir ağa Şahtaxtinski öldürülmüşdü).

1906-cı il – Millətlərarası münasibətlərə həsr olunmuş sülh konfransında iştirak və çıxış etmişdir (Tiflis, fevral).

1907-ci il – Bakıda Azərbaycan müəllimlərinin ikinci qurultayında çıxış edərək sadələşdirilmiş ərəb əlifbasından söz açmışdır. İrəvan qubemiyasından ikinci Dövlət Dumasına deputat seçilmişdir. Rusiya müsəlmanlarını təmsil edən 35 deputatdan biri olmuşdur. Qısa müddət Peterburqda yaşamışdır.

1908-1916-cı illər – Əsasən Avropa ölkələrində yaşamışdır. Kiçik fasilələrlə Rusiyada olmuşdur.

Peterburqda qəzet nəşr etmək istəmişdir (1913). Rusiya Xarici İşlər Nazirliyinin Şərq şöbəsinə başçılıq etmişdir (1915). Peterburqda çıxan «Ислам и порвешение» jurnalına əməkdaş dəvət olunmuşdur.

1918-1919-cu illər – Bakıda yaşamış, Azərbaycan Demokratik Respublikasının həyata keçirdiyi tədbirlərdə yaxından iştirak etmişdir. Bakıda fransız dilində qəzet nəşr etməyə təşəbbüs göstərmişdir (1919). Bakı Universitetinin təşkilində yaxından iştirak etmişdir (1919).

1920-ci il – Bakı universitetində pedaqoji fəaliyyətə başlamışdır. Az sonra professor vəzifəsinə seçilmişdir.

1922-ci il – Yeni Əlifba Komitəsinin üzvü seçilmişdir. Fərdi təqaüdə çıxmışdır.

20-ci illərin ikinci yarısı – Moskvada və Tiflisdə yaşamış, dövri mətbuatda elmi-publisist məqalələrlə çıxış etmişdir.

1931-ci il – Bakıda vəfat etmişdir (dekabr).

## ƏLİ NƏZMİ MƏHƏMMƏDZADƏ (1878-1946)

«Sabirin vəfatından sonra ikinci Sabirimiz birincisinin yerini boş qoymadı».

*C.Məmmədquluzadə*



1878-ci il – Əli Məhəmmədzadə (Nəzmi) Gəncə şəhəri yaxınlığındakı Sərab kəndində anadan olmuşdur. Şairin mənzum xatirələrindən birində deyilir:

Qoy qalsın tarixim yadigar sizdə,
Bir min səkkiz yüz yetmiş səkkizdə.
Bir yoxsul külfətdə, bu kənddə həmən
Gəldim qəm çəkməkçün bu dünyaya mən.

1885-ci il – Molla məktəbinə getmişdir. 90-cı illərin əvvəllərinədək burada təhsil almışdır.

1887-ci il – Atası Məhəmməd kişi vəfat etmişdir. İki qardaş, iki bacı və qoca anasını dolandırmaq vəzifəsi Ə.Nəzminin üzərinə düşmüşdür.

1898-ci il – sərablı bir kəndlisi ilə Buxaraya yola düşmüşdür. Tacir köməkçisi olmuşdur. Sərabda yaşayan dostuna şerlə cavab məktubu göndərir. Məktubdan iki misra qalmışdır:

Salam ola sənə ey cism içrə can əxəvi,
Məni çıxarma yadından aman-aman əxəvi.

1900-cü il – Həmkəndlisi tacirlə birlikdə Səmərqəndə gəlmişdir. 6 ay burada qalmışdır. Buxaraya qayıdıb kiçik bir mağaza açmışdır.

1901-1902-ci illər – Səraba qayıtmışdır. Ailə həyatı qurmuşdur. Bədii yaradıcılığa başlamış, «Dostluq», «Fəsillər və kəndlilər» şerlərini yazmışdır.

1903-cü il – Tiflisdə nəşrə başlayan «Şərqi-Rus» qəzetində məqalə və şerlərlə iştirak etmişdir. Qəzetdə çap olunan «Kəndə ibtidai» şeri maraqla qarşılanmışdır. «Bikəs», «Əli Məhəmmədov» imzaları ilə çıxış etmişdir. Qəzetin redaktoru M.Şahtaxtlı ilə tanış olmuşdur.

1904-cü il – «Şərqi-Rus» qəzetinin redaksiyasında C.Məmmədquluzadə və Ö.F.Nemanzadə ilə tanış olmuşdur.

1905-ci il – Sərab kəndində yaşamışdır. Gəncədə Abdulla Sur və Mirzə Məhəmməd Hatiflə tanış olmuşdur.

1906-cı il – «Molla Nəsrəddin» jurnalının dördüncü nömrəsində ilk dəfə «Elan» adlı kiçik felyetonu dərc edilmişdir: «Gəncədə 20 nəfərdən ziyadə dua yazan var. Hər cür dua yazırlar. Məhəbbət, şirinlik, zəbanbənd, həmzad, əcinnə, kəllədinmə. Hətta tasa da baxırlar və fal da açırlar. Xahiş edənlər buyursunlar».

C.Məmmədquluzadə ilə ikinci dəfə görüşmüşdür.

1907-ci il – «Molla Nəsrəddin» jurnalında məqalə və felyetonlarla iştirakını davam etdirmişdir. Evi qarət edilmişdir. Gəncəyə köçmüşdür.

1908-ci il – «Molla Nəsrəddin» jurnalında «Çayda çapan cavab» adlı ilk satirik şerri dərc olunmuşdur.

1909-cu il – Bakıya köçmüşdür, «Bəhlul» və «Zənbur» jurnalları ilə əməkdaşlıq etmişdir. «Şəmşir», «Şimşək» imzaları ilə şer və məqalələr yazmışdır. «Zənbur» jurnalında 35 şeri dərc edilmişdir.

1910-1912-ci illər – Bədii publisist yaradıcılığını davam etdirmişdir. Gəncəyə qayıtmışdır (1911). M.Ə.Sabirin vəfatına şer həsr etmişdir (1911). «Hophopnamə»nin nəşri üçün 54 manat pul yardım etmişdir (1912). Aşqabaddan gəlib Tiflisə gedən Salman Mümtazla tanış olmuşdur. S.Mümtaz «Seyid Əhməd Hatif İsfəhaninin tərcibəndi və tərcümeyi-hal» kitabını ona bağışlamışdır (1912).

1913-cü il – Çətin maddi vəziyyətdə yaşamışdır. Bədii-publisist yaradıcılığını davam etdirmişdir. Məşhur «Allaha müraciət» şerini yazmışdır. «Molla Nəsrəddin» jurnalı ilə yaxından əlaqə saxlamışdır.

1914-cü il – «Məzəli» jurnalının redaktoru Həşimbəy Vəzirov onu jurnalın redaksiyasında işə dəvət etmişdir. Ağır maddi vəziyyətə görə qəbul edə bilməmişdir.

1915-ci il – «Məzəli» jurnalında «Pul», «Ar etməsin», «Yat» və s. şerlərini, «Şeyxin pişiyi», «Arvad məsələsi» felyetonlarını çap etdirmişdir. İlk dəfə olaraq «Pul» satirasına görə 20 manat qonorar almışdır.

1916-cı il – Ə.Qəmküsarla birlikdə C.Məmmədquluzadənin «Ölülər» tragikomediyasını çapa hazırlamış, lakin özü əsərin səhnəyə qoyulmasında iştirak edə bilməmişdir. «Babayi-Əmir», «Dirilik» jurnallarından dəvət məktubları almış, həmin jurnallarda şer və məqalələrini dərc etdirmişdir.

1917-ci il – C.Məmmədquluzadə məktub yazıb onu Tiflisə, «Molla Nəsrəddin» jurnalında işləməyə dəvət etmişdir. Dəvəti qəbul etməyə maddi vəziyyəti imkan verməmişdir. Anası vəfat etmişdir.

1918-1920-ci illər – Gəncədə yaşamış, bədii yaradıcılığını davam etdirmiş, «Aclıq», «Ey ədalət», «Amal və xəyal» və s. şerlərini yazmışdır.

1921-ci il – Gəncədə üç aylıq müəllimlik kursunu bitirmiş, müəllimliklə məşğul olmuşdur.

1922-ci il – Bakıda nəşrə başlayan «Molla Nəsrəddin» jurnalında aşağıdakı elannamə dərc olunmuşdur: «Neçə il ayrı düşəndən sonra yada salırıq yoldaşımız və ikinci Sabirimiz Kefsizi (Məşədi Sijimqulunu). Harada olduğunu bilmədiyimiz üçün ondan bir xəbər tuta bilmədik. Ümidvarıq ki, tez vəqtdə öz lətafətli şerləri ilə məcmuəmizi zinətləndirəcəkdir».

«Molla Nəsrəddin» jurnalında iştirak etmişdir.

1923-cü il – Gəncədə pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

1924-cü il – «Yeni Gəncə» qəzeti redaksiyasında işləmişdir. Qəzet bağlandıqdan sonra şəhər təsərrüfatı şöbəsində ərzaq vergisi idarəsində çalışmışdır. Evi oğurlanmışdır. Məktub yazıb C.Məmmədquluzadədən 40 manat pul almışdır.

1926-cı il – Yazıçı B.Talıblının köməyi ilə Bakıya köçmüşdür. «Kəndli qəzeti»ndə və «Mola Nəsrəddin» jurnalında əməkdaşlıq etmişdir. 1931-ci ilədək «Molla Nəsrəddin» də katib vəzifəsini daşımışdır.

1927-ci il – «Sijimqulunamə» adlı ilk kitabı çap olunmuşdur. Mirzə Cəlil kitaba müqəddimə yazmışdır.

1929-cu il – Oğlu Tələt vəfat etmişdir.

1930-1931-ci illər – «Molla Nəsrəddin»də katiblik işini davam etdirmişdir. Ə.Vahidlə tanış olmuşdur. «Bəlkə də yaxşı oldu» kitabı nəşr olunmuşdur.

1932-ci il – Mirzə Cəlilin vəfatı (4 yanvar 1932) münasibətilə şer yazmışdır.

1933-cü il – Ona təqaüd təyin olunmuşdur. Firdovsinin «Səyavuş və Əfrasiyab» dastanını, N.Gəncəvinin «Sirlər xəzinəsi» əsərindən bir neçə mənzum hekayəni Azərbaycan dilinə tərcümə etmişdir.

1934-cü il – «Kommunist» və «Yeni yol» qəzeti redaksiyalarında əməkdaşlıq etmişdir.

1935-ci il – «Üç məşədi» adlı şerlər kitabı çap olunmuşdur.

1936-1945-ci illər – «Kommunist» qəzeti redaksiyasında çalışmış, «Keçmiş günlər» adlı mənzum xatirəsini yazıb tamamlamışdır.

1946-cı il – Bakıda qəflətən vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuşdur (2 yanvar).

## ƏLİQULU QƏMKÜSAR (1880-1919)



1880-cı il – Əliqulu Məşədi Ələkbər oğlu Nəcəfov (Qəmküsar) Naxçıvan şəhərində anadan olmuşdur.

1887-1893-cü illər – Naxçıvan şəhərində məhəllə məscidində mollaxana təhsili almışdır.

1894-1896-cı illər – M.T.Sidqinin müdirlik etdiyi «Tərbiyə» məktəbində təhsil almışdır.

1896-cı il – Müalicə olunmaq üçün Təbrizə gedən atası ilə birlikdə olmuşdur. Atası Məşədi Ələkbər kişi Təbrizdə vəfat etmiş, orada dəfn edilmişdir. Qəmküsar Təbrizdə ikən məhərrəmlik mərasiminin tənqidi haqqında ilk şerini yazmışdır.

1897-1903-cü illər – Naxçıvanda yaşamış, Culfada komissiyon idarəsində çalışmış, ticarət, sənət və ədəbiyyatla məşğul olmuşdur.

1904-1905-ci illər – İrəvanda yaşamış, «Şərqi-Rus» qəzetinin xüsusi müxbiri kimi fəaliyyət göstərmiş, «Öz müxbirimizdən», «Culfadan», «İrəvandan» sərlövhəli publisist yazılarını dərc etdirmişdir.

1906-cı il – «Molla Nəsrəddin» jurnalında «Naxçıvandan yazırlar» adlı ilk məqaləsi dərc olunmuşdur (28 may, №4). Jurnalın redaksiyasında olmuş, əməkdaşlarla görüşmüşdür.

1907-1908-ci illər – Culfa ticarət komissiyonunda çalışmış. İrandakı məşrutə hərəkatına yaxından köməklik göstərmişdir. Bu münasibətlə evində axtarış aparılmışdır (30 yanvar).

1909-1911-ci illər – Cənubi Azərbaycan şairi Səid Səlmasi ilə dostluq etmiş, dayısı N.Şeyxovun vasitəsilə Səttarxan hərəkatına köməyini davam etdirmişdir. «Tərəqqi» qəzetində «Təbrizin indiki halı», «Tehrana gedən Azərbaycan vükaləsı ilə söhbət», «Maku inqilabının axırı» adlı məqalələri dərc olunmuşdur (1909, №171, 220).

Culfada teatr qruppasına rəhbərlik etmişdir. M.F.Axundovun «Müsyö Jordan və dərviş Məstəli şah» komediyası, Ə.Haqverdiyevin «Bəxtsiz cavan», «Dağılan tifaq» faciələri tamaşaya qoyulmuşdur (1910).

Naxçıvana və Culfaya qostrola gələn Mirzağa Əliyevlə tanış olmuşdur.

1912-ci il – Culfada yaşamış, «Dağyənuszadə» imzası ilə məqalə və şerlər yazmışdır.

Həyat yoldaşı Xəndan xanım vəfat etmişdir.

«Molla Nəsrəddin» jurnalında əməkdaşlıq etmək üçün Tiflisə dəvət olunmuşdur (mart-aprel). Tiflisə köçmüşdür (dekabr).

1913-cü il – «Molla Nəsrəddin» jurnalının ikinci redaktoru kimi fəaliyyətə başlamışdır (№6).

H.Cavidlə Tiflisdə görüşmüş, Ə.Haqverdiyev, F.Köçərli, H.Minasazov və başqaları ilə tanış olmuşdur.

Bəhabilik təriqətini tənqid edən yazılar verdikləri üçün C.Məmmədquluzadə ilə birlikdə məhkəməyə verilmişdir.

1914-cü il – C.Məmmədquluzadə Kəhrizlidən Tiflisə qayıtmışdır (avqust). «Molla Nəsrəddin»in nəşri davam etdirilmişdir. Rəsam O.İ.Şmerlinq jurnaldakı karikaturalara görə həbs olunmuşdur.

1915-ci il – Polis idarəsi tərəfindən evində axtarış aparılmış və həbs edilmişdir (6 dekabr).

1916-cı il – «Ölülər» pyesinin Bakıda oynanılan ilk tamaşasında Şeyx Nəsrullah rolunu məharətlə ifa etmişdir (29 aprel).

C.Məmmədquluzadə ilə birlikdə Aşqabad, Səmərqənd, Kazan, Həştərxan, Vladiqafqaz şəhərlərində «Ölülər» əsərinin tamaşaya qoyulmasında iştirak etmişdir (may-iyun).

Şuşada «Ölülər» tamaşasında Şeyx Nəsrullah rolunu oynamışdır (12 iyul). Tiflis və İrəvanda da Şeyx Nəsrullah rolunda çıxış etmişdir.

1917-ci il – Yenidən nəşrə başlamış «Molla Nəsrəddin» jurnalında fəal şəkildə şer və felyetonlarla çıxış etmişdir. Naxçıvana gedib, orada «El güzgüsü» adlı dram dərnəyi yaratmışdır (iyun). Dərnək üzvlərinin iştirakı ilə «Ölülər»i tamaşaya qoymuşdur. «El güzgüsü» dərnəyi bağlandıqdan sonra Rza Təhmasiblə birlikdə «Xeyriyyə» məktəbinin nəzdində «İmdad» adlı dram dərnəyi təşkil etmişdir. «Hacı Qara» və «Ölülər» tamaşaya qoyulmuşdur.

1918-ci il – Tiflisdə «Al bayraq» qəzetində əməkdaşlıq etmişdir. Bu qəzet bağlandıqdan sonra «Gələcək» qəzetində çalışmışdır. Gəncədə və Sərab kəndində olmuş, «Ölülər»i tamaşaya hazırlamışdır (iyul-dekabr).

1919-cu il – «Gələcək» qəzetində əməkdaşlığı davam etdirmiş, «Əlaman» şeri bu qəzetdə dərc olunmuşdur (1 yanvar, №4). «İngiltərə» satirasını yazmışdır. Qardaşı Rzaqulu Nəcəfovun qapısının ağzında arxadan vurulan güllə ilə öldürülmüşdür (14 mart, axşam saat 11-də). Tiflisdə müsəlman qəbristanlığında dəfn olunmuşdur (16 mart).

Ə.Şərif «Gələcək» və «Borba» qəzetlərində, Ə.Qarayev, Ə.Pepinov, Ə.Səbri «Al bayraq» qəzetində, M.Ə.Əliyev «Azərbaycan» qəzetində Ə.Qəmküsarın vəfatı ilə əlaqədar olaraq nekroloq dərc etdirmişdir.

## YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİ
## (1887-1943)

Yusif Vəzir başqa biçimli ziyalı idi.

***Kamran Məmmədov***

***əməkdar elm xadimi, professor***



12 sentyabr 1887-ci il – Yusif Məşədi Mirbağır oğlu Vəzirov (Çəmənzəminli) Şuşa şəhərində bəy ailəsində dünyaya gəlmişdir. Babası Mirabdulla kişi ticarətlə məşğul olmuşdur. Anası Seyid Əziz Seyid Hüseyn qızı xalq ədəbiyyatını mükəmməl bilmişdir. Qonşuluqda yaşayan, Cənubi Azərbaycanın Çəmənzəmin kəndindən gəlmiş ailəyə ehtiram əlaməti olaraq Yusif Vəzir sonralar «Çəmənzəminli» təxəllüsünü qəbul etmişdir.

90-cı illərin birinci yarısı – Böyük qardaşı Əbülhəsəndən əlifbanı öyrənmiş, ilk təhsilini Şuşada «Kar xəlfə» ləqəbi ilə tanınan Molla Mehdidən alınışdır. Bir müddət Ağdamda atasının yanında təlim almış, Muradbəyli kənd məktəbində oxumuşdur.

1896-cı il – Şuşada Camalbəyin, Səmədbəy Ağayevin xüsusi məktəblərinə getmişdir. Haşımbəy Vəzirovun müdirlik etdiyi «rus-müsəlman» məktəbində oxumuşdur.

1897-ci il – Şuşa realnı məktəbinin birinci hazırlıq sinfinə qəbul olmuşdur. 8 il bu məktəbdə təhsil almışdır.

1901-ci il – Qardaşı Əbülhəsən vəfat etmişdir (13 mart).

1904-cü il – Əmisi oğlu Mirhəsən Vəzirovla birlikdə Şuşada «Fokunsnik» adlı yumoristik, karikaturalı ədəbi-bədii məcmuə çıxarmışdır. Rus dilində çıxan jurnal üçün mətnləri Mirhəsən yazmış, şəkilləri isə «nesçastnıy» (Bədbəxt) imzası ilə Y.Vəzir çəkmişdir. Onun «Ayağın fiziologiyası», «Məktub daşıyan», «Polisdən qaçanın ayaqları», «Kişi ayaqlı qadın»,

«Şuşanın görünüşü və tipləri» və s. şəkilləri məcmuədə öz əksini tapmışdır.

1905-ci il – Aşqabada getmiş, bir müddət burada yaşayan xalasıgildə qalmışdır. Yenidən Şuşaya qayıtmışdır.

1906-cı il – Atası Məşədi Mirbaba Mirabdulla oğlu vəfat etmişdir (20 fevral). Bakıya gəlmişdir (sentyabr). H.Z.Tağıyevin köməyi ilə Bakı realnı məktəbinin altıncı sinfinə daxil olmuşdur. Yay tətilini Aşqabadda keçirmiş, teatr tamaşalarına baxmışdır.

1907-ci il – «Molla Nəsrəddin» jurnalınıda «Müdiri-möhtərəm» sərlövhəli ilk məqaləsi dərc olunmuşdur (2 oktyabr, №37). Məqalə «Bakı realnı şkolasının altıncı sinif şagirdi Miryusif Vəzirov» imzası ilə verilmişdir. Bundan bir az əvvəl Y.Vəzirin çəkdiyi Müzəffərəddin şahın karikaturası «Molla Nəsrəddin» jurnalında Şmerlinqin imzası ilə çıxmışdı (№24).

«Şahqulunun xeyir işi» hekayəsini yazmışdır (27 noyabr). Ə.Haqverdiyev hekayəni bəyənmişdir.

1908-ci il – Ü.Hacıbəyovun «Leyli və Məcnun» operasının ilk tamaşasına tamaşa etmiş, Üzeyir bəylə tanış olmuşdur.

1909-cu il – Bakı realnı məktəbini bitirmişdir (10 iyun). Peterburqa getmiş, sənədlərini Vətəndaşlıq Hüquqları İnstitutuna vermişdir (iyul). Bir ay Peterburqda qalmış, qəbul imtahanlarında iştirak etməmişdir. Burada ikən «Cənnətin qəbzi» hekayəsini yazmış, bildiyi Azərbaycan atalar sözlərini dəftərə köçürmüşdür. Şeyx Şamil haqqında şer yazmışdır. Aşqabada qayıtmış, iki ay burada qalmışdır (avqust-sentyabr). Aşqabadda Ə.Haqverdiyevin «Kimdir müqəssir» pyesini tamaşaya hazırlamış, Mahmudbəy rolunu oynamışdır. Daşkənddə olmuşdur (noyabr-dekabr), «Səda» qəzetində məqalələrlə çıxış etmişdir. «Nişanbazlıq» adlı kiçik komediyasını, «Fəqirin arzusu» yarımçıq hekayəsini qələmə almışdır.

1910-cu il – Daşkənddə qalmağı davam etdirmiş (yanvar-aprel), gimnaziyada imtahan verib, universitetə daxil olmaq hüququ qazanmışdır. Müqəddəs Vladimir adına Kiyev İmperator Universitetinin hüquq fakültəsinə qəbul olmuşdur. Beş il burada təhsil almışdır. Həmin il «Borclu», «Hərrac»,

«Məşədi və Kərbəlayı», «Toy», «Ağ buxaqda qara xal», «1905-ci ildə» hekayələrini yazmışdır.

1911-ci il – «Həkim», «Əziz», «Zeynal bəy», «Dərdli Züleyxa», «Dəli», «Cümə axşamı», «Qız məktəbində», «Dinayrı qardaşlar» hekayələrini yazmışdır. Bakıda «Kaspi» mətbəəsində «Məlik Məhəmməd», «Səda» mətbəəsində «İki hekayə» kitabları çap olunmuşdur.

1912-ci il – Bakıda Orucov qardaşlarının elektrik mətbəəsində «Divanə», «Yeddi hekayə», «Səda» mətbəəsində «Ağsaqqal» kitabları çapdan çıxmışdır. «Son bahar», «Cavan», «Polis paltosu», «Dərs», «Yeni bir aləm», «Qumarbazın arvadı» və s. hekayələri qələmə alınmışdır. Görkəmli ədəbiyyatşünas F.Köçərli «Divanə» kitabındakı hekayələrə yüksək qiymət vermişdir. Kiyevdə müsəlman tələbələrinin nəşriyyatı yaradılmışdır.

1913-cü il – «Dərviş məsələsi», «Bir qəpik», «Dümisə və Kərbəlayı Eyvaz», «Şair», «Nahaq qan» və s. hekayələrini yazmışdır. Bakıda Orucov qardaşlarının mətbəəsində «Cənnətin qəbzi», «Həyat səhifələri», «Qanlı göz yaşları» adlı üç kitabı çap olunmuşdur.

«Arvadlarınızın halı» kitabı çap olunmuşdur.

1914-cü il – Təhsilini davam etdirmiş, dövri mətbuatda məqalələri dərc olunmuşdur.

1915-ci il – Kiyev Universiteti Saratova köçürülmüşdür. Təhsili başa çatdırmış, Saratovda ikən «Günah» («Studentlər»in ilk variantı) adlı romanını bitirmişdir.

1916-1918-ci illər – Saratov şəhər məhkəmə palatasında məhkəmə kandidatı vəzifəsində çalışmışdır. Simferopol şəhərində hüquq direktoratında vəkil-məsləhətçi işləmiş, Odessada olmuş, «Litva tatarlarının tirixi» kitabını yazmışdır.

1919-cu il – Azərbaycan Demokratik Respublikası tərəfindən respublikanın Türkiyə səfiri vəzifəsinə tövsiyə olunmuş, İstambula getmişdir.

1920-1923-cü illər – Türkiyədə yaşamış, «Azərbaycana dair ədəbi və tarixi məlumat» əsərini yazmış, «Azərbaycan ədəbiyyatına bir nəzər» adlı kitabı İstambulda çap olunmuşdur.

1923-1925-ci illər – Parisə gəlmiş, Siyasi elmlər məktəbinin diplomatiya fakültəsində təhsil alan kiçik qardaşı Mirinin yanında qalmışdır (1923). Parisin yaxınlığındakı Kilişi şəhərindəki zavodda üç il fəhləlik etmişdir. «Paris xəbərləri» qəzetinin əməkdaşı olmuşdur.

3 aprel 1926-cı il – Azərbaycan Xalq Komissarlar Sovetinin razılığı ilə Bakıya qayıtmışdır. «Bakı işçisi» kooperativ nəşriyyatında bədii ədəbiyyat şöbəsinin müdiri vəzifəsində işə başlamışdır. Azərbaycanı Öyrənmə Cəmiyyətində «Azərbaycan nağıllarının tarixi əsasları» mövzusunda məruzə etmişdir.

1927-1930-cu illər – Azərbaycan Dövlət Plan Komitəsinin ictimai-mədəni bölməsinin əməkdaşı olmuşdur. Azərbaycan Dövlət Universitetinin aspiranturasında təhsil almışdır.

Bulqeyis Əsəd qızı Acalova ilə ailə həyatı qurmuşdur (29 dekabr 1927). «Cənnətin qəbzi» (1926), «Keçmiş səhifələr» (1926), «Qazanc yolunda» kitabları çap olunmuşdur.

Oğlanları Orxan (1928) və Fikrət (1929) dünyaya gəlmişdir.

1931-ci il – Azərbaycan Dövlət Sənaye İnstitutunun dil-ədəbiyyat kafedrasında assistent-müəllim vəzifəsində çalışmışdır (1931-1935). «Studentlər» romanının birinci hissəsi kitab halında çap olunmuşdur. Azərbaycan Yazıçılar Cəmiyyətinin rəyasət heyətinə seçilmişdir.

1932-ci il – Azərbaycan Dövlət opera teatrının bədii-siyasi şurasının üzvü seçilmişdir.

1933-cü il – Azərbaycan ensiklopediyasını hazırlayacaq qrupun tərkibinə daxil edilmişdir. «Qaranlıqdan işığa» kitabı Bakıda, «Gələcək şəhər» kitabı Daşkənddə çap olunmuşdur. «Zərbəçi – müəllim» fəxri adına layiq görülmüşdür.

1934-cü il – «Qızlar bulağı» nəşr edilmişdir. Qızı Gülarə anadan olmuşdur.

1935-ci il – Azərnəşrdə tərcüməçi vəzifəsində çalışmışdır. «Studentlər» romanının ikinci hissəsi tamamlanmış və çap olunmuşdur.

1936-1937-ci illər – Azərnəşrdə redaktor vəzifəsində işləmişdir. «Qan içində» romanını yazıb bitirmişdir. «Həyatımın 20

ili» memuarını tamamlamışdır (1936). N.V.Qoqol, L.N.Tolstoy və başqalarının əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. Bir sıra ədəbi-tənqidi məqalələr yazmışdır.

1938-ci il – Azərnəşrdə tutduğu redaktor vəzifəsi ixtisara salınmışdır. Müsabiqə yolu ilə Özbəkistanın Ürgənc şəhərində Xarəzm Vilayət Pedaqoji İnstitutunda 1940-cı illərdə bu vəzifədə çalışmışdır.

1940-cı il – Ürgəncdə ikən həbs edilmiş, Qorki vilayətinin Suxoye-Bezvodnoe kəndindəki həbs düşərgəsinə gətirilmişdir.

1943-cü il, 3 yanvar – həmin həbs düşərgəsində pellaqra xəstəliyindən vəfat etmişdir. Repressiyanın qurbanı olmuşdur.

## EYNƏLİBƏY SULTANOV
## (1866-1935)

«Yəqin bilirəm ki, sən olmasaydın, mən də qeyri-sadəcə kənd müəllimlərinin içində yaddan çıxmışdım».

*Mirzə Cəlil*



1866-cı il – Eynəli Çölü bəy oğlu Qullarağasıyev (Sultanov) Naxçıvan şəhərində anadan olmuşdur (5 may).[1]

1872-1880-cı illər – Naxçıvan şəhər məktəbində təhsil almışdır.

1880-1886-cı illər – İrəvan kişi gimnaziyasında oxumuşdur. Təhsil illərində rus, latın, yunan və fransız dillərini öyrənmişdir. 1883-1884-cü tədris ilində xəstə-

[1] *İndiyə qədərki tədqiqatlarda E.Sultanovun 1862 və 1863-cü illərdə anadan olduğu göstərilmişdir. Təzə əldə etdiyimiz «İrəvan Dairə məhkəməsi prokurorunun katibi E.Sultanovun şəxsi işi» 5 may 1866-cı il tarixinin daha düzgün olduğunu yəqinləşdirir. Ətraflı məlumat üçün bax: İ.Həbibov. E.Sultanovun dünyagörüşünün formalaşma dövrü. «Azərbaycan ədəbiyyatının nəzəriyyəsi və tarixi məsələləri» məcmuəsi. Bakı, 1987, səh. 91-92.*

lənmiş, 74 saat dərs buraxmışdır. Müxtəlif dillərdən tərcümələr etməkdə fərqlənmişdir. Qoqolun «Köhnə dünya mülkədarları» əsərindən seçilmiş parçanı fransız, latın və yunan dillərinə tərcümə etməklə imtahandan «yaxşı» qiymət alan yeganə şagird olmuşdur.

Dövrünün tanınmış ziyalılarından Mirzə Elxanov (1880-1885-ci illər) və Firudinbəy Köçərli (1885-1886-cı illər) ona ana dili və ilahiyyatdan dərs demişdir.

Tələbə ikən Naxçıvanda «Ziyalı məclisi» (1882) və «Müsəlman dram incəsənəti» cəmiyyətini yaratmışdır.

Gimnaziyanın pedaqoji şurasının qərarı ilə şəhər ibtidai məktəblərində müəllimlik etmək hüququ qazanmışdır (5 iyun 1886).

1886-cı il – Müasirləri ilə birlikdə Naxçıvan teatrının əsasını qoymuşdur (mart). M.F.Axundovun «Müsyö Jordan və Dərviş Məstəli şah» komediyası tamaşaya qoyulmuşdur (12 avqust).

1887-1891-ci illər – Əsasən, Naxçıvanda yaşamış, ziyalı mühitinin, mədəni-maarif tədbirlərinin əsas təşkilatçılarından olmuş, teatr hərəkatına başçılıq etmişdir. «Tatarka» pyesi yerli həvəskarlar tərəfindən tamaşaya qoyulmuşdur. M.F.Axundovun «Molla İbrahimxəlil kimyagər» komediyası E.Sultanovun rus dilinə tərcüməsində Naxçıvan teatrında oynanılmışdır. Üç minə yaxın atalar sözünü toplamış, mövzularına görə qruplaşdırmış, rus dilinə çevirmişdir. 1891-ci ildə «Новое обозрение» qəzetində «Tatar atalar sözləri» (2547), «Arxı keç, sonra bərəkallah de» (2667) məqalələri dərc olunmuşdur.

1892-ci il – Qısa müddət Qarsda olmuşdur. İrəvan quberniya idarəsində birinci dərəcəli dəftərxana xidmətçisi vəzifəsinə təyin edilmişdir (18 may). Ərizəsi əsasında İrəvan Dairə məhkəməsinə işə keçirilmişdir (8 oktyabr).

«Новое обозрение» qəzetində «Balıqçı və balığın nağılı» Köçərlinin tərcüməsində, «Biblioqrafiya» (№2788), «Kürd qızı» (№2911), «İrəvan məcmuəsi» (№2963), «Azərbaycanlılar nə oxuyurlar» (3071) məqalələri dərc olunmuşdur.

Əsəd ağa Kəngərli ilə Naxçıvanda gizli mətbəə təşkil etdiyi ehtimal olunur.

1893-cü il – İrəvan Dairə məhkəməsində tərcüməçi vəzifəsini tutmuşdur (10 oktyabr). «Новое обозрение» qəzetində «Həsən xan» (№3143), «Müsəlmanlarla orucluq və vəba xəstəliyi» (№3173), «Bir daha şiə müsəlmanlarının dini şəbihləri haqqında» (№3197) məqalələri çapdan çıxmışdır. İrəvan kişi gimnaziyasının müəllimi F.Köçərli ilə dostluq etmişdir.

1894-cü il – İrəvan dairə məhkəməsi katibinin köməkçisi vəzifəsinə dəyişilmişdir (1 yanvar). Eyni zamanda, yeddinci cinayət şöbəsinə də rəhbərlik etmişdir. Naxçıvan ziyalıları ilə əlaqələri davam etdirmiş, buradakı ədəbi-mədəni mühitin inkişafına köməyini əsirgəməmişdir.

1895-ci il – «Новое обозрение» qəzetində «Kiçik sərgüzəşt» adlı hekayəsi dərc olunmuşdur (№4086).

1896-cı il – İrəvan dairə məhkəməsində mülki şöbəyə keçirilmiş, üçüncü stola rəhbərlik etmişdir (22 noyabrdan).

1897-1902-ci illər – İrəvanda yaşamış, Dairə məhkəməsi prokurorunun köməkçisi vəzifəsini daşımış (5 may 1897-ci ildən), Quberniya vergi idarəsində çalışmışdır (21 sentyabr 1898-ci ildən), burada «dava vəkili» olan Məmmədqulubəy Kəngərli (1854-1905) və yenicə hüquq idarələrində işə başlayan keçmiş dostu Cəlil Məmmədquluzadə ilə yaxın ünsiyyət saxlamışdır.

«Çar zabiti, yaxud kür xan», «Silistçi dəftərxanasında», «Xan, nə xan» hekayələrini qələmə almışdır.

1902-ci ildə «Новое обозрение» qəzetində «Şahtaxtinski və Şərq fonetik əlifbası» məqaləsi (№6012). «Novruz ağa» hekayələri dərc olunmuşdur (№6078-6079).

1903-cü il – İrəvanda ikən, bədii-publisist fəaliyyətini davam etdirmişdir. «Qaynana - xain ana» etnoqrafik hekayəsi və «Çalma» portret hekayəsi yazılmışdır.

1904-cü il – «Tatarka» pyesi İrəvanda rus dilində kitab halında nəşr olunmuşdur.

1905-ci il – «Kaspi» qəzetinin İrəvan üzrə xüsusi müxbiri olmuşdur. Bu qəzetdə «İrəvan hadisələri» (№34), «İrəvan

hadisələri haqqında həqiqətlər» (№107) və s. məqalələri getmişdir.

1906-cı il – Atası Çölü bəy vəfat etmişdir (ilin axırlarında). İrəvandan Naxçıvana qayıtmışdır. «Dinmi, unmu?» hekAyəsi yazılmışdır.

1907-ci il – Naxçıvanda yaşamışdır. «Zaqafqazye» qəzetində ardıcıl olaraq publisist məqalələrlə çıxış etmişdir. Məşhur «Naxçıvan məktubları» və «İfşaedici vərəqlər» məqalələr silsiləsi «Zaqafqazye» qəzetində dərc olunmuşdur.

Yaxın qohumlarından Tubu xanımla ailə həyatı qurmuşdur. Naxçıvandakı Sürməlik, Göynük və Sirab kəndlərindəki torpaqlarını kəndlilərlə bağışlamışdır.

1908-ci il – Tiflisə gəlmişdir. «Zaqafqazye» qəzetində əməkdaşlığa başlamış, «Müsəlman həyatı» şöbəsinin müdiri vəzifəsində çalışmışdır. «Azərbaycan ziyalısı haqqında düşüncələr» məqaləsi «Zaqafqazye» qəzetində (№240), Baba Tahirdən etdiyi «Allah insan məhkəməsi qarşısında» tərcüməsi «Загафгазские речь» qəzetində (№28) dərc olunmuşdur.

1909-cu il – Tiflisdə «Zubalaşvili xalq evi» yanında Azərbaycan dram şöbəsinin təşkilində yaxından iştirak etmişdir.

1910-cu il – Şəmsəddin bəy Saminin «Dəmirçi Gavə» əsəri Tiflisdə tamaşaya qoyulmuşdur. E.Sultanov Gavə rolunda oynamışdır (30 oktyabr).

1912-ci il – F.Köçərlinin «Balalara hədiyyə» kitabına E.Sultanovun topladığı folklor nümunələri daxil edilmişdir.

1912-1918-ci illər – Mətbuat sahəsində çalışmaqla yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olmuş, Tiflis birinci qadın gimnaziyasında rus dili müəllimi işləmişdir. 1917-ci ildən sonra həmin gimnaziyada ana dili müəllimi və sinif nəzarətçisi vəzifəsində çalışmışdır. «Загафгазские речь» qəzetində «Novruz bayramı» (1914), «İftira» (1915), «Fars qızı» (1916) hekayələri dərc olunmuşdur.

1918-1920-ci illər – Tiflisdə yaşamış, bədii-publisist fəaliyyətini davam etdirmişdir.

1921-ci il – Tiflisdə çıxan «Kavkazskoe kommuna» qəzetinin redaktoru olmuşdur. «Aşıq üz görən yerdə» hekayəsini yazmışdır.

1923-cü il – Tiflisdə «Azərbaycan ədəbiyyatı həvəskarları» dərnəyi yaratmış, Nizami, Füzuli, Vaqif, Nəbati, M.F.Axundov haqqında məruzələr etmişdir.

1924-cü il – Latın əlifbasına keçmək uğrunda mübarizə aparmış, Yeni Əlifba Komitəsi Tiflis şöbəsinin katibi seçilmiş, «Yeni fikir» qəzetinə əlavə kimi nəşr edilən «İşıq yol» qəzetinin məsul katibi vəzifəsini daşımışdır. «Atalıq», «Uşaqlıq bostanı» və s. pyeslərini yazmışdır.

1925-ci il – Bakıda yaşayan C.Məmmədquluzadə ilə yaxından əlaqə saxlamış, məktublaşmışdır.

1926-cı il – Tiflisdə «Yeni fikir» qəzeti nəşriyyatında «Seyidlər» adlı hekayə kitabı nəşr olunmuşdur. Kitaba Rzaqulu Nəcəfov müqəddimə yazmışdır. Ələkbər Qərib, Əziz Şərif və Məhəmməd Rəsizadənin kitab haqqında resenziyaları dərc edilmişdir.

E.Sultanov «Seyidlər» kitabını avtoqrafla Həmidə xanım Məmmədquluzadəyə bağışlamışdır (11.VI.1926). Həmidə xanım həmin hekayəni rus dilinə tərcümə etmişdir.

Yeni türk əlifba komitəsində tərcüməçi vəzifəsində çalışmışdır.

1927-ci il – «Dan ulduzu» jurnalında M.Qorkinin «Həyatdan lövhələr» əsərinin (№3), V.Mayakovskinin «Bakı» şerinin (№12) tərcümələrini dərc etdirmişdir. «Dan ulduzu» və «Qızıl şəfəq» jurnallarında hekayə və məqalələri çap olunmuşdur. Teatr tənqidinə ciddi fikir vermişdir.

1928-1929-cu illər – «Kultura i pismennosti Vostoka» məcmuəsində M.F.Axundovun rus dilinə tərcümə etdiyi «Molla İbrahimxəlil kimyagər» (1928, 3-cü kitab) və «Hacı Qara» (1929, 4-cü kitab) komediyaları dərc olunmuşdur.

«Dan ulduzu» jurnalında 1928-ci ildə «Təzə pir» (№2), «Çar zabiti, yaxud qurd xan» (№8-9), «Çadra altında» (№10) hekayələri oxuculara çatdırılmışdır.

1930-cu il – Yeni türk əlifbası komitəsindən təqaüdə çıxışdır.

1931-1934-cü illər – Tiflisdə yaşamış, əsərlərini toplayıb ıpa hazırlamışdır. Bakıda məslək dostu C.Məmmədquzadənin dəfn mərasimində (5 yanvar 1932) iştirak etmişdir.

1935-ci il – Tiflisdə vəfat etmişdir (iyun).

## ÖMƏR FAİQ NEMANZADƏ
## (1872-1938)

«Yoldaşım Faiq Nemanzadəni mən birinci dəfə «Şərqi-Rus» qəzeti idarəsində gördüm... Onun varlığı, onun yoldaşlığı ilə «Molla Nəsrəddin» məcmuəsini bina etdim».

***Cəlil Məmmədquluzadə***



1872-ci il – Ömər Neman oğlu (Faiq) Nemanzadə Gürcüstanın Axalsix qəzasının Azqur kəndində anadan olmuşdur.

70-ci illərin ikinci yarısı – Azqur kəndində mollaxanada oxumuşdur.

Təxminən 1878-1881-ci illər – Kənddəki «təzə məktəb»də oxumuş, dünyəvi elmləri və rus dilini öyrənmişdir. Qori müəllimlər seminariyasında oxumaq istəmiş, anası bu işə mane olmuşdur.

1882-ci il – Dayısı Osman əfəndi ilə İstanbula getmiş, bir fateh mədrəsəsində oxuyan dayısından dərs almışdır.

1883-cü il – İstanbulda Darüşşəfəq məktəb-pansionuna .xil olmuş, 8 il burada oxuyub dini fənlərlə yanaşı, dünyəvi ımləri (türk dili, ədəbiyyat, hesab, tarix, fizika, kimya, fransız li, kosmoqrafiya və s.) öyrənmişdir.

1887-ci il' – Darüşşəfəq pansionunun dördüncü sinfində oxuyarkən atası dünyadan köçmüşdür. Vətənə qayıtmamış, təhsilini davam etdirmişdir.

1890-cı il – Sultan Əbdülhəmid rejiminə qarşı tələbə hərəkatında fəal iştirak etmiş, bir ay həbs cəzası almışdır.

1891-ci il – Darüşşəfəq məktəb-pansionunu bitirib, dövlət məmuru rütbəsini qazanmışdır. Qalata poçt və telaqrafxanasında işə qəbul edilmişdir. Avropa mətbuatını mütaliə etmək imkanı qazanmışdır.

1892-ci il – Avropa ziyalı gəncləri ilə əlaqə yaratmağa xidmət edən gizli təşkilatın üzvü olmuşdur.

1893-cü il – Siyasi təqiblərdən yaxa qurtarmaq üçün gəmi ilə Batuma gəlmiş, Vətənə qayıtmışdır. Azqur kəndində məktəb açmaq istəmiş, razılıq ala bilməmişdir. Tiflisdə mətbəə açmaq, qəzet nəşr etmək təşəbbüsləri də baş tutmamışdır.

1894-1896-cı illər – Şəkidə milli türk məktəbi açılmasına nail olmuş, burada türk dili, tarix, coğrafiya, hesab və imladan dərs demişdir. M.F.Axundovun «Müsyö Jordan və dərviş Məstəli şah» komediyasında Müsyö Jordan rolunu oynamışdır. Gəncədə olmuş, Hacıkənddə istirahət etmişdir (1896).

1896-1898-ci illər – Axalsixdə və Azqur kəndində yaşamış, milli məktəb açmaq səyləri nəticəsiz qalmışdır. Tiflisə gəlib yenidən qəzet nəşr etmək fikrinə düşmüş, məqsədinə çata bilməmişdir. Zaqafqaziya müftisi Hüseyn Əfəndi Qayıbovun təyinatı ilə Şəkidəki məscid məktəbinə müəllim vəzifəsinə göndərilmiş, 2 il burada işləmişdir.

1900-cü il – Bakıya gəlmiş, münasib bir iş tapa bilmədiyinə görə Tiflisə qayıtmışdır. Sonra Şamaxıya gəlib məscid məktəbini bərpa edib, pedaqoji fəaliyyətə başlamışdır. Şamaxı zəlzələsi zamanı (31 yanvar 1902) yaralanmış, Azqur kəndinə qayıtmışdır.

1903-1905-ci illər – Tiflisdə M.Şahtaxtlının redaktorluğu ilə çıxan «Şərqi-Rus» qəzeti idarəsində işləmiş, publisist məqalələrlə çıxış etmiş, korrektorluq vəzifəsini də öz üzərinə götürmüşdür.

«Şərqi-Rus» qəzetində «Dərdimiz və dənnanımız», «Xütbə və cümə namazı», «Diliıniz-imlamız» və s. məqalələri, «Günah kimdə?» hekayəsi dərc olunmuşdur.

C.Məmmədquluzadə ilə tanış olmuş, bir yerdə çalışmışdır.

1905-ci il – Mirzə Cəlil və naxçıvanlı tacir Məşədi Ələsgər Bağırovla birlikdə M.Şahtaxtlıdan «Şərqi-Rus»un mətbəəsi 7 min manata alınmış (1905), «Qeyrət» mətbəəsi adlandırılmışdır. «Dəvət» adlı ilk kitabçası bu mətbəədə çap olunmuşdur.

«Torpaq» adlı qəzet nəşr etmək istəmiş, icazə verilməmişdir.

1906-cı il – «Molla Nəsrəddin» jurnalı nəşrə başlamış, Ömər Faiq jurnalın ikinci redaktoru, yaxud məsul katibi vəzifəsini icra etmişdir.

«İrşad» qəzetində «Dəryadan qətrə», «Müəllimlərimiz nə üçün Bakıdan qaçırlar?», «Ağacı qurd içindən yeyər», «Məzlum ən böyük zalımdır» və s. məqalələri dərc olunmuşdur.

M.S.Ordubadinin «Qeyrət» mətbəəsində çıxan «Qəflət» kitabına müqəddimə yazmışdır.

1907-ci il – «İrşad» qəzetində dərc etdirdiyi «Açıq sözlər» (№104), «Molla Nəsrəddin» bağlandı» (№110) məqalələrində mübariz jurnalın ideya-estetik mövqeyi müdafiə olunmuşdur. Jurnaldakı fəaliyyətinə görə 2 ay həbsxanada saxlanmışdır.

M.Ə.Sabirin «Töhmət» satirası Ömər Faiqin müdafiə edilməsinə həsr olunmuşdur. Axund Əbuturabın «Bizə hansı elmlər lazımdır?» adlı mübahisəli məqaləsinə cavabdan ibarət olan eyni adlı kitabı «Qeyrət» mətbəəsində çapdan çıxmışdır.

1908-ci il - «Molla Nəsrəddin»də fəaliyyətini davam etdirmiş, «Allaha rüşvət» (№8), «Ziyarət» (№17) felyetonları həmin jurnalda dərc olunmuşdur.

1909-cu il – Azərbaycan maarifçilərindən F.Ağazadə, A.Şaiq, S.S.Axundov, M.Mahmudbəyov, Ə.Əfəndiyev və S.Əbdürrəhmanbəyovun tərtib etdikləri «İkinci il» dərsliyi haqqında Əlibəy Hüseynzadənin «Yazımız, dilimiz, ikinci ilimiz» adlı tənqidi məqaləsinə «Tərəqqi» qəzetində dərc

etdirdiyi eyni adlı irihəcmli məqalə ilə cavab vermişdir (10, 22, 26 fevral, 3, 12, 15, 16 mart).

1911-ci il – «Molla Nəsrəddin» jurnalında əməkdaşlığını davam etdirmişdir. «Yeni iqbal», «Açıq söz» qəzetlərində məqalələrlə çıxış etmişdir. «Mən kiməm» adlı kitabçası Bakıda elektrik mətbəəsində çap olunmuşdur.

1919-1920-ci illər – Ailəsi ilə birlikdə Bakıya köçüb, burada yaşamışdır.

1921-1923-cü illər – Gürcüstan KP MK-nın «Müsəlman sektoru»na rəhbərlik etmişdir.

1923-1927-ci illər – Gəncə Ziraət Texnikumunun direktoru vəzifəsində çalışmışdır. Xəstəliyinə və xidmətlərinə görə təqaüdə çıxmışdır (1927).

1928-1937-ci illər – Bakıda yaşamışdır. Hötenin «Faust» əsərini Azərbaycan dilinə çevirmişdir. C.Məmmədquluzadənin dəfn mərasimində çıxış etmişdir (5 yanvar 1932). «Xatirələrim» adlı 144 səhifəlik memuarını yazıb tamamlamışdır (25 may 1936).

1938-ci il – Bakıda vəfat etmişdir.

## ƏLİABBAS MÜZNİB
## (1883-1938)

1883-cü il – Əliabbas Mütalib oğlu Əhmədov (Əliabbas Müznib) Bakıda anadan olmuşdur.

1890-1892-ci illər – Mollaxanada təhsil almışdır. Bakıda yayılan vəba xəstəliyi ilə əlaqədar ailəsi ilə birlikdə Abşeron bağlarına köçmüş, təhsili yarımçıq qalmışdır.

1893-cü ildən sonra – Bakıda xarrat, dəmirçi və arabadüzəldən kimi çalışmışdır.

90-cı illərin sonu – İçərişəhərdə fəaliyyət göstərən «Məcməüş-şüəra» şer məclisinə qoşulmuş, Əbdülxalıq Cənnəti, Məhəmmədağa Çürümü, Ağadadaş Minuri və başqaları ilə tanış olmuşdur. İlk şerləri meydana çıxmışdır.

1903-1904-cü illər – Tiflisdə çıxan «Şərqi-Rus» qəzetinə rəğbət bəsləmiş, tənqidi-realist və maarifçi şerlər yazmışdır.

1906-cı il – Cəlil Məmmədquluzadənin redaktorluğu ilə nəşr olunan «Molla Nəsrəddin» jurnalının təsirilə satirik şerlər yazmağa başlamışdır.

1907-ci il – Bakıda «Səda» mətbəəsində «Tazə həyat» qəzetində mürəttib işləmişdir. İlk mətbu şeri «Tazə həyat» qəzetində çap olunmuşdur.

1908-ci il – «Zənbur» satirik jurnalının baş redaktoru kimi fəaliyyət göstərmişdir.

1909-cu il – «Hürriyyəti-bəşəriyyət» adlı ilk lirik poeması çapdan buraxılmışdır. «Molla Nəsrəddin» məzhəkəsi» adlı kitabı fars dilindən Azərbaycan dilinə çevirmişdir.

1910-cu il – «Şeyx Bəhlul» adlı tərcümə kitabı çapdan çıxmışdır. «Hilal» adlı qəzet nəşr etdirmişdir.

1911-ci il – «Şihabi-şaqib» adlı jurnal nəşr etdirməyə başlamışdır. «Müsavat» partiyasının yaranmasında iştirak etmiş, bu partiyanın Mərkəzi Komitəsinin katibi seçilmişdir. «Hilal» qəzeti bağlanmışdır.

1912-ci il – Xalqı milli-azadlıq hərəkatına səslədiyi üçün çar hökuməti tərəfindən Sibirə sürgün edilmişdir.

1913-cü il – Romanovlar sülaləsinin üç yüz illik yubileyi ilə əlaqədar olaraq amnistiyaya düşmüş, azadlığa buraxılmışdır. «Tikan kolu», «İstər ağla, istər gül», «Sibriyyə məktubları», «Dərvişi-kəhkəşan» adlı kitabları çap olunmuşdur.

Əfqanıstan əmiri Əbdürrəhman xanın «Əfqan tarixi» adlı romanını fars dilindən Azərbaycan dilinə tərcümə etmişdir.

Bakıda Məmmədəmin Rəsulzadə ilə yaxınlaşmış, «Musavat» ideyalarına rəğbət bəsləmişdir.

1914-cü il – Dini fanatizmi tənqid etdiyinə görə Bakı ruhanisi Şeyx Qəni tərəfindən ölüm fitvasına məruz qalmışdır.

«Dirilik» jurnalını nəşr etdirmişdir.

Kərbəlayi Vəli Mikayılovla birlikdə «Əlif Leyla» (Min bir gecə) nağıllarını Azərbaycan dilinə tərcümə etmişdir. «Qiraət» adlı hekayələr kitabı oxuculara təqdim olunmuşdur. «Yusif və Züleyxa» romanı nəşr edilmişdir.

1915-ci il – Dövri mətbuatda satirik şerlər və publisist məqalələri dərc olunmuşdur. Ə.Müznibin redaktorluğu ilə «Babayi-əmir» jurnalı nəşrə başlamışdır.

1916-cı il – «Nur» jurnalı bağlanmışdır (17 oktyabr).

1917-ci il – Tikan kolu kitabı təkrar nəşr olunmuş, «Müxtəsər əbniya və islam tarixi» kitabı Bakıda Orucov qardaşlarının mətbəəsində çap edilmişdir.

1918-ci il – Azərbaycan Xalq Cümhuriyyətinin işində iştirak etmişdir. «Mart hadisələri» kitabçasını çap etdirmişdir.

1919-cu il – «Övraqi-nəfisə» adlı jurnal nəşr etdirmişdir. «Azərbaycan» qəzetində fəal iştirak etmişdir.

Seyid Hüseynin rəhbərlik etdiyi «Yaşıl qələm» dərnəyinin üzvü olmuşdur.

1920-ci il – Şuşa şəhərində «Qarabağ revkomunun əxbarı», «Qarabağ füqərası» qəzetlərini nəşr etdirmişdir.

1921-ci il – Bakıya çağrılıb «Azərbaycan füqərası», «Azərbaycan revkomunun xəbərləri» adlı qəzetlərin redaktoru kimi fəaliyyət göstərmişdir.

1922-ci il – Qubaya göndərilmiş, orada «Quba qəza icraiyyə və firqə komitəsinin əxbarı», «İki dirilik» adlı qəzetləri çıxarılmışdır.

1924-1925-ci illər – Bakıda «Qızıl qələm» jurnalında katib vəzifəsində çalışmışdır. «Molla Nəsrəddin», «Damğa» jurnalları ilə əməkdaşlıq etmişdir.

«Kommunist» qəzetində «Əməkçi felyetonu» və «Qəza felyetonu» başlıqları altında silsilə felyetonlar çap etdirmişdir.

1926-cı il – Bakıda keçirilmiş Birinci Türkoloji qurultayda iştirak etmiş, türksoylu alimlərlə yaxından əlaqə saxladığı üçün şübhəli şəxslər sırasına daxil edilmiş, 44 yaşında ikən təqaüdə buraxılmışdır.

1927-ci il – Ədəbiyyatşünaslıq fəaliyyəti ilə məşğul olmuş, dövri mətbuatda məqalələr çap etdirmişdir.

1928-ci il – «Aşıq Pəri və müasirləri» kitabını çap etdirmişdir. Nakamın və Xurşidbanu Natəvanın seçilmiş şerlərini toplayıb nəşr etdirmişdir. Abbas Səhhətin «Seçilmiş əsərləri»ni nəşr etdirmişdir.

1929-cu il – Mirzə Ələkbər Sabirin «Seçilmiş əsərləri»ni Bakıda kitab halında çapdan buraxmışdır.

1930-cu il – Seyid Əzim Şirvaninin «Seçilmiş əsərləri»ni toplayıb nəşr etdirmişdir.

1931-1934-cü illər – Ədəbiyyatşünaslıq sahəsindəki fəaliyyətini davam etdirmiş, Ömər Xəyyamın rübailərini Azərbaycan dilinə çevirmiş, «Ədəbi xatirələr» kitabını çapa hazırlamışdır.

1935-ci il – Abbas Səhhətin «Seçilmiş əsərləri»nin ikinci nəşrini çapdan buraxdırmışdır.

1936-cı il – Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsi Əliabbas Müznibə qarşı cinayət işi açmış (7 dekabr), şairin evində axtarışlar aparmış və o, həbs edilmişdir (12 dekabr).

1937-ci il – Burjua-millətçi görüşlərinə və fəaliyyətinə, S.Şaumyana böhtan atdığına görə Ə.Müznibə 8 il həbs cəzası kəsilmişdir.

1938-ci il – Ə.Müznib Vladivostok şəhərindəki həbs düşərgəsində vəfat etmişdir (28 avqust).

## MİRZƏ ƏLİ MÖCÜZ ŞƏBÜSTƏRİ (1873-1934)



1873-cü il – Mirzə Əli Hacıağa oğlu Möcüz Cənubi Azərbaycanda Güney mahalının mərkəzi Şəbüstər qəsəbəsində tacir ailəsində anadan olmuşdur (29 mart).

80-ci illər – Şəbüstər qəsəbəsində molla məktəbində oxumuş, Molla Əlidən dərs almışdır.

1889-cu il – Atası Hacıağa kişi vəfat etmişdir. Türkiyədə yaşayan qardaşları Həsən və Hüseynin səyi və dəvəti

ilə İstanbula getmişdir. 16 il İstanbulda yaşamış, məktəb ləvazimatları mağazası açıb, ticarətlə məşğul olmuşdur. Klassik Şərq və türk ədəbiyyatını öyrənmiş, şerlər yazmışdır.

1905-ci il – Yenidən Şəbüstər qəsəbəsinə qayıtmışdır. Baqqal dükanı açmışdır. «Şairin dükanı», «Möcüzün İstanbuldan Şəbüstərə qayıtması» şerləri yazılmışdır.

1906-1907-ci illər – Növhəxanlıq etmiş, din xadimləri tərəfindən təqib olunmuşdur. Bu mübarizə şairin ömrünün sonuna qədər davam etmişdir.

1907-1911-ci illər – Səttarxan hərəkatını, məşrutə inqilabını müdafiə edən şerlər yazmış, «Molla Nəsrəddin» vasitəsilə M.Ə.Sabir satira ənənələrini mənimsəmişdir. «Şah firəngistandadır», «Cümhuriyyətə», «Məmmədəli», «Nikolay», «Əmoğlu», «Qaç» və s. şerləri meydana çıxmışdır.

1914-1918-ci illər – Şeyx Mahmud Şəbüstərinin türbəsində dini xidmətlə məşğul olmuşdur. Cənubi Azərbaycandakı aclıqla əlaqədar «Eylər» satirasını, Birinci Dünya Müharibəsi hadisələrinə həsr olunmuş «Ey Vilhelm», «Prussiya şahı» və tənqidi-satirik şerlərini qələmə almışdır.

1920-1921-ci illər – Şimali Azərbaycanda baş verən ictimai-siyasi hadisələri izləmiş, «Naxçıvan şuralaşdı», «O tərəfdə, bu tərəfdə» şerlərini yazmışdır.

«Molla Nəsrəddin» jurnalı Təbrizdə nəşr olunarkən (1921), «Şəbüstər hamamları» (№5), «Olsun gərək» (№6) şerləri məcmuədə dərc olunmuşdur.

1925-ci il – Əhməd şahın 15 ildən sonra taxtdan düşməsini rəğbətlə qarşılamışdır.

1926-1931-ci illər – Şeyx Mahmud Şəbüstərinin türbəsində xidmətini davam etdirmişdir. Şəbüstərdə dərzi Məmmədrza Müddəb, Təbrizdə tanınmış tacir və ədəbiyyatşünas Hacı Məhəmməd Naxçıvani ilə dostluq etmişdir. Ciddi satirik şerlər yazmışdır.

1932-ci il – Şəbüstər qəsəbəsində İranda ilk dəfə olaraq qız məktəbi açaraq, burada dərs demişdir.

1933-cü il – Təqib və təsirlər nəticəsində Şəbüstər qəsəbəsini tərk etməyə məcbur olmuş, İranın şimal-şərqində yerlə-

şən Şahrud şəhərinə köçmüşdür. Yolüstü Təbrizə getmiş, dostu Hacı Məhəmməd Naxçıvani ilə görüşmüş, 50 manat borcu olduğu üçün bütün əlyazmalarını dərzi Məmmədrza Müddəbə verib, halallıq aldığını ona bildirmişdir.

1934-cü il – İranın Şahrud şəhərində vəfat etmişdir (25 sentyabr).

## BAYRAMƏLİ ABBASZADƏ (1859-1926)



1859-cu il – Cənubi Azərbaycanın Sərab mahalının Dünni kəndində anadan olmuşdur.

70-ci illərin ortalarınadək – Kəndlərində molla məktəbində oxumuş, «Mirzə Gülzar» təxəllüsü ilə ilk şerlərini yazmışdır.

80-ci illər – Tənqidi satirik şerlərinə görə təqib olunmuş, evi dağıdılmışdır.

90-cı illər – Əkinçiliklə məşğul olmuş, şerlər yazmışdır.

XX əsrin əvvəlləri – Bədii yaradıcılığı davam etdirmiş, zülmü, haqsızlığı tənqid etmişdir.

1906-1908-ci illər – Səttarxan hərəkatında iştirak etmiş, yaralandıqdan sonra kəndlərinə qayıtmışdır. «Məşrutə» şerini yazmışdır.

1909-cu il – «İmam cümə» ləqəbi ilə tanınan Hacı Mirzə Həsənin fitvası ilə evi ikinci dəfə qarət edilmişdir.

«İranlıların naləsi», «Həllac», «Cavabi-Molla» şerlərini yazmış, «Molla Nəsrəddin» jurnalı ilə əməkdaşlığa başlamışdır.

1910-cu il – İranı tərk edərək Bakıya gəlmişdir. Bakıda M.Ə.Sabirlə görüşmüşdür. «Hammal» təxəllüsünü ona Sabir tövsiyə etmişdir. «Molla Nəsrəddin» jurnalında «İranlılar» adlı satirası çap olunmuşdur.

Əsrin onuncu illərinin davamı – Bakıda yaşayıb-işləmiş, bədii yaradıcılığını davam etdirmiş, dövri mətbuat, o cümlədən «Molla Nəsrəddin» jurnalı ilə əlaqələri möhkəmləndirmişdir.

«Dinc otur» (1913), «Bitərəfəm», «Becəhənnəm» (1915) və s. satiralarını qələmə almışdır.

1920-ci il – Bakıda yaşamış, «Dolanır» adlı satirasını yazmış, ədəbi ictimaiyyətin marağına səbəb olmuşdur.

1923-cü il – Cəlil Məmmədquluzadə ilə Bakıda tanış olmuşdur. «Olan yerdə», «Əhməd şahın növhəsi» şerlərini qələmə almışdır.

1924-cü il – «Sabirə nəzirə», «Şahnamə», «Rza xan», «Şahənşahın konsulu», «Vəsiyyət» şerlərini yazmışdır. Əsərlərində İran həyatının əks etdirilməsinə geniş yer vermişdir.

1925-ci il – «Yanğılı vulkan da var», «Məqsəd nədir», «İran mollaları» şerləri yazılmışdır.

1926-cı il – Bakıda vəfat etmişdir (3 iyun).

## MARAĞALI ZEYNALABDİN
## (1837-1910)

> ...Ay İranı-viranın xaki-pakının yetim balaları həmşərilər! Əvvələn, gərək bir-birinizlə əl-ələ verəsiniz... Elə ki, bir-birinizin əlindən yapışdınız, o vədə söz yox ki, yenə mənə kağız yazıb soruşacaqsınız ki, indi bəs neyləyək? Və o vədə mən sizə yazacağam ki... Arazı hoppanın, keçin tarmar vətəninizə və orada İbrahimbəyin «səyahətnamə»sini oxuyun, oxuyun, oxuyun! Və oxuyandan sonra bir qədər fikir edin.
>
> ***Cəlil Məmmədquluzadə***

1837-ci il – Zeynalabdin Məşədi Əli oğlu Marağa şəhərində tacir ailəsində anadan olmuşdur.

1845-1850-ci illər – Marağada mədrəsə təhsili almışdır.

1851-1856-cı illər – Atasının yanında çalışıb ticarət işlərini öyrənmişdir.



1857-1859-cu illər – Atasının verdiyi maddi vəsaitlə Ərdəbil şəhərində dükan açıb, ticarətlə məşğul olmağa başlamışdır. Təcrübəsizlik və avaraçılıq üzündən maddi imkanlarının çoxunu itirmişdir.

1860-cı il – Kiçik maddi vəsaitlə qardaşı ilə birlikdə Qafqaza köçmüşdür. Kutaisi şəhərində baqqal dükanı açmışdır. İranın Tiflisdəki konsulu Mirzə Əsədulla xanın tapşırığı ilə Kutaisi şəhəri üzrə vitse konsul vəzifəsini daşımışdır.

1867-ci il – Krıma gedib Yaltada yaşamış, ticarətlə məşğul olmuşdur. İstanbulla ticarət əlaqələri yaratmışdır. Rus dilini öyrənmişdir.

90-cı illərin əvvəlləri – İstanbulda ikən ailə həyatı qurmuş, arvadını Yaltaya gətirmişdir.

1893-cü il – Birinci oğlu dünyaya gəlmişdir.

1894-cü il – Yaltada ikinci oğlu anadan olmuşdur. İran təbəəliyindən çıxıb, rus təbəəliyini qəbul etmişdir.

1896-cı il – «İbrahimbəyin səyahətnaməsi» romanının birinci cildini Yaltada yazıb tamamlamışdır.

1897-ci il – Romanın birinci cildi Qahirədə çapdan çıxmışdır.

1901-ci il – Ailəsi ilə birlikdə İstanbula köçmüşdür.

1903-cü il – «Səyahətnamə»nin birinci cildi Leypsiqdə alman dilində nəşr olunmuşdur.

1905-ci il – İstanbulda «İbrahimbəyin səyahətnaməsi»nin ikinci cildini yazmışdır (noyabr). Rus təbəəliyindən çıxıb, yenidən İran təbəəliyini qəbul etmişdir.

1906-cı il – Romanın üçüncü cildi tamamlanmışdır.

1907-ci il – İkinci cild Kəlküttə şəhərində çapdan çıxmışdır. Birinci cilddə olduğu kimi, ikinci hissədə də müəllifin adı göstərilməmişdir.

1909-cu il – «İbrahimbəyin səyahətnaməsi» romanının üçüncü cildi İstanbulda çapdan çıxmışdır. Müəllif bu cilddə öz adını yazmış və qısa tərcümeyi-halını vermişdir. Əvvəlki iki cild kimi bu cild də fars dilində yazılmışdır.

1910-cu il – Zeynalabdin Marağalı İstanbulda vəfat etmişdir.

«İbrahimbəyin səyahətnaməsi»nin birinci cildi A.Mikayılov tərəfindən Azərbaycan dilinə tərcümə edilərək 1911-ci ildə Bakıda nəşr olunmuşdur. Əsər bütövlükdə 70-ci illərdə filologiya elmləri doktoru Həmid Məmmədzadə tərəfindən dilimizə tərcümə edilmiş, 1982-ci ildə kiçik ixtisarla Bakıda «Elm» nəşriyyatında çapdan buraxılmışdır.

«Səyahətnamə»nin birinci cildini rus dilinə Q.P.Mixayleviç tərcümə etmişdir. Həmin tərcümə A.M.Şoytovun müqəddiməsi ilə 1963-cü ildə SSRİ Elmlər Akademiyası tərəfindən nəşr edilmişdir.

# ÜÇÜNCÜ BÖLMƏ

# AZƏRBAYCAN ƏDƏBİYYATINDA ROMANTİZM

## MƏHƏMMƏD HADİ
## (1879-1920)



1879-cu il – Ağa Məhəmməd Əbdüssəlim oğlu Əbdülsəlimzadə (Hadi) Şamaxıda Sarıtorpaq məhəlləsində anadan olmuşdur.

1885-1887-ci illər – Məhəllə mədrəsəxanasında Molla Səməd adlı ruhanidən dərs almışdır.

1888-1889-cu illər – A.Səhhətin atası Molla Əliabbas Mehdizadənin məktəbində oxumuşdur. Atası Hacı Əbdüssəlim vəfat etmişdir (1889).

1890-1891-ci illər – Anası ərə getmiş, Hadi bacıları Sahibə və Əsma ilə birlikdə ata nənəsi Teyyibə xanıma sığınmışdır. Ona hamilik edən əmisi Hacı Abbasqulu dünyadan köçmüşdür (1891).

1892-1899-cu illər – Bibisinin qaynı, dövrün tanınmış ziyalılarından olan Mustafa Lütfi İsmayılzadənin himayəsində yaşamış, ondan təhsil və tərbiyə almışdır. Nənəsi Teyyibə xanım dünyadan köçmüşdür (təxminən 1894-cü il). Məhəbbət bəslədiyi, əhd-peyman bağladığı əmisi qızı Əminə Əhməd adlı bir tacirə ərə verilmişdir (təxminən 1898-ci il).

1900-1901-ci illər – Mustafa Lütfi Hacı Sədrəddin oğlu İsmayılzadə Həştərxana köçmüşdür. Hadi bibisi Zeynəb xanımın himayəsində yaşamış, məhəllə məscidində təhsilini davam etdirmişdir. Əmisi oğlu ilə şərik dükan açmış, az sonra bu işdən əl çəkmişdir. İlk şerlərini yazmışdır.

1902-1905-ci illər – Şamaxı zəlzələsindən sonra (31 yanvar 1902) Kürdəmirə köçmüşdür. Əvvəlcə əttar dükanı açmış, sonra kiçik bir məktəb təşkil edib, müəllimliklə məşğul

olmuşdur. Türk-müsəlman dövri mətbuatı və ədəbiyyatını mütaliə etmişdir.

1906-cı il – «Lövhi-məktəb» adlı ilk şeri «Həyat» qəzetində dərc olunmuşdur (11 yanvar, №9), «Dəbistan» jurnalında «Məktəb şərqisi» (16 avqust, №9), «Lövheyi-təsviri maarif» (2 avqust, №8), «Maarifə dair» (16 oktyabr, №13), «Bədayeyi-təbiət», «Həyat» qəzetində «İnsan nə ilə mükərrəm olur» (30 avqust, №91), «Biz nə haldayıq» (1 sentyabr, №93), «Füyuzat» jurnalında «Qələm», «Amali tərəqqi», «Qızlar bağçası» (1 noyabr, №1), «Amali istiqbal», «Təraneyi-qəmpərvəranə» (13 noyabr, №2), «Kitabi-həyat» (26 noyabr, №3), «İsmət, yaxud Əfif olan zatların xəsaili» (18 dekabr, №5), «Təkamül» qəzetində «El fəryadı» şerləri oxuculara çatdırılmışdır.

Mustafa Lütfinin dəvətilə Həştərxana getmiş, burada «Darülədəb» məktəbində dərs demişdir. Şamaxıya gedən M.Lütfi onu öz yerinə «Bürhani-tərəqqi» qəzetinə redaktor təyin etdirmişdir.

1907-ci il – Həştərxanda yaşamış, ədəbi-publisistik və maarifçi fəaliyyətini davam etdirmişdir.

«Füyuzat» jurnalında «Təbriki eydi-əzha», «Təraneyi-milli» (№7), «Bülbül» (№8), «Fazili-insaniyyə» (№9), «Pəriyi vicdan», «Bir əməlim» (№12), «Lövheyi-bahar» (№13), «Facieyi-həyatımızdan bir pərdə» (№16), «Amali-vicdan» (№17), «Ulduzlara» (№18), «Axşam tənəzzöləri» (№20), «Əlvida, yaxud acı bir iqrar» (№32), «Dəbistan» jurnalında «Arzuyi-dil» (№3), «Sevimli şagirdlərimizə ərmağan» (№4), «İrşad» qəzetində «Molla Nəsrəddin»ə (7 iyun, №106), «Yoldaş» qəzetində «Dad istibdaddan» (2 avqust, №1) şerləri dərc olunmuşdur.

Səmərqənddə Dəmirov mətbəəsində buraxılmış «Əşari əlzübdə» adlı şer məcmuəsinə şerləri daxil edilmişdir.

1908-ci il – «Firdovsi-ilhamat» adlı ilk şer kitabı H.Z.Tağıyevin maddi köməyi ilə Bakıda nəşr olunmuşdur. «Beşikdən məzara qədər bəşərin əhvalı» poeması yazılmış və «İttifaq» qəzetində dərc edilmişdir. «Aləmi-müsavatdan» poemasını «Tazə həyat» qəzeti oxuculara çatdırmışdır.

1909-cu il – Bakıda yaşamış, bədii-publisist yaradıcılığının yeni mərhələsinə qədəm qoyınuşdur. «Bariteyi-zəfər parlayır, istiqbal bizimdir» şerində («İttifaq» qəzeti, 4-16 mart) Səttarxan hərəkatı müdafiə olunmuşdur. «İranlı qardaşıma» poeması «Tərəqqi» qəzetində dərc edilmişdir. İranda nəşr edilən «Nəsimi şimal» qəzetindən Seyid Əşrəf Gilaninin «Təraneyi-zəfər» şerini fars dilindən Azərbaycan dilinə çevirmişdir.

1910-1913-cü illər – İstanbula getmiş (1910), «Tənin» qəzetində Şərq dilləri üzrə tərcüməçi işləmişdir. Türkiyədəki «Rübab», «Şahbal», «Məhtab» və s. mətbuat orqanları ilə əməkdaşlıq etmişdir. Filosof-şair Tofiq Fikrət və Rza Tofiqlə yaxın ünsiyyət saxlamışdır. İstanbulda ikən M.Ə.Sabirin vəfatını eşitmiş, «Sabirin yadigarına ithaf» şerini yazıb Bakıda «Yeni irşad» qəzetində dərc etmişdir (28 avqust, 1911, №1). Vətəndə nəşrə başlayan «İşıq» jurnalının fəaliyyətini alqışlamışdır.

Soronikə sürgün edilmiş, azad olunaraq yenidən İstanbula gəlmiş, Azərbaycana qayıtmışdır (1913).

1914-cü il – Bakıda «Eşqi-möhtəşəm, yaxud Əflatun sevgisi» və Ç.Darvinə həsr edilmiş «Şükufeyi-hikmət» adlı şer kitabları çap olunmuşdur. «İqbal» qəzetində əməkdaşlıq etmiş, Ömər Xəyyamın 11 rübaisini Azərbaycan dilinə tərcümə edərək «İlhami-Xəyyam» başlığı ilə həmin qəzetdə dərc etdirmişdir.

Maddi vəziyyəti ağır olduğu üçün şerlərini vərəqə halında çap etdirərək Bakının küçələrində satmışdır.

1915-1918-ci illər – Birinci dünya müharibəsi illərində müsəlman diviziyasının tərkibində ruhani sifətilə iştirak etmişdir. Karpat ətəklərində, Lvovda, Qaliça əyalətində, Polşada, sonra isə Peterburqda olmuşdur. Cəbhə xatirələrini «Əməl» (1916-1917), «Qürbət ellərdə yadi-vətən», «İnsanların tarixi faciələri, yaxud əhvali-intibah» poemalarını (1918) yazmışdır. «Əlvahi-intibah» poeması 1918-1919-cu illərdə Bakıda üç kitab halında çap edilmişdir.

«A.Səhhətin üfuli-əbədisi» məqaləsində qələm dostunun vəfatını xəbər vermişdir.

1919-cu il – Bakıda yaşamış, əsərlərini vərəqə halında çap etdirərək satmaqla ağır həyat keçirmişdir. Azərbaycanın bir

çox şəhərlərində səyahətdə olmuş, ilin axırlarında Gəncəyə gəlmişdir.

1920-ci il – Gəncədə vəfat etmişdir (may).

## HÜSEYN CAVİD
## (1882-1941)



1882-ci il – Hüseyn Abdulla oğlu Rasizadə Naxçıvanda anadan olmuşdur (24 oktyabr). Atası Molla Abdulla Qafqazda tanınmış rövzəxan idi. Anası Ümmileyla xanımın yaxşı səsi varmış.

1891-1895-ci illər – Naxçıvan şəhərində mollaxanada oxumuşdur.

1896-1898-ci illər – Naxçıvan şəhərində M.T.Sidqinin (1854-1903) müdirlik etdiyi «Məktəbi-Tərbiyə»də təhsil almışdır. İlk şerlərinin «Gülçin» təxəllüsü ilə bu illərdə yazmışdır.

Təbrizə getmiş, «Talibiyyə» məktəbində ərəbcə, farsca oxumuşdur (1898). Gözləri ağrıdığından təhsildən uzaqlaşmış, xalça, palaz satmaqla məşğul olmuşdur.

XIX əsrin axırlarında – «Gülçin» və «Arif» təxəllüsü ilə şerlər yazmışdır. Təbrizdə və Urmiyədə yaşamışdır.

XX əsrin əvvəllərində - Qürbətdən müəllimi M.T.Sidqiyə və Q.Şərifzadəyə (1854-1917) məktublar göndərmişdir. Dövri mətbuatı mütaliə etmişdir.

1903-cü il – «Şərqi-Rus» qəzetində məqalələrlə çıxış etmişdir. Müəllimi M.T.Sidqinin vəfatı münasibətilə yazdığı şer həmin qəzetdə dərc olunmuşdur (23 yanvar).

1904-1905-ci illər – Təbrizdən qayıtmış, Gürcüstanın Kaxetiya rayonunda şose yolu çəkən idarədə podratçı işləmişdir.

1906-cı il – İstanbula getmiş (20 aprel), İstanbul Universitetinin ədəbiyyat fakültəsinə daxil olmuşdur. «İrşad» qəzetində «Salik» təxəllüsü ilə «Növhə» adlı şeri dərc olunmuşdur (18 yanvar).

1907-1908-ci illər – İstanbulda təhsilini davam etdirmiş, «Füyuzat» jurnalında «Bir ahi-məzlumanə» şeri dərc olunmuşdur (13 aprel, 1907).

1909-cu il – İstanbul Universitetini bitirmiş, Naxçıvana qayıtmış, müəllimliklə məşğul olmuşdur. «Məsud və Şəfiqə» şeri «Həqiqət» qəzetində dərc edilmişdir. İstanbulda çıxan «Siratül-müstəqim» jurnalında şerləri çıxmışdır.

1910-cu il – Naxçıvanda pedaqoji fəaliyyətini davam etdirmişdir. «Ana» pyesini yazmışdır. «Çiçək sevgisi», «Öksüz Ənvər», «Çəkinmə, gül» və s. şerləri dövri mətbuat səhifələrində dərc olunmuşdur. «Həsb-hal» adlı silsilə məqalələri «Həqiqət» qəzetinin 8 nömrəsində (may-iyun) verilmişdir. Az müddət Gəncədə yaşamış, ruhani məktəbində müəllimlik etmişdir.

1911-ci il – Tiflisə gəlmiş, «Şeyx Sənan» pyesi ətrafında axtarışlar aparmışdır.

M.Ə.Sabirin Tiflisdən Şamaxıya yola salınma mərasimində iştirak etmişdir.

1912-ci il – «Maral» (ilk variantda «Zavallı qadın») pyesi tamamlanmış, hissə-hissə «İqbal» qəzetində çap edilmişdir. «Qız məktəbində» şeri «Məktəb» jurnalında verilmişdir. Qısa müddət Gəncə dəmir yolunda mühasiblik etmişdir. İlin sonlarında Tiflisdə müəllim vəzifəsinə düzəlmişdir.

1913-cü il – «Keçmiş günlər» adlı şerlər kitabı Tiflisdə «Şərq» mətbəəsində çapdan çıxmışdır (24 səhifə). Tiflisdəki «Gürcü şirkəti» mətbəəsində «Ana» pyesi çap olunmuşdur.

1914-cü il – Məşhur «Şeyx Sənan» faciəsini tamamlamışdır. «İştə bir divanədən», «Rəqs», «Pənbə çarşaf», «Xuraman-Xuraman», «Vərəmli qız», «Dəniz tamaşası» şerləri qələmə alınmışdır.

1915-ci il – «Yeni iqbal» qəzetində «Şeyx Sənan» faciəsindən parçalar dərc olunmuşdur (11 may). Ədib Kislovodskdə

istirahətdə olmuşdur (7 iyun-iyul). Bakıya gəlmiş (avqust), «Səfa» məktəbində pedaqoji fəaliyyətə başlamışdır (sentyabr). M.Ə.Rəsulzadənin redaktorluğu ilə nəşrə başlayan «Açıq söz» qəzetində əməkdaşlıq etmişdir. «Müharibə və ədəbiyyat» məqaləsi bu qəzetdə dərc olunmuşdur (25-26 oktyabr). «Qurtuluş» jurnalında şerləri verilmişdir.

1916-cı il – «Şeyx Sənan» faciəsi «Açıq söz» qəzetində dərc edilmişdir. Məşhur «Ölülər» pyesinin Bakı tamaşaları barədə mülahizələri müxtəlif mətbuat orqanlarında öz əksini tapmışdır. «Şeyda» dramı yazılmışdır. «Qardaş köməyi» məcmuəsinin redaksiya heyətinin tərkibinə daxil olmuşdur.

1917-ci il – «Mühərrirlər və Ədiblər Cəmiyyəti»nin üzvü seçilmişdir. Qurbanəli Şərifzadənin Naxçıvanda vəfat etməsi barədə yazdığı nekroloq «Açıq söz» qəzetində dərc edilmişdir (8 iyun).

1918-ci il – Daşnakların törətdiyi mart qırğınlarından sonra Bakıdan Təbrizə getmiş, ədəbiyyatşünas Hacı Məhəmməd Naxçıvani və Şeyx Məhəmməd Xiyabani ilə görüşmüşdür. Yayda Naxçıvana gəlmiş, «Rüşdiyyə» məktəbində dərs demişdir.

«Maral» faciəsi Krımda Baxçasaray gimnazistləri tərəfindən tamaşaya qoyulmuşdur (avqust-sentyabr).

Müşkünaz xanım Cavidlə evlənmişdir (avqust).

Bakıda Cavidin Naxçıvanda vəfat etməsi barədə şayiələr yayılmışdır (oktyabr-noyabr).

«Bakı ətrafı fəhlə, qırmızı əsgər, kəndli və matros Şurasının «Əxbarı» H.Cavidin «haqqını sən mübarizə ilə alarsan» şerini vərəqə halında yaymışdır.

1919-cu il – H.Cavid Naxçıvan Türk-Araz Respublikasının xariciyyə naziri Bəhramxan Naxçıvanski ilə birlikdə Bakıya gəlmişdir (mart). Müəllimlər İttifaqı idarə heyətinin üzvlüyünə seçilmişdir (may). A.Şaiqlə tərtib etdiyi «Türk çələngi» kitabında Cavidin tərcümeyi-halı və şerləri verilmişdir. «Şeyda» pyesi Bakıda (18 sentyabr), Daşkənddə (oktyabr) və Aşqabadda (noyabr) tamaşaya qoyulmuşdur.

H.Cavid «Yaşıl qələm» dərnəyinin üzvlüyünə daxil olmuşdur. «Uçurum» faciəsi yazılmışdır.

1920-ci il – «İblis» pyesi tamamlanmış və «Yaşıl qələm» dərnəyində oxunub müzakirə edilmişdir (yanvar). Əsər ilk dəfə Aşqabadda (7 oktyabr). Krasnovodsk və Qızılurvat şəhərlərində oynanılmışdır. «İblis» faciəsi Bakıda tamaşaya qoyulmuşdur (dekabr).

1921-ci il – «İblis» faciəsi Bakı, Aşqabad səhnələrində göstərilmiş, «Şeyx Sənan» əsəri Bakıda oynanılmışdır. «Azərbaycan fiiqərası» qəzetində «Afət» dramından parçalar verilmişdir. «Qaçqın» şeri yazılmışdır (dekabr).

1922-ci il – Latın əlifbasına keçid məsələlərini müzakirə edən iclasın sədri olmuşdur (1 yanvar). Lakin əlifba islahatı komissiyasının üzvü olmaqdan imtina etmişdir (20 yanvar). Bakıda «Hüseyn Cavid axşamı» keçirilmiş, bu münasibətlə «Ana» pyesi göstərilmişdir (27 mart).

1923-cü il – «Peyğəmbər» dramı yazılmış və əsərdən bir parça «Maarif və mədəniyyət» jurnalında dərc olunmuşdur (№1). Azərbaycan «Yıldırım» adlı Yazıçılar Cəmiyyətinin təşkilat komitəsinin üzvlüyünə daxil edilmişdir. «Azərbaycan ədib və şairlər dərnəyi»nin idarə heyətinə seçilmişdir (avqust). Əsərləri Zaqafqaziya və Orta Asiya şəhərlərində tamaşaya qoyulmuşdur.

1924-cü il – «Peyğəmbər» dramı Xalq Maarif Komissarlığının nəşriyyatı tərəfindən çapdan buraxılmışdır. H.Cavidin əsərləri dövri mətbuatda tənqid və təqdir edilmişdir. M.Maqomayev «İblis» faciəsi əsasında yazdığı operanı tamamlamışdır (oktyabr). Azərbaycan Tədqiq və Tətəbbö cəmiyyətinin iclasında iştirak etmişdir. «Şeyx Sənan» pyesinin «ədəbi məhkəməsi» keçirilmişdir. «İblis» dramı Dövlət nəşriyyatında çap olunmuşdur.

1925-ci il – Əsərləri Qafqaz və Türküstan səhnələrində oynanılmış, «Şeyda» dramı Azərnəşr tərəfindən çap edilmişdir. «Topal Teymur» dramı yazılmışdır.

1926-cı il – Bakıda çağırılmış birinci Türkoloji qurultayda iştirak etmişdir (26 fevral-6 mart). Azərbaycan Xalq Maarif

Komissarlığı tərəfindən Avropa ədəbiyyatını öyrənmək və müalicə olunmaq üçün Berlin və Parisə göndərilməsi qərara alınmışdır. Cavid Almaniyada müalicə olunmuşdur.

1927-ci il – Bakı teatr texnikumunda ədəbiyyat dərslərini demişdir. Azərbaycan Xalq Komissarlar Şurası Cavidə ayda 120 manatlıq təqaüd müəyyən etmişdir.

1928-ci il – «Azər» poeması yazılmış, əsərdən parçalar dövri mətbuat səhifələrində oxuculara çatdırılmışdır. Bakı Sovetinin fəxri üzvü seçilmişdir (21 iyul).

1929-cu il – Yeni əlifba komissiyasının iclaslarında iştirak etmişdir. «Knyaz» dramı yazılmışdır. Azərbaycan yazıçılarının Gürcüstana və Ermənistana gedən nümayəndə heyətinin tərkibində olmuşdur. Zaqafqaziya Şura Yazıçıları və İncəsənət Xadimləri Birliyinin üzvü seçilmişdir (iyun).

1930-cu il – «Knyaz» pyesi Bakıda və Tbilisidə oynanılmışdır. Cavid pyesin mətni əsasında «Dəli Knyaz» adlı opera yazmışdır. Cənubi Azərbaycan mövzusunda yazdığı «Telli saz» dramını tamamlamışdır.

1931-ci il – H.Cavidi «burjua yazıçısı» kimi tənqid edən məqalələr çoxalmağa başlamışdır. Ailəsi ilə Yesentukidə istirahət etmişdir (iyul-avqust).

1932-ci il – «Şeyx Sənan» pyesi yeni quruluşda Dövlət Bədaye Teatrında tamaşaya qoyulmuşdur (oktyabr).

1933-cü il - Azərbaycan Yazıçılar Cəmiyyətinin birinci plenumunda iştirak etmişdir (yanvar). Yazıçılar İttifaqı qəbul komissiyasının üzvü seçilmişdir (aprel). «Səyavuş» dramı yazılmışdır.

1934-cü il – Azərbaycan Şura Yazıçılarının birinci qurultayında çıxış etmişdir (15 iyun).

«Səyavuş» pyesi Bakıda tamaşaya qoyulmuşdur. «Şəhla» pyesi yazılmışdır.

1935-ci il – Teatr texnikumunda pedaqoji fəaliyyətini davam etdirmişdir. «Xəyyam» dramı yazılıb teatra təhvil verilmişdir.

1936-cı il – Moskvada Azərbaycan şer dekadasının iştirakçısı olmuşdur. Bakıda özbək şairi Qafur Qulamla görüşmüşdür.

Ədəbi müsabiqədə «Xəyyam» dramı üçüncü mükafata layiq görülmüşdür (mart).

«İblisin intiqamı» pyesini yazmışdır. Mətbuatda Cavidin yaradıcılığına münasibət bir qədər də kəskinləşmişdir.

1937-ci il – Azərbaycan Sovet Yazıçıları İttifaqının plenumunda Cavidin yaradıcılığının «müasir həyatı əks etdirmədiyi» ciddi şəkildə tənqid olunmuşdur (28 mart). İlk tamaşasında iştirak etdiyi «Koroğlu» operası barədə «Yeni yol» qəzetində məqalə dərc etdirmişdir (6 may). H.Cavid həbs edilmiş (oktyabr), səkkiz illik həbs cəzası almışdır.

1938-1940-cı illər – Maqadanda həbs düşərgəsində cəza çəkmişdir.

1941-ci il - Sibirdə Tayşet rayonunun Şevçenko kəndində həbsdə ikən vəfat etmişdir (5 dekabr).

## ƏLİBƏY HÜSEYNZADƏ
## (1864-1940)



1864-cü il – Əlibəy Molla Hüseyn oğlu Hüseynzadə Salyan şəhərində anadan olmuşdur (24 fevral). Atası Molla Hüseyn Qafqaz müsəlman ruhani məclisi məktəbinin müəllimi işləmişdir.

Anası Qafqaz şeyxülislamı Axund Molla Əhməd Səlyaninin (1812-1887) qızı Xədicə xanım idi. Axund M.Ə.Səlyani Tiflisdə çap olunmuş «Dilguşə», «Tərbiyətül-Ətfal» (1870) kitablarının, habelə «Tarixi ədəbiyyati-türki» əlyazmasının müəllifi olmuş, illəri hicridən miladiyə çevirmək üçün sinxron cədvəl hazırlamışdır.

60-cı illərin axırları – Əlibəy Hüseynzadə Tiflisdə Qafqaz müsəlman ruhani məclisi məktəbində oxumuş, atasından dərs almışdır.

70-ci illərin birinci yarısı – Müsəlman ruhani məclisi məktəbində təhsilini davam etdirmişdir. Atası Molla Hüseyn vəfat etmişdir.

1875-1885-ci illər – Birinci Tiflis gimnaziyasında təhsil almışdır. Ana babası Şeyx Əhməd Səlyaninin himayəsində yaşamışdır.

1885-ci il – Tiflis gimnaziyasını bitirib, rəssam olmaq məqsədilə Bədaye Akademiyasında oxumaq üçün Peterburqa gəlmişdir. Burada fikrini dəyişərək Peterburq Universitetinin fizika və təbiyyat fakültəsinə daxil olmuşdur.

1886-cı il – Universitetdə təhsilini davam etdirmiş, Şərq fakültəsində də mühazirələri dinləmişdir. Mendeleyev, Vaqner və Jukovski kimi görkəmli alimlərdən dərs almışdır. Avropa ədəbiyyatını həvəslə öyrənmiş, tələbə hərəkatında fəal iştirak etmişdir.

1887-ci il – Üçüncü Aleksandra edilən sui-qəsddən sonra şübhəli tələbələr sırasında təqib edilmişdir.

1888-ci il – Peterburq Universitetini bitirmiş, Türkiyədə İstanbul Universitetinin «Əsgəri tibbiyyə» fakültəsinə daxil olmuşdur.

1889-1893-cü illər – İstanbul Universitetində tələbə ikən Ömər Xəyyamın bir neçə rübaisini və onun haqqında F.Bodenştetin əsərini, Götenin «Faust» əsərindən bir parçanı, Hunenin «Zinət verər asimanə əncüm» şerini türk dilinə tərcümə edərək A.Cövdətin redaktorluğu ilə nəşr olunan «Ramazan bağçası» jurnalında dərc etdirmişdir. Qahirədə çıxan «Türk» qəzeti onun tərcüməsində Derjavinin bir şerini oxuculara çatdırmışdır. Təhsil illərində Sultan Əbdülhəmid rejiminə qarşı tələbə hərəkatının başçılarından olmuşdur. Abdulla Cövdət, İshaq Sükuti kimi tələbələrlə birlikdə «İttihad və tərəqqi» partiyasını yaratmış, sonralar bu partiyanın mərkəzi komitəsinə üzv seçilmişdir. «Turan imperiyası» ideyasının nəzəriyyəçisi və müdafiəçisi kimi tanınmışdır.

Universiteti bitirib, dermatoloq ixtisası qazanmış, yüzbaşı rütbəsi almışdır.

1897-ci il – Türkiyə-Yunanıstan müharibəsinin başlanması ilə əlaqədar olaraq «Qırmızı Aypara» cəmiyyətinin tərkibində Avropaya getmiş, İtaliyada olmuşdur.

1900-cü il – İstanbul Universitetində professor köməkçisi vəzifəsinə seçilmişdir.

1904-cü il – Parisə getmiş, oradan Azərbaycana gəlmişdir.

1905-ci il – Bakıda H.Z.Tağıyevin (1823-1924) vəsaiti ilə nəşrə başlayan «Həyat» qəzetinə Əhmədbəy Ağayevlə birlikdə redaktorluq etmişdir. «Türklər kimlərdir və kimlərdən ibarətdir», «Hüriyyət» və s. məqalələri «Həyat» qəzetində verilmişdir.

1906-cı il – «Həyat» qəzeti Ə.Hüseynzadənin redaktorluğu ilə nəşr olunmuşdur (1 yanvardan). «Ədibi-qlaf və məhvəzəqulu» povestini yazmışdır. «Həyat» qəzetində «Rusiya inqilabının əhəmiyyəti-aliyyəsi», «Nəticeyi-zülm və istibdad» məqalələri «Həyat»ın səhifələrində dərc edilmişdir.

Bakıda «Füyuzat» adlı həftəlik ədəbi-elmi, ictimai-siyasi jurnal nəşrinə başlamışdır (1 noyabr).

1907-ci il – «Füyuzat» jurnalının cəmi 32 nömrəsi nəşr olunmuşdur. Həm də «Kaspi» qəzetinin redaktoru vəzifəsini icra etmişdir (1 mart – 16 oktyabr, №48-231).

1908-ci il – «Siyasəti-fürusət» («At oynatmaq siyasəti») adlı bədii-fəlsəfi traktatını tamamlamışdır. Əsər «İrşad» və «Tərəqqi» qəzetlərində hissə-hissə dərc edilmişdir.

Bakıda açılmış «Səadət» məktəbinə müdir təyin olunmuşdur. Burada həm də dil-ədəbiyyatdan dərs demişdir.

1909-cu il – «Tərəqqi» qəzetində «Yazımız, dilimiz, ikinci ilimiz» adlı məqaləsi verilmişdir. Mübahisə doğuran məqalənin müzakirəsində C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, F.Köçərli və başqaları iştirak etmişlər.

Bakıda ikən «Şeyxülislamın portreti» və «Bibiheybət məscidinin görünüşü» və s. rəsm əsərlərini çəkmişdir.

1910-cu il – Yenidən Azərbaycandan Türkiyəyə qayıtmışdır. Yolüstü Tiflisdə Cəlil Məmmədquluzadə ilə görüşərək ana dili və milli mətbuat üslubu barədə fikir mübadiləsi etmişdir (noyabr).

1911-ci il – İstanbulda ailə həyatı qurmuşdur. İstanbul Universitetində professor vəzifəsini tutmuşdur.

1912-ci il – Qızı Səidə dünyaya gəlmişdir. Məmmədəmin Rəsulzadə, Yusif Akçura, Əhmədbəy Ağayev və başqaları ilə birlikdə «Türk ocağı» dərnəyində çalışmışdır.

1913-cü il – «Hali-Vətən» şerini yazmışdır:

Ucundadır dilimin,
Həqiqətin böyüyü.
Nə qoydular söyləyim,
Nə kəsdilər dilimi.

Bilirsənmi cahillər,
Nə etdilər Vətənə?
Nə qoydular uyusun,
Nə qoydular oyana.

Durur belə hərəkət,
Rəvamı bir diriyə?
Nə getmədi irəli,
Nə dönmədi geriyə.

Düşman qırar qapıyı,
Biz evdə bixəbəriz.
Nə başqa başqalarız,
Nə ittihad edəriz.

Ayıltmadı qələmim,
Su Türk ilə Əcəmi
Na qoydular yazayım,
Nə qırdılar qələmi.

1914-cü il – İttihadçılardan ibarət «Turan heyəti»nin tərkibində Avropa ölkələrinə getmişdir. Oğlu Məmmədsəlim Turan dünyaya gəlmişdir.

1917-ci il – Stokholm Beynəlxalq Sosialist Konqresinə göndərilən nümayəndə heyətinin tərkibinə daxil edilmişdir.

1918-ci il – Qısa müddət Bakıda olmuşdur.

1921-ci il – Mustafa Kamal Atatürkün başçılığı ilə Türkiyə Respublikasının yaradılmasını alqışlamış, «Ona inan» şerini yazmışdır.

1926-cıü il – Bakıda çağırılmış Birinci Türkoloji qurultayda iştirak etmişdir (26 fevral-6 mart). Vağzalda nümayəndə heyəti ilə birlikdə çəkilmiş şəkli «Maarif və mədəniyyət» jurnalında dərc olunmuşdur. Qurultay iştirakçılarının şərəfinə təşkil edilmiş ziyafətdəki çıxışının mətni «Бакинский рабочий» qəzetində verilmişdir (7 mart). «Ədəbiyyat cəmiyyəti»ndəki çıxışı «Ədəbi parçalar» məcmuəsində (№1) dərc edilmişdir.

Çıxışında deyilirdi: «Bir gün küçədə bir uşaq gördüm. Topla oynayırdı. Topu yuxarı atdıqca top geri dönüb aşağı düşürdü. Lakin topu əvvəlcə yerə vurur, sonra top yuxarı qalxırdı.

Əsatirdən hekayəni xatırladım. Bir pəhləvan digər pəhləvanlarla güləşdikcə onlar bunun arxasını daim yerə vurur, amma onu yenə bilmirdilər. Həmin pəhləvanla güləşməyə... hazırlaşan yeni bir pəhləvan bu halın hikmətini bir filosofdan soruşdu. Filosof dedi ki, yer o pəhləvanın anasıdır. Arxası yerə gəldikcə o, yerdən qüvvət alır... Onu yenmək üçün ayaqlarını yerdən üzməli, sonra havaya qaldırıb, havada boğmalıdır. Həqiqətən, pəhləvanın ayağı yerdən kəsilincə tələf olub getdi.

...Ədəbiyyat da belədir. Xalqa enmədikcə yüksəlməz. Əvvəlcə xalqa, ümumiyyətlə böyük kütləyə qədər yenmək, sonra bunlarla bərabər yüksəlməyə çalışmaq lazımdır. Böyük ədiblər, böyük alimlər, filosoflar çoxluq içindən çıxa bilər. Yoxsa, tək-tük yüksəlməz!

1928-ci il – M.K.Atatürkə İzmir səfəri zamanı sui-qəsdə şübhəli bilinən şəxslər sırasında həbs olunmuş, az sonra günahsız olduğu aydınlaşmış və azad edilmişdir.

1929-1939-cu illər – Türkiyədə yaşamış, tədricən siyasətdən uzaqlaşmış, maarifçi və həkim kimi xidmət göstərmişdir.

1940-cı il – İstanbulda vəfat etmişdir (17 mart).

# ABBAS SƏHHƏT
# (1874-1918)



1874-cü il – Abbasqulu Molla Əliabbas oğlu Mehdizadə (A.Səhhət) Şamaxıda dünyaya gəlmişdir. Atası Molla Əliabbas mollaxanada məktəbdarlıqla məşğul olurdu. Anası Seyid Ruqiyyə mərsiyəxan idi.

1881-ci il – Məhəllə mollaxanasında təhsilə başlamışdır. Bir neçə il ərzində ərəb-fars dillərini, klassik Şərq və Azərbaycan ədəbiyyatını öyrənmişdir. Ədəbi istedada malik olan Hacı Cabbar Sabirdən dərs almışdır.

1894-cü il – Təhsilini davam etdirmək üçün Məşhədə getmişdir. Mirzə Cəfər mədrəsəsində oxumuşdur. İlin axırlarında Tehrana köçmüş, «Mədrəseyi-Nizamiyyeyi Nasiriyyə» universitetinin tibbi fakültəsinə daxil olmuşdur. 6 il burada təhsil almışdır. Fransız dilini öyrənmişdir.

1898-ci il – Tələbə ikən İranın qədim mədəniyyət mərkəzlərindən olan Şiraza getmişdir. Şeyx Sədi Şirazinin və Hafizin məzarlarını ziyarət etmiş, aldığı təəssürat əsasında «Şeyx Sədi» və «Xacə Hafiz» şerlərini yazmışdır.

1899-cu il – Dayısı Mir Ələkbərin qızı Səkinə xanımla ailə həyatı qurmuşdur. Xasiyyətləri uyğun gəlmədiyi üçün az keçməmiş ayrılmışdır.

1900-cü il – «Mədrəseyi-Nizamiyyeyi-Nasiriyyə» universitetinin tibb fakültəsini bitirmişdir. Tələbəlik illərində fransız şairi Lafontenin təmsillərini Azərbaycan dilinə tərcümə etmişdir.

1901-ci il – Bir məlumata görə ali təhsilli həkim kimi Qaşqay xanı Zərcamus Səltənənin təklifi ilə İranda qalıb, Şirzad Qaşqay tayfaları arasında işləmişdir. Başqa bir mülahizəyə əsasən Parisdə olmuş, İranlı bir xanın gözlərini müalicə etmişdir. Birinci variantda Qaşqay xanı ilə yola getmədiyi,

döyülüb təhqir edildiyi üçün Şamaxıya qayıtdığı mülahizə olunur. İkinci variantda isə hülaki nəslindən olan xanın müalicəsi başa çatdığına görə vətəninə dönməsi qeyd edilir. İranda qazanılmış diplomla Rusiyada həkimlik etməyə icazə verilmədiyindən bir müddət bekar qalmış, atasının və saatsazlıq edən qardaşı Məhəmməd Rzanın maddi köməyi ilə yaşamışdır.

M.Ə.Sabir və Məhəmməd Tərrahla tanış olmuşdur.

1902-ci il – Kasıb ailədən olan Soltan Nisə xanımla evlənmişdir.

1903-cü il – Köçərli ilə qiyabi şəkildə ünsiyyət yaratmışdır.

1904-cü il – Rus-yapon müharibəsinə həsr olunmuş ilk şeri «Şərqi-Rus» qəzetində (3 mart, №25) «Abbasqulu təbib Mehdiyev Şamaxılı» imzası ilə çap olunmuşdur.

1905-ci il – Abdulla Şaiqlə Şamaxıda tanış olmuş, «Dərya kənarı» şerini və Jan Romadan etdiyi tərcüməni ona göndərmişdir. «Təzə şer necə olmalıdır» adlı məqaləsi «Həyat» qəzetində dərc edilmişdir (23 fevral, №14).

1906-cı il – Şamaxı şəhər məktəbindən yeni açılmış realnı məktəbə dəyişilmiş, burada ana dili dərslərini tədris etmişdir. «Şamaxı zəlzələsi» şeri «Həyat» qəzetində (5 mart, №51), «Dəvət və nidayi-millət» şerləri «Rəhbər» jurnalında (№2-3), «Fəryadi-intibah», «Qəzet nədir» şerləri «Dəbistan» məcmuəsində (№15-16). «Ey Vətən, getmə ki, əldən gedəriz» şeri isə «İrşad» qəzetində dərc olunmuşdur.

1907-ci il – M.Ə.Sabirlə birlikdə Şamaxı qiraətxanasının açılışında yaxından iştirak etmişdir. Açılış mərasimində məruzəsi dinlənilmişdir. «Naleyi-təhəyyür, yaxud millətə xitab», «Dilbəri-hürriyyətə» şerləri «Rəhbər» jurnalında (17 yanvar, №5) dərc olunmuşdur.

«Türk əlifbası» dərsliyinə uşaq şerləri daxil edilmişdir.

1908-ci il – «Yaz», «Yay», «Payız çağında», «Qış» şerləri «İkinci il» dərsliyinə daxil edilmişdir. Ü.Hacıbəyovun Bakıda tamaşaya qoyulan «Leyli və Məcnun» operasının premyerasında iştirak etmişdir. Şamaxıda N.Vəzirovun «Adı var, özü yox»

əsərinin tamaşaya qoyulmasının rəhbəri və təşkilatçısı olmuşdur.

1909-cu il – Mahmudbəy Mahmudbəyovla birlikdə hazırlanmış «Yeni məktəb» dərsliyi Bakıda çapdan çıxmışdır. Orijinal şerləri və Lermontovdan tərcümə etdiyi «Mtsıri» poeması və digər tərcümələri dərsliyə salınmışdır. «Molla Nəsrəddin» jurnalında «Səhhətnamə» adlı məqalə verilmişdir (4 oktyabr, №40).

Yeganə övladı Ruqiyyə Soltan dünyaya gəlmişdir.

1910-cu il – «Müsəlman ürəfaları» və «Alimnümalar» şerləri «Zənbur» jurnalında (№13,18) dərc olunmuşdur.

1911-ci il – «Məlumat» qəzetində məslək qardaşı M.Ə.Sabirin vəfatı münasibətilə «Sabir, ey şairi-dühapərvər» və «Sabir» şerləri (№16,18), «Qara xəbər» adlı məqaləsi (19 iyul, №16) dərc olunmuşdur.

«Yeni İrşad» qəzeti «Sabir» sərlövhəli elmi əsərini çap etmişdir (23,31 avqust, 6 sentyabr, №2,4,7).

1912-ci il – İlk şerlər kitabı – «Sınıq saz» Bakıda Orucov qardaşlarının elektrik mətbəəsində çapdan çıxmışdır. Avropa, rus və Şərq ədəbiyyatından etdiyi tərcümələrdən tərtib olunmuş iki hissədən ibarət «Məğrib günəşləri» kitabı çap olunmuşdur. «Neft fontanı» və «Yoxsulluq eyb deyil» pyesləri kitab halında oxuculara çatdırılmışdır.

«Kəlniyyət» jurnalı satiralarını dərc etmişdir. M.Mahmudbəyovla birlikdə «Hophopnamə»nin nəşrinə nail olmuş, kitaba «Sabirin tərcümeyi-halı» adlı elmi əsərini daxil etmişdir.

1913-cü il – «Sabir» adlı yeni şeri «Məktəb» jurnalında dərc edilmişdir (№11). Stavropol yaylağında istirahət etmişdir. «Volqa səyahəti» romanını yazmışdır (itmişdir).

1914-cü il – «Məktəb» jurnalı «Vətən» şerini oxuculara çatdırmışdır (№2). «Əli və Aişə» romanını yazıb tamamlamışdır (itmişdir). «Bəradərim F.Köçərli cənablarına» mənzum məktubu «İqbal» qəzetində verilmişdir (3 mart, №592).

1915-ci il – «Açıq söz» qəzetində «Edadi məktəblərdə milli tərbiyə» məqaləsi (28 dekabr, №71), «Məktəb» jurnalında

Cərrahlıq (№6-7). «İqbal» qəzetində «Bədbəxt ailə» (№902) hekayələri dərc olunmuşdur.

1916-cı il – «Şair, şer pərisi və şəhərli» poeması «Açıq söz» qəzetində dərc edilmişdir (№228-231). «Sovqat» qəzeti «Nəğmə və musiqimizin məktəblərdə əhəmiyyəti» məqaləsini oxuculara çatdırmışdır (№53).

1917-ci il – «Açıq söz» qəzetində Rusiyadakı fevral – burjua inqilabından sonra Şamaxıdakı ictimai-siyasi vəziyyətə həsr olunmuş «Şamaxıdan» sərlövhəli 6 məqaləsi verilmişdir. «Sovqat» qəzeti «Millət məclisi» və «Üçüncü bir düşmən» məqalələrini dərc etmişdir. «Qaragünlü Həlimə» hekayəsi «Qardaş köməyi» jurnalında çapdan çıxmışdır.

1918-ci il – Ailə üzvləri və yaxın qohumları ilə Şamaxıdan Gəncə şəhərinə köçmüş, könüllü olaraq yatalaq epidemiyasına qarşı mübarizəyə qoşularaq, əhalinin bir hissəsinin həyatının xilaskarı olmuşdur. Nəhayət, özü də həmin xəstəliyə tutularaq Gəncədə vəfat etmişdir (iyul).

## ABDULLA ŞAİQ
## (1881-1959)



1881-ci il – Abdulla Molla Mustafa oğlu Talıbzadə (Şaiq) Tiflis şəhərində anadan olmuşdur (24 fevral). Molla Mustafa Süleyman oğlu Talıbzadə Tiflis şəhərində altısinifli Azərbaycan məktəbinin şəriət, ərəb və fars dili müəllimi vəzifəsində çalışmış, Zaqafqaziya şeyxülislamının müavini vəzifəsini daşımışdır.

1888-1893-cü il – Atasının dərs dediyi Tiflis müsəlman məktəbində oxumuşdur.

1893-cü il – Anası Mehri xanım və qardaşı Yusiflə birlikdə Xorasana gəlmişdir. Əvvəlcə mollaxanada, sonra buradakı «Yusif Ziya» məktəbində təhsilini davam etdirmişdir. Fars

dilində qəzəllər yazmış, İ.A.Krılovun «Sazandaları» təmsilini rus dilindən fars dilinə tərcümə etmişdir (1887). Bakıya gəlmiş, N.Nərimanovla görüşmüşdür (1900, payız).

1901-ci il – Bakıda üçüncü oğlan gimnaziyasında ekstern yolu ilə imtahan vermiş, ana dili müəllimi hüquqi qazanmış, 608 nömrəli şəhadətnamə almışdır (22 aprel). S.M.Qənizadənin müdirlik etdiyi rus-tatar məktəbində ana dilindən dərs demiş, məktəblərdə ehtiyat müəllimi vəzifəsini daşımışdır.

1902-ci il – Bakı altısinifli şəhər məktəbinin aşağı siniflərinə ana dili müəllimi təyin olunmuşdur.

1903-cü il – Şəhər məktəbi ilə yanaşı Sabunçu məktəbində də müəllimlik etmişdir. Atası Axund Mustafa 63 yaşında ikən Tiflisdə dünyadan köçmüşdür.

1904-cü il – İ.A.Krılovun «Sazandaları» təmsilini səhnələşdirib, məktəbdə tamaşa hazırlamışdır.

1905-ci il – Qafqaz Təhsil Dairəsinin əmri ilə Bakı progimnaziyasına ana dili müəllimi təyin olunmuşdur (29 oktyabrdan). «İki müztərib, yaxud əzab və vicdan» adlı mənzum romanını yazmağa başlamışdır. Şamaxıya getmiş, M.Ə.Sabirlə və A.Səhhətlə tanış olmuşdur. Bakıda M.Hadi ilə görüşmüşdür.

1906-cı il – «Ananın oğluna laylay deməsi» adlı ilk mətbu şeri «Dəbistan» jurnalında dərc olunmuşdur (№2). Azərbaycan müəllimlərinin birinci qurultayında iştirak etmişdir. 16 səhifədən ibarət «Uşaq çeşməyi» dərsliyini hazırlamışdır. Raziyə xanımla ailə həyatı qurmuşdur.

1907-ci il – Müəllimlərin ikinci qurultayının iştirakçısı olmuşdur. M.Mahmudbəyov, S.Əbdürrəhmanbəyzadə, S.S.Axundov, F.Ağazadə, A.Əfəndizadə ilə birlikdə «İkinci il» dərsliyinin yazılmasında iştirak etmişdir. M.Qorkinin «Fırtına quşu», «Şahin nəğməsi» hekayələrini Azərbaycvn dilinə tərcümə etmişdir.

1908-ci il – «İkinci il» dərsliyi çapdan çıxmışdır. «İyirminci əsrə xitab», «Yad et», «Hürriyyət pərisinə» şerləri qələmə alınmışdır. «Molla Nəsrəddin» jurnalı onun «Nişanlı qız» şerinə parodiya çap etmişdir. «Məktub yetişmədi» hekayəsi yazılmışdır.

1909-cu il – «Əsrimizin qəhrəmanları» romanını yazmağa başlamışdır.

1910-cu il – «Uşaq gözlüyü» və «Gülşəni-ədəbiyyat» dərslikləri çapdan çıxmışdır. «Köç» povesti tamamlanmışdır. «Gözəl bahar» mənzum pyesi yazılmışdır. Hüseyn Cavidlə tanış olmuşdur.

1911-ci il – «Şair və qadın» adlı mənzum pyesini qələmə almışdır. «Tıq-tıq» xanım, «Yaxşı arxa», «Tülkü həccə gedir» mənzum pyesləri çap edilmişdir. Həyat yoldaşı Raziyə xanım vəfat etmişdir (noyabr).

1912-ci il – «Bədbəxt ailə» romanı Bakıda nəşr olunmuşdur. «Gözəl bahar» pyesi və «Gülzar» dərsliyi çapdan çıxmışdır. «Məktəb» jurnalı «Dağlar sultanı» şerini oxuculara çatdırmışdır (№12).

1913-cü il – «Qafqaz çiçəyi» pyesi Azərbaycanda və Dağıstanda tamaşaya qoyulmuşdur. N.Vəzirovun anadan olmasının 60 illik yubiley tədbirlərinin iştirakçısı olmuşdur.

1914-cü il – «İdeal və insanlıq» poemasını yazmışdır. «Nicat» cəmiyyətinin tədbirlərində yaxından iştirak etmişdir.

1915-ci il – «İblisin hüzurunda», «Əsrimizə xitab» əsərləri meydana çıxmışdır. «Danışan kukla» adlı uşaq pyesini ruscadan təbdil etmişdir.

1916-cı il – Bakıda «Ölülər» tragikomediyasının ilk tamaşasında iştirak etmişdir (29 aprel). «İki familiyanın məhvi» poeması «Doğru söz» qəzetində dərc olunmuşdur (avqust-sentyabr).

1917-1920-ci illər – «Əsrimizin qəhrəmanları» romanını bitirmişdir. H.Cavidlə «Milli qiraət kitabı»nı, M.Mahmudbəyovla «Türk çələngi» dərsliyini tərtib etmişdir (1919).

Şahzadə xanım Mirzəbəyova ilə evlənmişdir (1920).

1921-ci il – Ali Pedaqoji İnstitutun yaradılmasında iştirak etmiş, burada Şərq ədəbiyyatından dərs demişdir. «Həqiqətə dair», «Yazıya pozu yoxdur» əsərləri «Tənqid-təbliğ» teatrında oynanılmışdır. «İkinci il» dərsliyi təkrar çap olunmuşdur.

1922-ci il – «Milli qiraət» kitabı çapdan çıxmışdır. Altunsaç adlı qızı vəfat etmişdir.

1923-cü il – Ali Pedaqoji İnstitutunun nəzdindəki məktəbə «Şaiq nümunə məktəbi» adı verilmişdir. Ədəbi-pedaqoji fəaliyyətinin 20 illik yubileyi keçirilmişdir (dekabr). Oğlu Kamal Talıbzadə dünyaya gəlmişdir.

1924-cü il – «Qiraət kitabı» və «İkinci il» adlı dərslikləri yenidən işlənərək çap olunmuşdur.

1925-ci il – «Qiraət kitabı» yeni türk əlifbası komissiyası tərəfindən çapdan buraxılmışdır.

1926-cı il – Müəlliflər kollektivi ilə birlikdə «Türk dili və ədəbiyyatı» proqramını hazırlamışdır. «Ədəbi parçalar» məcmuəsində «M.P.Vaqif» məqaləsi verilmişdir.

1927-ci il – «İldırım» pyesi kitab halında çap olunmuşdur. «Qarakilis xatirəsi» əsəri yazılmışdır. «1905-ci il inqilabından sonra yetişmiş ədəbiyyatımıza bir nəzər» adlı irihəcmli məqaləsi «Maarif işçisi» jurnalında dərc edilmişdir.

1928-ci il – H.Zeynallı, A.Musaxanlı və C.Əfəndizadə ilə hazırladığı «Ədəbiyyatdan iş kitabı»nın birinci kitabı çapdan çıxmışdır. «Əsəbi adəm», «Əzim dayı» hekayələri və silsilə uşaq şerləri yazılmışdır.

1929-ci il – Azərbaycan yazıçılarının Gürcüstan və Ermənistana gedən nümayəndə heyətinin tərkibində olmuşdur.

1930-cu il – Müəlliflər kollektivi (Bünyadov, Şamilov, Veysov) ilə birlikdə hazırladığı «Dördüncü il» dərsliyi nəşr edilmişdir.

1931-1932-ci illər – Şuşa pedaqoji texnikumunda müəllim işləmişdir. Anası Mehri xanım vəfat etmişdir (1932).

1933-cü il – Bakıya qayıtmışdır. Firdovsinin anadan olmasının 800 illiyi münasibətilə «Şahnamə»dən «Məzdək və Qubad» hissəsini Azərbaycan dilinə tərcümə etmişdir.

1934-cü il – «Cocuq şerləri», «Oyunçu bağlar» kitabları oxuculara çatdırılmışdır. Xəstəliyinə görə Azərbaycan Sənaye İnstitutundan çıxmışdır. «Azərnəşr»in uşaq ədəbiyyatı şöbəsində işə başlamışdır.

1935-ci il – SSRİ Yazıçılar İttifaqının üzvlüyünə daxil olmuşdur. Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 15

illiyinə həsr edilmiş müsabiqədə «Xasay» povesti mükafata layiq görülmüşdür.

1936-cı il – Azərbaycan dilində «Seçilmiş əsərləri», rus dilində «Hekayələr» kitabı çapdan buraxılmışdır. N.Gəncəvinin «İsgəndərnamə» əsərinin tərcüməsi ilə məşğul olmuşdur. «Tapdıq dədə» poeması tamamlanmışdır. APİ-də saathesabı ilə Şərq ədəbiyyatından dərs demişdir.

1937-ci il – «Araz» romanını bitirmişdir. «Qoçpolad» poeması yazılmışdır.

1938-ci il – Nizaminin anadan olmasının 800 illik yubileyi komissiyasına üzv seçilmişdir. «Ovçu Məstan» poemasını bitirmişdir.

1939-cu il – Gənc tamaşaçılar teatrının ədəbi hissə müdiri olmuşdur. «Eloğlu» pyesini yazmışdır.

1940-cı il – Moskvada Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə iştirak etmişdir (15-25 may), «Eloğlu» tamaşası Gənc Tamaşaçılar Teatrında göstərilmişdir (12 sentyabr). «Nüşabə» operasının librettosunu təhvil vermişdir.

Oğlu Kamal Talıbzadə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuşdur.

1941-1943-cü illər – Böyük Vətən müharibəsi ilə əlaqədar olaraq səfərbərlik ruhlu şerlər və məqalələr yazmışdır. «Vətən» dramını bitirmiş (1941), əsər Gənc Tamaşaçılar teatrında səhnəyə çıxarılmışdır (6 oktyabr 1942).

1944-cü il – İ.A.Krılovun anadan olmasının 100 illik yubileyi münasibətilə tərcümə müsabiqəsində birinci və üçüncü mükafatlara layiq görülmüşdür. A.Səhhətin anadan olmasının 70 illik yubileyində çıxış etmişdir.

1945-ci il – Böyük Vətən müharibəsinin qələbəsinə həsr olunmuş «Zəfər müjdəsi», «Zəfər nəğməsi» şerlərini yazmışdır. «Ana» pyesi tamaşaya qoyulmuşdur. K.Talıbzadə Azərbaycan Dövlət Universitetini bitirmişdir.

1946-cı il – SSRİ Ali Sovetinə deputat seçilmişdir (5 yanvar). Lenin ordeni ilə təltif olunmuşdur (25 fevral). «Nüşabə» dramı M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur (25 iyun).

1947-ci il – N.Gəncəvinin 800 illiyində yubiley komissiyasının üzvü və tərcüməçi kimi iştirak etmişdir (21 sentyabr). «Fitnə» pyesi Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulmuşdur (23 sentyabr).

1948-ci il – S.S.Axundovun «Qaraca qız» hekayəsini səhnələşdirmişdir. «Seçilmiş əsərləri» və «Qoçpolad» əsəri çapdan çıxmışdır.

1949-cu il – Azərbaycan Mədəni Əlaqələr cəmiyyətində baş referent işləmişdir. «Qaraca qız» pyesi tamaşaya qoyulmuşdur.

1950-ci il – C.Cabbarlının anadan olmasının 50 illik yubileyində çıxış etmişdir (10 yanvar). «Timsah ovu» hekayəsi «Pioner» jurnalında dərc olunmuşdur (№9).

1951-ci il – Anadan olmasının 70 illik yubileyi qeyd edilmişdir. «Qoşqar» pyesi yazılmışdır.

1952-ci il – Təqaüdə çıxmışdır. «Araz» romanı üzərində yenidən işləyib, əsəri təkmilləşdirmişdir.

1953-cü il – Gənc Tamaşaçılar Teatrının 25 illik yubileyində iştirak etmişdir (17 fevral). «Köhnə dünya» adlı xatirələrini yazmağa başlamışdır.

1954-cü il – «Xatirələr» «Azərbaycan» jurnalında dərc olunmuşdur.

1956-cı il – SSRİ Ali Sovetinin deputatı seçilmiş, anadan olmasının 75 illik yubileyi keçirilmiş, «Qırmızı əmək bayrağı» ordeni ilə təltif olunmuşdur. «Qabaqcıl maarif xadimi» fəxri adı alınışdır.

1957-ci il – Üç cildlik «Seçilmiş əsərlər»inin birinci cildi çapdan çıxmışdır.

1958-ci il – «Bir saatlıq xəlifəlik» dramı Gənc Tammaşaçılar Teatrında tamaşaya qoyulmuşdur (7 iyul). Jeleznovodskdə müalicə olunmuşdur.

1959-cu il – Bakıda vəfat etmişdir (24 iyul). Fəxri xiyabanda dəfn edilmişdir.

# CƏFƏR CABBARLI
# (1899-1934)



1899-cu il – Bakı qubemiyasının Xızı kəndində anadan olmuşdur.

Atası Qafar kişi kömürçü, anası Şahbikə xanım evdar qadın idi. Ailə XX əsrin əvvəllərində Bakının Dağlı məhəllәsinə köçmüşdür.

1905-1907-ci illər – Mollaxana məktəbində oxumuşdur.

1908-1912-ci illər – Bakı şəhərindəki yeddinci rus-tatar məktəbində təhsil alınışdır.

1913-1915-ci illər – Bakıda Alekseyev adına üçüncü Ali ibtidai məktəbdə orta təhsilini tamamlamışdır.

Bədii yaradıcılığa başlamışdır.

1915-ci il – Bakı Sənaye Texnikumunun elektrik-mexanika şöbəsinə daxil olmuşdur. Eyni zamanda, Bakıda Əbdürrəhim adlı bir baqqalın dükanında hesabdar vəzifəsində çalışmışdır.

C.Cabbarlının ilk mətbu əsəri olan «Bahar» şeri «Məktəb» jurnalında dərc olunmuşdur (3 aprel 1915).

«Qurtuluş» jurnalının gənc yazıçılar üçün elan etdiyi müsabiqədə «Qürub çağı bir yetim» adlı şerinə görə C.Cabbarlı birinci yeri tutmuşdur.

İlk dram əsəri olan «Vəfalı Səriyyə və yaxud göz yaşı içərisində gülüş» əsərini yazmışdır.

1916-cı il – Bakı Sənaye Texnikumunu bitirmişdir.

«Nəsrəddin şah» tarixi pyesini, «Aslan və Fərhad», «Mənsur və Sitarə» hekayələrini, «Sitarə» adlı opera mətnini yazıb tamamlamışdır. «Babayi-əmir» jurnalında bir neçə şeri dərc olunmuşdur.

1917-ci il – «Solğun çiçəklər» pyesini yazmışdır. «Novruz bayramına hazırlaşan müsəlmanlara töhfə» şeri «Bəsirət» qəzetində dərc olunmuşdur.

1918-ci il – Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi mətbuat orqanı olan «Azərbaycan» qəzeti redaksiyasında çalışmış, Musavat partiyasının üzvü olmuşdur.

«Ulduz və Trablis müharibəsi», «Bakı faciəsi», «Ədirnə fəthi» faciələrini yazıb tamamlamış, bu əsər həmin illərdə Bakıda tamaşaya qoyulmuşdur.

Natamam «Kazım bəy» povesti qələmə alınmışdır.

1919-cu il – «Aydın» pyesi yazılmışdır.

«Azərbaycan» qəzetində və Musavat partiyasında fəaliyyətini davam etdirmişdir.

1920-ci il – C.Cabbarlı may ayından etibarən «Azərbaycan müvəqqəti inqilab komitəsinin əxbarı» və «Kommunist» qəzetində ədəbi işçi və tərcüməçi kimi çalışmışdır.

Yarımçıq qalmış «İncə» pyesi üzərində iş aparmışdır.

1921-ci il – Azərbaycan Dövlət Universitetinin tibb fakültəsində cəmi bir il oxumuşdur.

1922-1923-cü il – «Oqtay Eloğlu» romantik dramı yazılmış və Bakıda tamaşaya qoyulmuşdur.

«Araz çayı» mənzum faciəsi qələmə alınmışdır.

«Ana», «Məhkum Şərqə» şerləri qələmə alınmışdır.

«Qız qalası» romantik əfsanəvi poemasını bitirmiş, hissə-hissə çap etdirməyə başlamışdır.

C.Cabbarlı Bakı Teatr Texnikumunda mühazirələri dinləmişdir.

Sona xanım Cabbarlı ilə ailə həyatı qurmuşdur (1922).

1924-cü il – Azərbaycan Dövlət Universitetinin şərq fakültəsində təhsil almışdır. «Azərbaycan ədəbiyyatının son vəziyyəti» məqaləsi yazılmışdır.

1925-ci il – Şekspirin «hamlet» faciəsini Azərbaycan dilinə çevirmişdir. Əsərdəki ingilis adları Azərbaycan adları ilə əvəz olunmuşdur.

«Azərbaycan teatr məktəbi» məqaləsini qələmə almışdır.

1926-cı il – «Hamlet» faciəsi görkəmli rejissor A.Tuqanov tərəfindən Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur.

1927-ci il – «Dilbər» hekayəsi çap olunmuşdur.

1928-ci il – Lev Tolstoyun «Uşaqlıq» povestini, Maksim Qorkinin «Üzügülər» hekayəsini tərcümə və çap etdirmişdir.

«Molla Nəsrəddin» jurnalında satirik şerləri oxuculara çatdırılmışdır.

«Od gəlini» tarixi romantik dramı və «Sevil» dramı yazılmışdır.

Hər iki əsər səhnədə uğurla nümayiş etdirilmişdir.

«Hacı qara» ssenarisini yazmışdır.

1929-cu il – C.Cabbarlı Zaqafqaziya xalqlarının mədəni birliyi tədbirlərində iştirak etmişdir.

1930-cu il – C.Cabbarlı Azərbaycan Dövlət Dram Teatrında ədəbi hissə müdiri və quruluşcu rejissor kimi fəaliyyətə başlamışdır.

«Almaz» pyesi tamamlanmışdır.

1931-ci il – Akademik Dram Teatrda «Almaz» pyesi C.Cabbarlının rejissorluğu ilə tamaşaya qoyulmuşdur (13 aprel). Almaz rolunda Mərziyə Davıdova, Hacı Əhməd rolunda Rza Təhmasib, Mirzə Səməndər rolunda Mirzağa Əliyev oynamışlar.

1932-ci il – C.Cabbarlı V.Şekspirin «Otello» tragikomediyasını Azərbaycan dilinə tərcümə etmişdir.

«Dönüş» pyesi tamamlanmışdır. C.Cabbarlı bu pyesi özünün «Şah əsəri» adlandırmışdır. Əsərin bir neçə tamaşası qoyulmuşdur.

«Yaşar» pyesi yazılmış və tamaşaya qoyulmuşdur.

1933-cü il – R.M.Qliyerin «Şahsənəm» operettasının librettosunu C.Cabbarlı yazmışdır. Bu librettoya görə ona Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin fəxri fərmanı verilmişdir.

Cəlil Məmmədquluzadənin «Ölülər» əsəri əsasında kinossenari yazmış, «Almaz» pyesi üzrə film çəkmək üçün hazırlıq işləri aparmışdır.

1934-cü il – C.Cabbarlı Sovet yazıçılarının Moskvada çağırılmış birinci qurultayında nümayəndə kimi iştirak etmişdir (17 avqust).

«Əfqanıstan» adlı pyes üzərində yaradıcılıq işi aparmışdır.

«Pravda» qəzeti üçün «Bakı» adlı oçerki («Firuzə» hekayəsini) yazmışdır.

C.Cabbarlı ürək xəstəliyindən vəfat etmişdir (31 dekabr). Fəxri xiyabanda dəfn olunmuşdur.

## ƏHMƏD CAVAD
## (1892-1937)

1892-ci il – Əhməd Məhəmmədəli oğlu Axundzadə (Əhməd Cavad) Gəncə qəzasının Şəmkir nahiyyəsinin Seyfəli kəndində anadan olmuşdur (5 may).

1899-1900-cü illər – Mollaxana məktəbində oxumuşdur. Atası Məhəmmədəli kişi vəfat etmişdir (1900).

1901-1905-ci illər – Gəncə şəhərində Cəmiyyəti-xeyriyyə məktəbində təhsil almışdır.

1906-1912-ci illər – Gəncə Müsəlman Ruhani Seminariyasında təhsilini tamamlamış, ərəb-fars dillərini və Şərq ədəbiyyatını dərindən öyrənmişdir. Hüseyn Cavid və Abdulla Sur kimi müəllimlərdən dərs almışdır. Abdulla Surun vəfatı münasibətilə yazdığı şeri dəfn mərasimində oxumuşdur.

Şer yaradıcılığına başlamış, qısa vaxtda ədəbi mühitdə istedadlı cavan şair kimi tanınmışdır.

1913-cü il – Qafqaz şeyxulislamı Məhəmməd Pişnamazzadəyə imtahan verib müəllimlik şəhadətnaməsini almışdır.

1914-1915-ci illər – Əhməd Cavadın «Çırpınırdı Qara dəniz» adlı şeri yazılmışdır (1914). Bu şerə Türkiyədə musiqi bəstələnmişdir.

Doktor Xosrov bəy Sultanovun təşkil etdiyi Gəncə «Cəmiyyəti-xeyriyyə»sinin sədr müavini vəzifəsinə seçilmişdir. Bu cəmiyyətin xətti ilə Şimali Qafqazda, Türkiyənin Qars, Ərdəhan, Ərzurum vilayətlərində və İstanbulda ön cəbhədə xeyriyyəçilik və jurnalistik fəaliyyəti ilə məşğul olmuşdur.

1916-cı il – İlk şer məcmuəsi olan «Qoşma» adlı kitabı çapdan çıxmışdır.

1917-ci il – Pedaqoji fəaliyyətlə və bədii-publisistik fəaliyyəti ilə məşğul olmuşdur.

1918-ci il – Azərbaycan Xalq Cümhuriyyətinin ictimai-mədəni tədbirlərində yaxından iştirak etmişdir.

1919-cu il – Azərbaycan Dövlət himninin sözlərini yazmışdır (Musiqisi Üzeyir Hacıbəylinindir).

## MİLLİ MARŞ

Azərbaycan, Azərbaycan!
Ey qəhrəman övladın
Şanlı Vətəni!
Səndən ötrü can verməyə
Cümlə hazırız!
Səndən ötrü qan tökməyə
Cümlə qadiriz!
Üçrəngli bayrağınla
Məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu.
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!
Sən olasan gülüstan!
Sənə hər an can qurban!
Sənə bir çox məhəbbət
Sinəmdə tutmuş məkan!
Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən, Şanlı Vətən,
Azərbaycan, Azərbaycan!

«Dalğa» adlı ikinci şer kitabı və «Türk dilinin sərf və nəhvi» dərsliyi Bakıda nəşr olunmuşdur.

Azərbaycan Demokratik Cümhuriyyətinin nümayəndə heyətinin tərkibində Türkiyədə olmuşdur.

1920-ci il – Quba rayonunun Xuluq kənd məktəbində müəllim kimi çalışmışdır.

1921-1922-ci illər – Quba rayonu xalq maarif şöbəsinin müdiri vəzifəsində işləmişdir.

1922-1927-ci illər – Azərbaycan Ali Pedaqoji İnstitutunun tarix-filologiya fakültəsində ali təhsil almışdır. Eyni zamanda, N.Nərimanov adına texnikumda müəllimlik etmişdir (1923-cü ildən).

Siyasi fəaliyyətinə və «Göy-göl» şerinə görə həbs cəzası almışdır (1923-1924-cü il).

Ali məktəbi bitirmiş, Bakıdakı Zaqafqaziya Pambıqçılıq İnstitutuna müəllim təyin olunmuşdur (1927).

1928-ci il – Türkiyədəki «İstiqlal» məcmuəsində şerləri çap edilmiş, buna görə qısamüddətli həbs cəzası almışdır.

«Hind gözəli» dramını yazmışdır.

1930-1933-cü illər – Gəncədə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda müəllim, dosent, kafedra müdiri vəzifələrində çalışmışdır. Professor elmi adı almışdır (1933). Eyni zamanda, Gəncə Dram Teatrında ədəbi hissə müdiri vəzifəsini yerinə yetirmişdir.

«Kar» poemasını və «Pambıq dastanı» əsərlərini yazmışdır.

1934-cü il – Azərbaycan Dövlət Nəşriyyatının tərcümə şöbəsində redaktor vəzifəsini tutmuşdur. «Gürcüstan» poeması tamamlanmışdır.

Azərbaycan Yazıçılar İttifaqının üzvlüyünə seçilmişdir.

1935-1936-cı illər – «Azərbaycanfilm» studiyasında sənədli filmlər şöbəsinin müdiri vəzifəsində çalışmışdır. «Moskva» poeması yazılmışdır.

1937-ci il – Məşhur gürcü şairi Şota Rustavelinin «Pələng dərisi geymiş pəhləvan» poemasının tərcümə müsabiqəsində birinci yeri qazanmışdır. A.S.Puşkinin və M.Y.Lermontovun əsərlərini Azərbaycan dilinə çevirmişdir.

Repressiya təqiblərinə məruz qalmış, «xalq düşməni» kimi Azərbaycan Yazıçılar İttifaqının üzvlüyündən xaric

edilmişdir (21 mart). Həbs olunmuşdur (may). Güllələnmişdir (12 oktyabr).

1955-ci il – Əhməd Cavada «işində cinayət tərkibi olmadığı üçün» bəraət verilmişdir.

Bakıda «Şerlər»i (1958), «Seçilmiş əsərləri» (2 cilddə) çap olunmuşdur. İkicildliyin tərtibçisi Əli Saləddindir.

Tərcümə etdiyi Fransua Rablenin «Qarqantua və Pantaqrıel» (1961), Vilyam Şekspirin «Romeo və Cülyetta» əsərləri kitab halında çapdan buraxılmışdır.

# DÖRDÜNCÜ BÖLMƏ

## SENTİMENTALİZM

### ABDULLABƏY DİVANBƏYOĞLU
### (1883-1936)



1883-cü il – Abdulla bəy Vəli oğlu Sübhanverdixanov (Divanbəyoğlu) Qazax qəzasının Hüseynbəyli kəndində anadan olmuşdur. Atası Vəli ağa Abdulla oğlu ortabab təbəqəyə məxsus bəy idi. Anası Hənifə xanım Molla Əhməd qızı nəcib xasiyyətli qadın olmuşdur.

1892-1898-ci illər – Qazax qəza məktəbində təhsil almışdır.

1898-ci il – Zaqafqaziya (Qori) müəllimlər seminariyasının Azərbaycan şöbəsinin aşağı hazırlıq kursuna daxil olmuşdur.

1901-ci il – Seminariyanın birinci əsas sinfində təhsilini davam etdirmişdir. «Köçəri həyatından müşahidələr» adlı xatirə dəftərini yazmışdır.

1902-ci il – Tələbə ikən «Əbdül və Şahzadə» povestini bitirmişdir. Əsər ilk variantda rus dilində qələmə alınmışdır. «Can yanğısı» povesti üzərində işləmişdir.

1903-cü il – Seminariyanı bitirmək ərəfəsində «Yeni məktəb» adlı elmi xarakterli buraxılış işi yazmış, lakin yeni təyin edilmiş direktor M.Miropyevə etiraz əlaməti olaraq keçirilən tətilin təşkilatçılarından olduğu güman edildiyi üçün komissiya qarşısında məruzə etməkdən məhrum edilmişdir. Əsərdə Avropa və Rusiyadakı yeni tipli məktəblərdən bəhs olunur.

A.Divanbəyoğlu seminariyanı bitirmişdir (iyun). Acarıstan vilayətinin Qaradağlı Canyam məktəbinə təyinat almışdır. 5 aya yaxın burada çalışmışdır. Batumi vilayətinin Xertivissi ibtidai

məktəbinə müdir təyin edilmişdir (20 oktyabr). «Can yanğısı» povestini bitirmişdir.

1904-cü il – Bakıya dəyişilmiş, VI rus-tatar məktəbində pedaqoji fəaliyyətə başlamışdır.

«Şərqi-Rus» qəzetində «Bizim məscidlər barəsində» adlı məqaləsi dərc olunmuşdur (12 iyul). «Duman» hekayəsini bitirmişdir.

1905-ci il – Bakıda altısinifli ikinci dərəcəli şəhər məktəbinə müəllim vəzifəsinə keçirilmişdir.

1906-cı il – «Dəbistan» jurnalında «İlan» (№7) və «Fəhlə» (16) hekayələri çapdan çıxmışdır. «Nicat» maarif cəmiyyətinin üzvlüyünə daxil olmuşdur.

1907-1909-cu illər – Pedaqoji fəaliyyətini davam etdirmişdir.

1910-cu il – «Nəşri-maarif» cəmiyyətinin üzvü kimi geniş iş aparmışdır. «Can yanğısı» əsərini hissə-hissə «Həqiqət» qəzetində dərc etdirmişdir. «Cəng» povestini tamamlamışdır. Əsərin bir hissəsi «Günəş» qəzetində çap olunmuşdur.

1911-ci il – «Cəng» povestinin qalan hissələri, «Yeni həqiqət» qəzetində dərc edilmişdir. «Parlaq ulduz» hekayəsini yazmışdır. «Hophopnamə»nin nəşri üçün ianə vermişdir.

1912-ci il – «Parlaq ulduz» hekayəsi «Haqq yolu» jurnalında çap olunmuşdur. Bakıda ibtidai məktəb müəllimləri hazırlayan ikiillik pedaqoji kursun yaradılmasının təşkilatçılarından olmuşdur.

1913-cü il – «Can yanğısı» kitab halında çapdan çıxmışdır.

1914-cü il – N.Nərimanovun Bakıda təşkil etdiyi Ədəbiyyat dərnəyinin fəal üzvlərindən biri olmuş, burada ədəbiyyatın vəzifələri barədə məruzə oxumuşdur.

1916-cı il – Bakıda təşkil olunmuş yeni ikinci dərəcəli şəhər məktəbinə müəllim dəvət olunmuşdur.

1918-1919-cu illər – Musavat partiyasının üzvlüyünə daxil olmuşdur. Azərbaycan Demokratik Respublikasının Daxili İşlər Nazirliyində tərcüməçi vəzifəsində çalışmışdır.

1920-ci il – Azərbaycan Sovet Respublikasının Xarici İşlər Nazirliyində işə düzəlmiş, N.Nərimanova ərizə ilə

müraciət edərək maarif sahəsində işləmək arzusunda olduğunu bildirmişdir. İndiki Zeynalabdin Tağıyev adına toxuculuq fabrikində məktəb açmışdır (19 oktyabr). Azərbaycan Maarif Komissarlığında işə qəbul edilmişdir.

1921-1922-ci illər – Maarif Komissarlığının məsul işçisi kimi Gəncə, Şəmkir, Salyan və Quba rayonlarında maarif işinin təşkilində iştirak etmiş, dərslik komissiyasının üzvü olmuşdur. Zaqafqaziya hərbi məktəbində tarix, coğrafiya və fizika dərslərini tədris etmişdir.

1923-cü il – ADU-nun tarix fakültəsində şərqşünaslıq şöbəsinin dinləyicisi olmuşdur.

1924-cü il – Universitetin şərqşünaslıq şöbəsinin əsas tələbələri sırasına keçirilmişdir. Tələbə ikən həm də tibb fakültəsində Azərbaycan dili dərslərini demişdir. Eyni zamanda, Azərbaycan Elmi-tədqiqat İnstitutunda tarix şöbəsminin elmi katibi vəzifəsində işləmişdir.

1925-ci il – Azərbaycan Dövlət Arxivinin müdiri vəzifəsinə təyin olunmuşdur. Bir il bu vəzifədə çalışmışdır.

1926-cı il – Universitetdə təhsilini davam etdirməklə yanaşı, Ali Pedaqoji İnstitutda müəllim vəzifəsini daşımışdır. İnstitutun nəzdindəki pedaqoji texnikumun müdiri vəzifəsində işləmişdir. Azərbaycanı Öyrənmə Cəmiyyətinin tarix-etnoqrafiya, türkologiya, məntiq və dilçilik bölməsinin, folklor və arxeologiya komissiyasının işində iştirak etmişdir.

«Can yanğısı» povesti kitab halında çapdan çıxmışdır. «Elmi-heyvanat» («Zoologiya») dərsliyini yazmışdır.

1927-ci il – «Müctəhid-feodal Ağa Mir Fəttah» mövzusunda diplom işi müdafiə edərək universiteti bitirmişdir. Diplom işində Türkmənçay müqaviləsi (1828) ilə bağlı hadisələrdən bəhs edilir.

«Azərbaycanı öyrənmə yolu» jurnalında «Folklor materiallarının təsnifi» məqaləsi dərc olunmuşdur.

1928-1929-cu illər – A.Şaiq adına Nümunəvi Pedaqoji Texnikumun müdiri vəzifəsində çalışmışdır. «Azərbaycanı öyrənmə yolu» məcmuəsində «Müctəhid-feodal Ağa Mir Fəttah» adlı elmi əsəri çap edilmişdir.

1930-cu il – Nümunəvi Pedaqoji Texnikumun müdiri vəzifəsindən azad olunmuşdur. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda Azərbaycan dili müəllimi işləmişdir.

«Azərbaycanı öyrənmə yolu» məcmuəsində «Şəki xanlarının tarixi və onların nəsilləri» adlı elmi əsəri dərc edilmişdir.

1931-1934-cü illər – Azərbaycan Neft İnstitutunda rus dili müəllimi vəzifəsində çalışmışdır.

«Türksistemli kəndlərdə totemizm», «Məcnunun Leyliyə məhəbbəti» adlı elmi əsərlərini yazmışdır.

1935-ci il – Azərbaycan Neft İnstitutunda rus dili kafedrasının dosenti vəzifəsinə irəli çəkilmişdir.

1936-cı il – A.Divanbəyoğlu Bakıda vəfat etmişdir (yanvar).

## ƏLƏKBƏR QƏRİB NAXÇIVANLI
## (Abbasov Ələkbər Tağı oğlu)

Təxminən 1893-1894-cü il – Naxçıvan şəhərində sənətkarlıq və xırda ticarətlə məşğul olan, farmasyon təriqətinin fəal üzvlərindən sayılan Kərbəlayı Tağının ailəsində dünyaya gəlmişdir. Məhəmmədhüseyn və Rza Təhmasiblərlə, Nəsrulla Şeyxovla yaxın qohum olub.

XX əsrin əvvəlləri – Əsası M.T.Sidqi tərəfindən qoyulan «Məktəbi-tərbiyə»də təhsil almışdır.

1908-1913-cü illər – Qori seminariyasında təhsil alıb. Seminariyanı bitirdikdən sonra bir müddət pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

1910-cu il – Tiflisdə «Zakavkaziye» qəzetində «Ученица» (Məktəbli qız) hekayəsi «Alekper Abbasov» imzasıyla dərc olunub (8 aprel 1910, №79).

1912-ci il – Bakıda Orucov qardaşlarının mətbəəsində «Qəlbimin sultanı» povesti kitab halında nəşr olunub. 68 səhifəlik bu kitabın sonunda əsərin 1912-ci ilin avqustunda Qoridə tamamlandığı göstərilir. Əsərdə azərbaycanlı tələbə

oğlanla rus qızı Rozaliyanın məhəbbəti sentimental tərzdə təqdim olunub. Tənqidçi Seyid Hüseyn (Kazımoğlu) bu əsəri qeyri-realist sayaraq tənqid edib (Bax: Kazımoğlu. «Məhkəmələr qapısında tökülən qanlı yaşlarımız», «İqbal» 25-27 avqust 1914).

1913-cü il – Rus sentimentalisti N.M.Karamzinin «Bədbəxt Liza» povestini Azərbaycan dilinə tərcümə edib. Əsər «Məktəb» jurnalının vəsaiti ilə ayrıca kitabça halında nəşr olunub. Jurnal həmin kitabı abunəçilərinə pulsuz göndərib. Bu barədə jurnalda məlumat verilib (7 dekabr 1913, №19).

1914-cü il – Bakıda Orucov qardaşlarının mətbəəsində «Haqq divanı» hekayələr kitabı çap olunub. Kitabda «Haqq divanı», «Faciə», «Uşaq divanı» hekayələri toplanmışdır. İlk hekayə S.M.Qənizadənin rus yazıçısı A.F.Poqosskidən (1810-1874) iqtibas etdiyi «Allah divanı» hekayəsi ilə ruhən səsləşir. S.M.Qənizadədə olduğu kimi, burada da «Hər yerdə olsa, əlbəttə, qanlını qan tutar» (M.Füzuli) epiqrafı vardır. Bu hekayənin əvvəlində Ə.Qəribin «Bəradərim Xəlil ağa Hacılarova hədiyyədir» qeydi var. X.Hacılarov (1895-1970) Ə.Qəribin seminariya dostlarından idi.

1915-1916-cı illər – Doktor Xosrov bəy Sultanovun rəhbərliyi altında «Cəmiyyəti-xeyriyyə» xətti ilə Ərdəhan, Batum və s. şəhərlərdə olub, türk qaçqınlarına yardım hərəkatında iştirak edib (Ə.Cavad, Ə.Səbri və digər ziyalılarla bir sırada).

1917-1923-cü illər – Naxçıvanda yaşayıb fəaliyyət göstərmiş, tarixi-etnoqrafik, ədəbi-bədii yazılarla mətbuatda çıxış etmişdir.

1923-1927-ci illər – Tiflisdə yaşayıb fəaliyyət göstərmiş, «Yeni fikir», «Dan ulduzu», «Qızıl şəfəq» və s. mətbuat orqanlarında ədəbiyyat, mədəniyyət məsələlərinə dair çoxsaylı məqalələr dərc etdirmiş, «Yeni fikir» qəzetində dərc olunan «Tənqid və tənqidçilərimiz» (2 fevral 1926) məqaləsi geniş əkssəda oyatmışdır. «Yeni fikir» qəzeti redaksiyası nəzdində B.Talıbovun rəhbərlik etdiyi ədəbiyyat dərnəyində R.Nəcəfov,

E.Sultanov və başqaları ilə bir sırada iştirak etmişdir. Qısa bir müddət «Qızıl şəfəq»in redaktoru olmuşdur.

1926-cı ilin mayında Tiflisdə nəşrə başlayan «Dan ulduzu» jurnalının ilk yeddi sayı Ə.Qəribin məsul redaktorluğu ilə çıxmış, səkkizinci saydan «heyəti təhririyyə» təyin olunur, Ə.Qərib də bu heyətin üzvü olur.

Ə.Qərib həmin vaxt Mirzə Davud Rəsulzadənin sədrliyi ilə fəaliyyət göstərən «Yeni əlifba dostları cəmiyyəti»nin işində də yaxından iştirak etmişdir.

1928-ci il – Fəaliyyətini Bakıda davam etdirir.

1929-cu il – M.Y.Lermontovun «Zəmanəmizin qəhrəmanı» əsəri Ə.Qəribin tərcüməsində kitab halında nəşr olunmuşdur. Ədəbiyyatşünas Məmməd Arif bu tərcümə barədə «İnqilab və mədəniyyət» jurnalında «Fira» imzasıyla eyniadlı resenziya çap etdirmişdir (1929, №5, səh.43-44).

1929-cu il – Rus yazıçısı N.N.Lyaşkonun «Domna ocağı» əsərini dilimizə çevirərək çap etdirir. Bu tərcümə barədə M.Rəfili «Jurnalist» imzasıyla resenziya yazmışdır. («İnqilab və mədəniyyət», 1929, №10, səh.48). Elə həmin il Bakıya gələn N.N.Lyaşko ilə şəxsən görüşmüşdür.

1929-cu il – Əziz Şəriflə birlikdə Maksim Qorkinin «Ana» romanının tərcüməsində müəyyən qədər iştirak etmişdir.

1929-1930-cu illər – Bir sıra digər əsərləri tərcümə edir: V.Şekspir «Romeo və Cülyetta», «Otello», F.Şiller «Qaçaqlar», «Məkr və məhəbbət» və s. (bu barədə bax: «Tərcümə sənəti» (məqalələr toplusu), Bakı, «Elm», 1990, səh.202-203). Həmçinin mətbuatda çoxsaylı publisist məqalələrlə çıxış edir.

Vəfatı tarixi dəqiq məlum deyildir. Ə.Qəribin təxminən XX əsrin 30-cu illərinin sonu, 40-cı illərinin əvvəllərində vəfat etdiyi güman olunur.

# BEŞİNCİ BÖLMƏ

# TƏNQİD VƏ ƏDƏBİYYATŞÜNASLIQ

## FİRUDİNBƏY KÖÇƏRLİ
## (1863-1920)



1863-cü il – Firudinbəy Əhmədağa oğlu Köçərli Şuşa şəhərində anadan olmuşdur (26 yanvar). Atası savadlı, Şərq poeziyasına bələd olan, yoxsullaşmış bəy idi.

1872-1876-cı illər – Şuşada Mirzə Kərim Münşinin mədrəsə məktəbində oxumuşdur.

1879-cu il – Şuşa şəhərindəki rus məktəbində təhsil almışdır. A.O.Çernyayevski (1840-1894) Şuşaya gəlmiş (1879, may), Firudinbəyi Qori müəllimlər seminariyasında oxuyanların siyahısına daxil etmişdir. Seminariyanın yuxarı hazırlıq sinfinə daxil olmuş, öz xahişi ilə aşağı hazırlıq sinfinə keçirilmişdir.

1879-1885-ci illər – Zaqafqaziya (Qori) müəllimlər seminariyasında təhsil almışdır. Müəllimlərdən A.O.Çernyayevski və M.Kipiani ilə yaxın münasibət saxlamışdır. «Təlimi Sokrat» əsərini yazmışdır (1884). Seminariyanı bitirmişdir (12 iyun). İrəvan gimnaziyasına təyinat almışdır.

1885-1895-ci illər – İrəvan gimnaziyasında ana dili, hüsnxətt fənlərini tədris etmiş, pansion mürəbbisinin köməkçisi vəzifəsini daşımışdır. Gimnaziya üçün ana dili proqramı tərtib etmişdir (1886). «Kəşkül» qəzetində «İrəvandan məktub» adlı məqaləsi dərc edilmişdir (20 aprel, №104). «Təlimi Sokrat» kitabı Baxçasarayda «Tərcüman» mətbəəsində çap olunmuşdur (1891). A.S.Puşkindən tərcümə etdiyi «Torçu və balıq» mənzum nağılı İrəvan şəhərində kitab halında çapdan çıxmışdır (1892). M.Y.Lermontovun «Üç xurma ağacı» və A.V.Tolstovun «A kişi, niyə yatıbsan» şerlərinin tərcüməsindən ibarət kitabı

Şuşada çap edilmişdir (1895). «Tatar komediyaları» adlı ilk elmi məqaləsi «Новое обозрение» qəzetində dərc olunmuşdur (3-7 iyun 1895).

Qori müəllimlər seminariyasına dəyişilmişdir (30 oktyabr 1895). Qoridə 23 il (1895-1918-ci illər) pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

1897-ci il – Badisəba xanım Köçərli (1881-1954) ilə ailə həyatı qurmuşdur.

1898-ci il – «Ərəb əlifbası və onun qüsurları» məqaləsi «Qafqaz» qəzetində dərc olunmuşdur (1,10 sentyabr, 8 oktyabr).

1900-cü il – Müəllimlər seminariyalarının Ümumdünya paris sərgisində Qori seminariyasından nümayiş etdirilən eksponatlar sırasına F.Köçərlinin kitabları da daxil edilmişdir.

1903-cü il – «Şərqi-Rus» qəzetinin nəşrə başlamasını alqışlamış, Tiflisdə «Azərbaycan tatarlarının ədəbiyyatı» adlı ilk kitabı rus dilində çap edilmişdir. M.Ə.Sabir və A.Səhhətlə tanış olmuşdur.

1904-cü il – A.P.Çexovun «At familiyası» hekayəsini tərcümə edib, kiçik bir müqəddimə ilə «Şərqi-Rus» qəzetində dərc etdirmişdir.

1905-ci il – Zaqafqaziya (Qori) müəllimlər seminariiyasının Azərbaycan bölməsinin inspektoru vəzifəsini tutmaq üçün ərizə vermiş (24 iyul), məqsədinə nail ola bilməmişdir.

1906-cı il – «Molla Nəsrəddin» jurnalının nəşrə başlamasını təqdir etmiş, jurnalın birinci üç aylıq fəaliyyəti barədə icmal hazırlayıb, «Tiflisski listok» qəzetində dərc etdirmişdir (13 iyul).

«İrşad» qəzetində «Bir darülmüəllimin kifayətdir» adlı məqalə ilə çıxış edərək, Azərbaycanda müstəqil müəllimlər seminariyası yaradılması məsələsini qaldırmışdır (№203).

C.Məmmədquluzadənin «Usta Zeynal» kitabçası haqqındakı eyni adlı məqaləsi «Znanie» qəzetində çıxmışdır (23 noyabr, №31).

1907-1909-cu illər – Qori seminariyasında ana dili və şəriət müəllimi vəzifəsində pedaqoji fəaliyyətini davam etdirmişdir.

«Vaqif və Vidadi və bunların dostluğu» məqaləsi «Dəbistan» jurnalında (26 yanvar 1907, №1), «Tərəqqi» qəzetində «Məişətimizə dair» adlı məqalələr silsiləsi (1908, №104, 109, 115), «Köçərilərin övza və əhvalı» məqaləsi (1909, №197, 203, 208) dərc olunmuşdur.

H.Zərdabinin vəfatını «Zaqafqazie» qəzeti vasitəsilə oxuculara çatdırmışdır (6 dekabr 1907, №256).

1910-cu il – Qori seminariyasının Azərbaycan şöbəsinin inspektoru vəzifəsinə təyin olunmuşdur. «Vətən dili» dərsliyi haqqında cənab Şirvanskinin rəyi münasibətilə» adlı məqaləsində («Zaqafqaziya» qəzeti, 2 aprel 1910, №74). A.O.Çernyayevskinin adı çəkilən dərsliyini müdafiə etmişdir.

1911-ci il – M.F.Axundovun anadan olmasının 100 illik yubileyi münasibətilə Tiflisdə keçirilən təntənəli yığıncaqda məruzə ilə çıxış etmişdir. «Mirzə Fətəli Axundov» adlı kitabı çap olunmuşdur (Tiflis, «Kultura» mətbəəsi).

M.Ə.Sabirin xəstəliyi, ona maddi kömək göstərilməsi barədə «Bəradərim Cəlildən çap olunmasını iltimas edirəm» adlı məqaləsi «Molla Nəsrəddin» jurnalında dərc edilmişdir (22 may 1911, №19). «Vəfati-şair» məqaləsini «Məlumat» qəzetində dərc etdirmişdir (3 avqust 1911, №19).

1912-ci il – «Balalara hədiyyə» kitabı Bakıda «Kaspi» mətbəəsində çap olunmuşdur.

1913-cü il – «Azərbaycan ədəbiyyatı tarixi materialları» adlı üç cildlik əsərini tamamlamışdır. Əsərin Bakıda çapı üçün göstərilən səylər baş tutmamışdır. Qoridən Kiyevə tələbə Y.V.Çəmənzəminliyə göndərdiyi məktubda (17 mart) «Materialları» Kiyevdə çap etdirmək istədiyini bildirmişdir.

«Molla Nəsrəddin» jurnalında «Ana dili» məqaləsi dərc olunmuşdur (16 sentyabr, 12 oktyabr, №22-23). Məmmədəli Sidqi Səfərova məktublar göndərmişdir.

1914-cü il – Qoridən Bakıya Abdulla Şaiqə məktub yazmış, «Materialları» çap etdirmək səylərini davam etdirmişdir.

1915-ci il – Seminariyada pedaqoji fəaliyyətlə məşğul olmuş, «Dost və müəllim N.O.Lomourinin xatirəsi» adlı

məqaləsi Bakıda «Kaspi» qəzetində dərc edilmişdir (22 aprel, №88).

1916-1917-ci illər – Qoridə müəllimlik etmiş, Azərbaycan şöbəsinin inspektoru vəzifəsini daşımış, şöbənin Azərbaycana köçürülməsi üçün təşəbbüs göstərmiş, təkliflər irəli sürmüşdür.

1918-ci il – Qori seminariyasının Azərbaycan şöbəsi tədris ləvazimatı və avadanlığı ilə birlikdə Qaxaz şəhərinə köçürülmüş, bunun əsasında Azərbaycan müəllimlər Seminariyası yaradılmışdır. F.Köçərli seminariyanın direktoru təyin olunmuşdur. Qazax seminariyasında ilk dərslər başlanmışdır (17 sentyabr).

1919-cu il – Azərbaycan (Qazax) müəllimlər Seminariyasında pedaqoji fəaliyyətini davam etdirmişdir. Səməd Vurğun, Osman Sarıvəlli seminariyada təhsil almışlar.

1920-ci il – F.Köçərli daşnaklar tərəfindən həbs edilmiş və faciəli şəkildə qətlə yetirilmişdir (may).

## ƏHMƏDBƏY AĞAYEV
## (1868-1939)



1868-ci il – Əhmədbəy Mirzə Həsən oğlu Ağayev Şuşa şəhərində anadan olmuşdur.

XIX əsrin 70-ci illəri – Mollaxana məktəbində oxumuşdur.

1879-1887-ci illər – Şuşa şəhərindəki realnı gimnaziyada təhsil almış, rus və Avropa mədəniyyəti barədə bilik almışdır.

1887-ci il – Peterburq Mühəndis-Texniki İnstitutunda qəbul imtahanlarında iştirak etmiş, lakin triqonometriyadan tələb olunan səviyyədə bal toplaya bilmədiyi üçün bu ali məktəbə daxil ola bilməmişdir. Fransaya getmişdir.

1888-ci il – Paris Hüquq məktəbinə qəbul olunmuşdur.

1889-cu il – Fransa inqilabının 100-cü ildönümü ilə əlaqədar Parisə gələn İran hökmdarı Nəsrəddin şahın qarşılanına mərasimində iştirak etmişdir.

1890-cı il – Paris hüquq məktəbini bitirmişdir.

1891-1992-ci illər – Parisdə tarix, şərq dilləri və məktəbləri şöbəsində oxumuşdur. Türkiyəli mühacir Əhməd Rza bəy tərəfindən türk və fransız dillərində nəşr edilən «Məşruiyyət» qəzetində, «Jurnal de Deba», «Rövyü Blö» jurnallarında məqalələri çap olunmuşdur.

1892-ci il – Londonda keçirilmiş beynəlxalq şərqşünaslıq konqresində «Şiə məzhəbinin mənbələri» mövzusunda məruzəsi dinlənilmişdir.

1894-cü il – Atasının vəfatı ilə əlaqədar Parisdən İstanbul yolu ilə Azərbaycana qayıtmışdır. İstanbulda Şeyx Cəmaləddin Əfqani ilə görüşmüşdür.

1895-1896-cı illər – Şuşada yaşamış, milli oyanış və birlik ideyalarını geniş təbliğ etmişdir. «Firəng Əhmədbəyi» ləqəbi ilə tanınmışdır. Şuşa realnı məktəbində fransız dilindən dərs demişdir. Şuşada kitabxana – qiraətxana açmışdır.

«Məşriq» qəzetini çıxarmaq istəmiş, lakin Peterburq Senzura Komitəsi buna icazə verməmişdir (1896).

1897-ci il – Hacı Zeynalabdin Tağıyevin dəvəti ilə Bakıya çağrılmış, realnı məktəbdə fransız dili müəllimi işləmiş, Əlimərdanbəy Topçubaşovla birlikdə «Kaspi» qəzetinə redaktorluq etmişdir.

1898-ci il – «Kaspi» qəzeti «Teatr və musiqi» adlı məqaləsini dərc etmişdir.

1899-1902-ci illər – «Kaspi» qəzetinin redaktoru və müəllim kimi fəaliyyətini davam etdirmişdir.

«Kaspi» qəzetində «Azərbaycan xalq poeziyasının təcrübəsi oçerkləri» (№266,272), «Müsəlman alimləri və onların elm sahəsindəki xidmətləri. İbn Xəldun» (№72) məqaləsi çap olunmuşdur.

1903-cü il – «Kaspi» qəzetində Şekspirin «Otello»su və müsəlmanlıq» (№253,255,256) adlı məqalələri oxuculara çatdırılmışdır.

1905-ci il – Əlibəy Hüseynzadə ilə birlikdə «Həyat» qəzetini nəşr etdirmişdir. Peterburqa gedərək mərkəzi hökumətdən Bakının neftli torpaqlarının bütünlüklə əcnəbilərə verilməsinin qarşısını alınağı tələb etmişdi.

1906-cı il – «İrşad» qəzeti təsis edilmiş, Ə.Ağayev bu qəzetin redaktoru kimi fəaliyyətə başlamışdır. Qafqaz canişini Vorontsov Daşkovun yanında erməni-Azərbaycan münasibəti ilə əlaqədar keçirilmiş sülh danışıqlarında mənsub olduğu xalqı layiqincə təmsil etmişdi.

«Difai» təşkilatının əsas yaradıcılarından və rəhbərlərindən biri olmuşdur.

1907-ci il – Rusiya müsəlmanlarının Peterburqda və Nijni-Novqorodda keçirilmiş qurultaylarının əsas təşkilatçılarından biri olmuş, türk-müsəlman icmasının mənafeyini müdafiə edən qərarların qəbul edilməsinə çalışmışdır.

1908-ci il – «Tərəqqi» qəzetini nəşr etdirmişdir.

1909-cu il – Rus çarizminin təqiblərindən qorunmaq üçün Türkiyəyə qaçmış, İstanbulda yaşamağa başlamışdır. Türkiyədə əvvəlcə maarif sahəsində çalışmış, sonra İstanbuldakı Süleymaniyyə kitabxanasının müdiri vəzifəsində çalışmışdır. İstanbul Universitetində türk-monqol tarixindən və rus dilindən dərs demişdir.

Oğlu Səməd Ağaoğlu dünyaya gəlmişdir.

1911-ci il – İstanbulda yaradılmış «Türk yurdu» cəmiyyətinin, «Türk ocağı» dərnəyinin əsas təsisçilərindən olmuşdur.

«Tərcümani-həqiqət» qəzetinin redaktoru kimi fəaliyyətə başlamışdır.

1912-ci il – Qəzetçilik fəaliyyətinə görə il ərzində iki dəfə qısa müddətli həbs cəzasına məhkum edilmişdir.

«İttihad və Tərəqqi» partiyasına daxil olmuşdur. Afyon-Qarahisar bölgəsindən Osmanlı parlamentinə deputat seçilmişdir.

1915-ci il – rusiyada yaşayan milli azlıqların Lozannada keçirilmiş konfransında Azərbaycanın təmsilçisi kimi çıxış etmişdir.

1917-ci il – Rusiya imperiyasında yaşayan türk xalqlarının ağır vəziyyəti barədə Amerika Prezidenti V.Vilsona təqdim edilmiş müraciətnaməni Əlibəy Hüseynzadə, Əbdürrəşid İbrahimov və Yusif Akçura ilə birlikdə imzalamışdır.

«Rus ədəbiyyatının ümumi səciyyələri» adlı geniş həcmli məqaləsi yazılmışdır.

1918-ci il – Türkiyənin Qafqaz ordusunun komandanı Nuri Paşanın müşaviri kimi Azərbaycana gəlmiş, Gəncədə «Türk sözü» adlı qəzet nəşr etdirmişdir. Qəzetin cəmi 2 sayı çap olunınuşdur.

Ə.Ağaoğlu Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentinə üzv seçilmişdir.

Ənzəlidəki ingilis komandanlığı ilə danışıqlar aparan nümayəndə heyətinə rəhbərlik etmişdir. İstanbuldakı evinin yanması ilə əlaqədar Türkiyəyə dönmüş, ingilislər tərəfindən İstanbulda həbs olunmuşdur.

1919-cu il – «İttihad və Tərəqqi» partiyasının digər liderləri ilə birlikdə guya ermənilərə qarşı mübarizədə iştirakma görə Malta adasına sürgün edilmişdir.

1921-ci il –Sürgündən azad olunmuşdur. Vətənə qayıtmaq üçün Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanova məktubla müraciət etmişdir. Nərimanovun müsbət cavab verməsinə baxmayaraq, o Bakıya qayıtmamış, Türkiyədə qalmağa üstünlük vermişdir. Türkiyədə Mətbuat İnformasiya İdarəsinin baş müdiri vəzifəsində M.K.Atatürkə yaxın bir silahdaş kimi xidmət etməyə başlamışdır.

1923-cü il – Kars şəhərindən Türkiyə Böyük Millət Məclisinə deputat seçilmişdir.

1924-1925-ci illər – M.K.Atatürkün tapşırığı ilə Anadolu Mətbuat Agentliyini yaratmışdır.

1925-ci il – «Türk təşkilati-əsasiyyəsi»nə dair hüquq kitabı Ankarada çap edilmişdir.

1926-cı il – Atatürkün rəhbərlik etdiyi Xalq Cümhuriyyəti Partiyasının bəzi üzvlərinin yanlış hərəkətləri barəsində Atatürkə məktub göndərmiş, bundan sonra Atatürklə aralarındakı münasibətdə bir qədər soyuqluq yaranmışdır.

1929-cu il – «İngiltərə və Hindistan» adlı kitabı İstanbulda Cümhuriyyət mətbəəsində nəşr olunmuşdur.

1930-cu il – M.K.Atatürkün təşəbbüsü ilə sərbəst firqə təşkilatı yaratınaq işində iştirak etmiş, çox qısa müddətdən sonra bu işdən ayrılmış, Ankaradan İstanbula köçmüşdür.

1931-1932-ci illər – «Türk hüquq tarixi» kitabı İstanbulda «Kurtuluş» mətbəəsində nəşr olunmuşdur.

1933-cü il – Həyat yoldaşı Sitarə xanım 52 yaşında dünyasını dəyişmişdir.

«Dövlət və fərd» kitabı İstanbulda çapdan çıxmışdır.

1934-cü il – «Axın» adlı qəzetin əsas təsisçilərindən biri və qəzetin Baş redaktoru olmuşdur.

İstanbul Universitetində Konstitutsiya hüququ üzrə professor vəzifəsini tutmuşdur.

1936-cı il – «Sərbəst insanlar ölkəsində» kitabı İstanbulda təkrar nəşr olunmuşdur.

1939-cu il – Ə.Ağaoğlu İstanbulda vəfat etmişdir (19 mart).

«Mən kiməm» adlı memuarı kitab halında nəşr olunmuşdur.

## ABDULLA SUR
## (1882-1912)



1882-ci il – Abdulla Sur Ağa Məhəmməd oğlu Məhəmmədzadə Gəncədə anadan olmuşdur (23 iyul).

1891-1897-ci illər – Gəncə xeyriyyə məktəbində ibtidai təhsil alınışdır.

1898-ci il – Gəncə xeyriyyə məktəbində müəllimlik etməyə başlamışdır.

1903-cü il – Məhəmmədağa Şahtaxtlının dəvəti ilə «Şərqi-Rus» qəzetində işə cəlb olunmuşdur. «Ay müsəlman qardaşlar» adlı məqaləsi böyük rəğbətlə qarşılanmışdır.

1904-1905-ci illər – «Şərqi-Rus» qəzetində fəaliyyətini davam etdirmişdir. Qəzet bağlandıqdan sonra yenidən Gəncəyə qayıtmış, «Həyat», «İrşad» qəzetlərinə məqalələr göndərmişdir.

«Zaqafqaziyada» qonşularımızdan gürcülərin maarif və ədəbiyyatına dair bir nəzər» adlı məqaləsi «Həyat» qəzetində dərc olunmuşdur (24 sentyabr 1905).

1906-cı il – İstanbul Universitetində təhsil almağa başlamışdır.

1907-ci il- «Füzuliyə bir nəzər» adlı məqaləsi «Füyuzat» jurnalında dərc edilmişdir (№30,31).

1908-ci il – İstanbul Universitetini bitirmişdir. Vətənə qayıdaraq Gəncə ruhani seminariyasında ana dili və tarix müəllimi vəzifəsində çalışmışdır.

«Türk ədəbiyyatına bir nəzər» adlı irihəcmli (min səhifəlik) elmi əsəri yazılmışdır.

1909-cu il – «Vətənə bir nəzər» adlı məqaləsi «Həqiqət» qəzetində dərc olunmuşdur.

1910-1911-ci illər – Gəncədə «Ədəbiyyat və sənaye-nəfisə cəmiyyəti»nə rəhbərlik etmişdir. Şünasinin «Şair evlənməsi» adlı bir vedovilini Azərbaycan dilinə tərcümə etmişdir.

«Azərbaycan ədəbiyyatının tarixi materialları» adlı əsəri üçün Firudinbəy Köçərliyə Gəncə ədəbi mühitini təmsil edən yazıçılar haqqında zəngin materiallar göndərmişdir.

1912-ci il – Abdulla Sur vəfat etmişdir (8 may).

# MƏMMƏDƏMİN RƏSULZADƏ
# (1884-1955)



1884-cü il – Məmmədəmin Hacı Molla Ələkbər oğlu Rəsulzadə Bakının Novxanı kəndində anadan olmuşdur (31 yanvar).

1891-1892-ci illər – Mollaxana məktəbində oxumuşdur.

1893-1900-cü illər – Soltanməcid Qənizadənin əsasını qoyduğu ikinci rus-müsəlman məktəbində təhsil almışdır.

1901-1902-ci illər – Bakı texniki məktəbinin tələbəsi olmuşdur.

1903-cü il – Məmmədəmin Rəsulzadənin ilk məqaləsi – «Səadətli Məhəmməd Ağa hüzuruna» adlı məktubu «Şərqi-Rus» qəzetində dərc olunmuşdur (2 may, №14).

«Şərqi-Rus» qəzetində «Hümmət və qeyrət vaxtıdır» məqaləsi (14 may) və «Elm tərifində deyilibdir» adlı müxəmməsi (18 may) oxuculara çatdırılmışdır.

«Azərbaycanlı gənc inqilabçılar dəməyi»ni yaratmış, bu dəməyə rəhbərlik etmişdir.

1905-ci il –«Hümmət» təşkilatına qoşuldmuşdur. Cəlil Məmmədquluzadənin «Кавказский рабочий листок» qəzetində dərc olunmuş «Binəsiblər» və «Xeyir-dua» adlı məqalələrini rus dilindən Azərbaycan dilinə tərcümə etmişdir.

«Hümmət» qəzetində «Hümmətür-rical təqləül cavab» adlı məqaləsi dərc olunmuşdur.

1906-1907-ci illər – «Mərəzimizin çarəsi», «Bəlayi-əzim» məqalələri, «Nəğmə» şeri, «Dəvət-qoç» qəzetində, «Kənddə müsibət», «Təəssüflü halətimiz», «İranda hürriyyət», «Fəhləyə dair», «Yenə də müsibətmi», «Yeni inqilab xadimi», «İranda inqilab», «Daşnaksütyunçuya rədiyyə», «Edam cəzası», «İranda bomba» kimi məqalələri «İrşad» qəzetində çap olunmuşdur (1906).

«Təkamül» qəzetinin redaktoru kimi fəaliyyət göstənnişdir.

A.Blyumun «Fəhlə sinfinə hansı azadlıqlar lazımdır» adlı əsərini rus dilindən Azərbaycan dilinə çevirnniş, Bakıda kitab halında nəşr etdirnnişdir.

1908-ci il – Cənubi Azərbaycandakı Səttarxan hərəkatına rəğbət bəsləmiş, mətbuatda ardıcıl olaraq bu barədə məqalələr dərc etdirnnişdir.

1909-cu il – İrana getmiş, Məşrutə hərəkatının liderləri və fədailəri ilə görüşmüşdür. Məşhur «İran məktubları» silsiləsindən olan publisist məqalələri meydana çıxmışdır.

1910-cu il – Seyid Həsən Tağızadə ilə birlikdə «İran Demokrat Partiyası»nı yaratmış, «İrani-nov» qəzetini təsis etmişdir. Milli-azadlıq hərəkatına dair məqalələri ilə diqqəti cəlb etmişdir.

1911-ci il – İranda siyasi baxışlarına görə təqib edilmiş, ilik ikinci yarısında Türkiyəyə mühacirət etməyə məcbur olmuşdur. Ərdəbildə «Səadəti-bəşəri» kitabı çapdan buraxılmışdır.

Hələ Bakıdan tanıdığı Əhmədbəy Ağaoğlu və Əlibəy Hüseynzadə ilə İstanbulda görüşmüşdür. «Türk ocağı»nın üzvlüyünə qəbul edilmişdir. «Türk yurdu» jurnalında məqalələri dərc olunmuşdur.

1912-ci il – Türkiyədə siyasi mühacirət həyatını yaşamaqda davam etmişdir. Şeyx Cəmaləddin Əfqaninin siyasi-fəlsəfi irsini tərcümə edib «Türk yurdu» jurnalı vasitəsilə yaymışdır.

1913-cü il – Romanovlar sülaləsinin 300 illiyi ilə əlaqədar Çar Rusiyası hökumətinin elan etdiyi əfv fərmanından sonra Azərbaycana qayıtmışdır. Bakıda «Türk Ədənü mərkəziyyət - Musavat» partiyasına daxil olmuş, az sonra bu partiyanın əsas liderlərindən birinə çevrilmişdir.

1915-ci il – Bakıda «Açıq söz» qəzetini təsis etmişdir.

1916-cı il – Siyasi fəaliyyətini və qəzetçilik işini davam etdirnnişdir.

1917-ci il – Bakıda toplanmış Qafqaz islam qurultayında və Moskvada çağrılmış Rusiya türklərinin Böyük Konqresində çıxış etmiş, «milli birlik» və «milli dövlət» tezislərinin müdafiəçisi olmuşdur.

Rusiya Qurucular Məclisinə həm Azərbaycandan, həm də Türküstandan deputat seçilmişdir.

1918-ci il – Zaqafqaziya Seymində (parlamentində) çıxış edərək Qafqazın Rusiyadan ayrılması ideyasını irəli sürmüşdür. Azərbaycanın «Milli-mədəni muxtariyyat» qazanması uğrunda mübarizə aparmışdır.

Zaqafqaziya Seymi dağıldıqdan sonra dərhal Azərbaycan Milli Şurasını yaratmış və Azərbaycanın istiqlalını elan etmişdir (28 may).

1919-1920-ci illər – Azərbaycan Xalq Cümhuriyyətinin siyasi həyatına, dövlət quruculuğuna xidmət etmişdir. «Azərbaycan Respublikası» adlı məqaləsi «İstiqlal» jurnalında dərc edilmişdir.

1921-ci il – Bolşevik Rusiyasının təqiblərindən azad olmaq üçün bir müddət gizlənməyə məcbur olmuşdur. «Əsrimizin Səyavuşu» əsərini yazmışdır. Həbs olunmuşdur. Stalinin müdaxiləsindən sonra həbsdən azad edilmişdir.

1922-ci il – Peterburqdan qayıqla Finlandiyaya keçmiş, Avropaya mühacirət etmişdir.

